# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 198 (8514) ÇƏRŞƏNBƏ AXŞAMI, 29 sentyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az







*Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. AZƏRTAC dövlət başçısının müraciətini təqdim edir.*

## Prezident İlham Əliyevin xalqa müraciəti

- Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur.

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür.

Son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter almışdır. İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində yenə də artilleriya atəşi nəticəsində hərbçilərimiz və bir mülki şəxs həlak olmuşdur. Heç kəsə sirr deyil ki, ilk atəşi, o cümlədən artilleriya atəşini Ermənistan açıbdır və ilk həlak olanlar da məhz Azərbaycan hərbçiləri olmuşdur. Azərbaycan düşmənə layiqli cavabını verdi və düşmən bir santimetr irəliyə gedə bilmədi. Düşmən dayandırıldı, ölkəmizin ərazi bütövlüyü qorundu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı. Mən bu barədə demişəm, bir daha demək istəyirəm, əgər bizim istəyimiz olsaydı, hərbi döyüşləri Ermənistan ərazisinə keçirə bilərdik. Ancaq bizim Ermənistan ərazisində hərbi hədəflərimiz yoxdur və belə olan halda bir neçə gündən sonra atəş dayandırılmışdır.

Ermənistan bu təxribatı törətməklə hansı məqsədi güdürdü? İlk növbədə Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər. Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur, bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti.

*Ardı 2-ci səh.*

## Ali Baş Komandan İLHAM ƏLİYEV:

## «Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır!»

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı iclasda çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Bildiyiniz kimi, bu gün səhər tezdən Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı növbəti hərbi təxribat törətmişdir. Bu təxribat nəticəsində itkilərimiz var, həm mülki əhali, həm də hərbçilər arasında. Bu, bir daha onu göstərir ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti davam edir və bu siyasət Ermənistanın faşist mahiyyətini bütün dünyaya göstərir.

Səhər tezdən məlumatı alan kimi, mən Müdafiə naziri, digər aidiyyəti qurumların rəhbərləri ilə əlaqə saxladım, müvafiq göstərişlər verdim və bu göstərişlər əsasında hazırda Azərbaycan Ordusu genişmiqyaslı əks-hücum əməliyyatına başlamışdır.

Bildirməliyəm ki, Ermənistanın hərbi təxribatı planlaşdırılmış təxribatdır. Onlar bu təxribata uzun müddətdir ki, hazırlaşırdılar. Bizdə olan operativ məlumat onu göstərirdi ki, Ermənistan bizə qarşı yeni müharibəyə başlamaq fikrindədir.

Mən bu məsələ ilə bağlı artıq son bir həftə ərzində bir neçə dəfə həm televiziya kanallarında müsahibəmdə, eyni zamanda, BMT kürsüsündən çıxış edərkən öz fikirlərimi bildirmişdim və demişdim ki, təcavüzkar dövlət dayandırılmalıdır. Onlar yeni müharibəyə hazırlaşırlar.

*Ardı 2-ci səh.*

## Türkiyə Azərbaycanın yanındadır



Sentyabrın 27-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Türkiyə Prezidenti Ermənistanın hərbi təxribatı nəticəsində Azərbaycan mülki şəxslərinin və hərbi qulluqçularının həlak olması ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına başsağlığı verib, onlara Allahdan rəhmət diləyib. Rəcəb Tayyib Ərdoğan həmişə olduğu kimi, bu gün də Türkiyənin Azərbaycanın yanında olduğunu vurğulayıb.

Başsağlığına görə minnətdarlığını bildirən dövlətimizin başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Türkiyə Prezidentinin daimi dəstəyini yüksək qiymətləndirib.

Prezident İlham Əliyev cəbhə xəttində Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı nəticəsində baş verən hadisələrin gedişi barədə məlumat verib.

Dövlət başçıları dost və qardaş Azərbaycanla Türkiyə arasında münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.

***Prezidentin Mətbuat xidməti***

## Hərbi vəziyyət elan edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

2020-ci il sentyabrın 27-də Ermənistan Respublikasının silahlı qüvvələrinin beynəlxalq hüquq normalarını yenidən kobud surətdə pozaraq, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutduğunu, nəticədə mülki şəxslər və hərbiçilər arasında ölən və yaralananların olduğunu, bu hücumların qarşısının alınması məqsədi ilə Azərbaycan Ordusunun əks-hücum əməliyyatlarına başladığını nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 29-cu bəndini və 111-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, Azərbaycan Respublikasına qarşı silahlı hücumlar etməsi və mütəmadi hərbi təxribatlar törətməsi ilə əlaqədar, 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edilsin.

2. Hərbi vəziyyətin təmin edilməsi məqsədi ilə “Hərbi vəziyyət haqqında” Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş tədbirlər həyata keçirilsin.

3. Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Qazax və Ağstafa rayonlarında hərbi vəziyyət dövründə saat 21:00-dan saat 06:00-dək komendant saatı tətbiq edilsin. Komendant saatının tətbiq edildiyi ərazilərdə:

3.1. şəxslərin xüsusi icazə və şəxsiyyəti təsdiq edən sənədləri olmadan küçələrdə və digər ictimai yerlərdə olmaları qadağan edilsin;

3.2. xüsusi giriş-çıxış rejimi tətbiq edilsin, nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılması üçün tədbirlər görülsün.

4. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi komendant saatının tətbiqindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsin.

5. Hərbi vəziyyət dövründə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların hüquqlarının və qanuni mənafelərinin, vətəndaşların hüquq və azadlıqlarının qismən və müvəqqəti məhdudlaşdırılmasını nəzərdə tutan tədbirlər vəziyyətin kəskinliyindən irəli gələn hüdudlar daxilində və Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tətbiq edilsin.

6. Bu Fərman təsdiq olunması üçün Azərbaycan Respublikasının Milli Məclisinə göndərilsin.

7. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi “Hərbi vəziyyət haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsindən irəli gələn vəzifələrin həyata keçirilməsini təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 sentyabr 2020-ci il*

## Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 25-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilsin.

2. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti təsdiq edilmiş planlara uyğun olaraq hərbi vəzifəlilərin səfərbərlik üzrə hərbi xidmətə çağırılmasını və hərbi-nəqliyyat vəzifəsindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 sentyabr 2020-ci il*

## Hərbi vəziyyət dövründə komendant saatının tətbiq edildiyi ərazilərin komendantının təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Hərbi vəziyyət elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 sentyabr tarixli 1166 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikasının Daxili İşlər naziri Vilayət Süleyman oğlu Eyvazov hərbi vəziyyət dövründə komendant saatının tətbiq edildiyi ərazilərin komendantı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 sentyabr 2020-ci il*

# Biz zəfər çalacağıq!



Əvvəli 1-ci səh.

Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir.

İyul ayında Azərbaycan düşmənə layiqli cavabını verdi, öz ərazi bütövlüyünü qorudu və bir daha göstərdi ki, Azərbaycanla hədə-qorxu dili ilə danışan bundan peşman olacaqdır. Əfsuslar ki, bu, onlar üçün dərs olmadı. Halbuki mən iyul təxribatından sonra demişdim ki, Ermənistanın bu acı məğlubiyyəti onlar üçün dərs olmalıdır.

Avqust ayında Ermənistan növbəti hərbi təxribata əl atdı. Bu dəfə Azərbaycana diversiya qrupu göndərilmişdir. Diversiya qrupunun başçısı Azərbaycan hərbçiləri tərəfindən saxlanılmışdır və hazırda ifadələr verir. Bu ifadələrdə açıq-aydın göstərilir ki, bu planlaşdırılmış təxribatçı diversiya qrupu Azərbaycana terror aktları törətmək üçün gəlmişdir. Mülki əhaliyə və hərbçilərimizə qarşı növbəti hərbi təxribat bu gün Ermənistan tərəfindən törədildi və qeyd etdiyim kimi, bu dəfə də onlar öz cəzasını alıblar və alacaqlar.

Ermənistanın təxribatları, eyni zamanda, Ermənistan rəhbərliyi tərəfindən verilən bəyanatlarda da öz əksini tapır. Ermənistanın baş naziri bir il bundan əvvəl işğal edilmiş torpaqlarda - Xankəndidə demişdir ki, "Qarabağ Ermənistandır və nöqtə".

Birincisi bu, yalandır, Qarabağ Azərbaycandır və mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə bildirmişəm. Qarabağ Azərbaycandır və nida işarəsi. İkincisi, bu təxribat xarakterli bəyanat faktiki olaraq danışıqlar prosesinə vurulan böyük zərbə idi. Əgər Ermənistanın baş naziri deyirsə ki, "Qarabağ Ermənistandır", onda hansı danışıqlardan söhbət gedə bilər?! Bununla paralel olaraq, Ermənistanın rəhbərliyi artıq iki il ərzində dəfələrlə bəyan edir ki, Azərbaycan Ermənistanla yox, qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Bu da danışıqlar prosesinə vurulan böyük zərbədir. İlk növbədə Azərbaycan heç vaxt oyuncaq xunta rejimi ilə hər hansı bir danışıqlar aparmayacaq. İkincisi, danışıqlar formatını dəyişdirmək cəhdləri bir daha onu göstərir ki, Ermənistanın əsas məqsədi danışıqları pozmaq və status-kvonu saxlamaqdır. Halbuki ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbul edilməzdir və bu, o deməkdir ki, işğala son qoyulmalıdır.

Ermənistanın bizə qarşı təxribatları bu faktlarla bitmir. Bu yaxınlarda bizim qədim Azərbaycanın qədim şəhəri olan Şuşada qondarma kriminal xunta rejiminin başçısının "andiçmə" mərasimi keçirilmişdir. Bu, təxribat deyilmi? Bu, bizə qarşı təhqirdir. Onlar hesab edirdilər ki, biz bu təhqirlə barışacağıq, razılaşacağıq. Onlar bizi şüurlu şəkildə təxribatlara çəkirlər və bunun acı nəticələrini görəcəklər.

Bu yaxınlarda qondarma "Dağlıq Qarabağ respublikası" parlamentinin qədim Azərbaycan şəhəri - Şuşaya köçürülməsi haqqında qərar qəbul edildi. Bu, növbəti təxribatdır. Bu yaxınlarda Ermənistanın baş naziri bəyan etmişdir ki, on minlərlə insanı birləşdirən "könüllü" hərbi birləşmələr yaradılacaqdır. Bu, nə üçün lazımdır? Bunlar kimə qarşı vuruşacaqlar? Bu, Azərbaycana qarşı bu gün törədilən təxribatın hazırlıq mərhələsi idi. Mən artıq bir neçə dəfə demişdim, o cümlədən bu yaxınlarda BMT kürsüsündən demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır və dayandırılacaqdır.

Ermənistan işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma siyasəti aparır. Bu yaxınlarda Livan ermənilərindən ibarət bir neçə ailə Dağlıq Qarabağa, o cümlədən Azərbaycanın qədim şəhəri olan Şuşaya yerləşdirildi. Bu, hərbi cinayətdir. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir. Bu cinayətə görə Ermənistan cavab verəcəkdir. Bu, bizə qarşı növbəti təxribatdır. İşğal edilmiş torpaqlarda məskunlaşma aparmaq cinayət hesab olunur və bu siyasət Ermənistan tərəfindən uzun illər ərzində aparılır. İş burasındadır ki, Ermənistanda mövcud olan ağır iqtisadi, siyasi və sosial vəziyyətə görə ölkə əhalisi azalır. Ermənistanda demoqrafik böhran yaşanır və onlarda insan resursları yoxdur ki, işğal edilmiş torpaqlarda öz adamlarını yerləşdirsinlər. Ona görə xaricdə yaşayan ermənilərə ümid edirlər. Hazırda bu siyasət davam etdirilir. Bununla paralel olaraq, bizdə olan dəqiq məlumata görə, bizim işğal edilmiş bəzi ərazilərimizdə Ermənistan qanunsuz məskunlaşma aparıbdır. Bizim rayonlarımızın, kəndlərimizin adları dəyişdirilir. Azərbaycanlıların tarixi irsi silinir. Bizim tarixi abidələrimiz dağıdılır. Azərbaycan məscidləri dağıdılır, təhqir edilir. Bizim məscidlərimizdə Ermənistan inək, donuz saxlayır. Bu, bütün müsəlman aləminə ən böyük təhqirdir. Bizim əcdadlarımızın qəbirləri traktorla dağıdılır. Bunu edən faşistlərdir, vandallardır, vəhşilərdir.

Eyni zamanda işğal edilmiş torpaqlarda bu yaxınlarda keçirilmiş hərbi təlimlər bizim üçün Ermənistanın növbəti təxribatı sayılmalıdır. Çünki bu təlimlərin bir məqsədi var: Azərbaycana hücum etmək, mülki əhalini atəşə tutmaq və yeni torpaqları işğal etmək! Sadaladığım bütün faktlar bir daha onu göstərir ki, bu gün regionda təhlükə mənbəyi Ermənistandır və onun çirkin siyasətidir.

Azərbaycan heç bir təxribata əl atmamışdır. Azərbaycan, sadəcə olaraq, öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır. Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Otuz ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalır. Otuz ilə yaxındır ki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıbdır. BMT-dən başqa bütün digər aparıcı beynəlxalq təşkilatlar bizim haqlı mövqeyimizi müdafiə edir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı ədalətli qətnamələr qəbul etmişdir. ATƏT-in qərarları, Avropa Parlamentinin qətnamələri bizim mövqeyimizi dəstəkləyir. Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

## Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür

Sentyabrın 27-də Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Emmanuel Makron Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın baş verməsindən ölkəsinin narahatlıq hissi keçirdiyini qeyd edib və münaqişənin danışıqlar yolu ilə həll olunmasının vacibliyini vurğulayıb.

Dövlətimizin başçısı qeyd edib ki, Ermənistan rəhbərliyi şüurlu şəkildə danışıqlar prosesini pozur. Ermənistan rəhbərliyinin "Dağlıq Qarabağ Ermənistandır" bəyanatı danışıqlara ciddi zərbə vurub. "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatı isə danışıqlar formatının dəyişdirilməsi cəhdidir ki, bu da qəbuledilməzdir və bu, Minsk qrupunun rəhbərliyi tərəfindən də bildirilib.

Telefon söhbəti zamanı dövlətimizin başçısı sentyabrın 27-də Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən və davam edən hərbi təxribatla bağlı hadisələrin gedişi barədə məlumat verərək qeyd edib ki, Ermənistanın Azərbaycan silahlı qüvvələrinin mövqelərini və cəbhə xətti boyu yerləşən yaşayış məntəqələrimizi ağır artilleriya silahlarından atəşə tutması nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımız həlak olub, Azərbaycan Silahlı Qüvvələri buna cavab olaraq uğurlu əks-hücum əməliyyatları həyata keçirir.

Azərbaycan Prezidenti bildirib ki, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür.

Telefon söhbəti zamanı tərəflər diplomatik kanallar vasitəsilə təmasların həyata keçirilməsi barədə razılığa gəliblər.

***Prezidentin Mətbuat xidməti***

## Almaniya Federativ Respublikasının Prezidenti zati-aliləri cənab Frank-Valter Ştaynmayerə

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Alman Birliyi Gününün 30-cu ildönümü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası Almaniya Federativ Respublikası ilə müxtəlif sahələrdə əlaqələrin inkişafına xüsusi əhəmiyyət verir. Siyasi təmaslarımız iqtisadi, humanitar sahələrdə fəal və səmərəli əməkdaşlığımızla müşayiət olunur. İnanıram ki, ölkələrimiz arasındakı qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bəşəriyyətin COVID-19 pandemiyası ilə mübarizə apardığı bir dövrdə Azərbaycan xalqının dost Almaniya xalqı ilə həmrəy olduğunu vurğulamaq istəyirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Almaniya Federativ Respublikasına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 sentyabr 2020-ci il*



# Ali Baş Komandan İLHAM ƏLİYEV:
# «Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır!»

Əvvəli 1-ci səh.

Bu gün mən Azərbaycan xalqına müraciət etdim. Müraciətdə bu təxribatın səbəbləri və son müddət ərzində Ermənistanın çirkin addımları haqqında geniş məlumat verdim, fikirlərimi bölüşdüm, onları təkrarlamaq istəmirəm. Sadəcə olaraq, bir daha bildirirəm ki, bu gün səhər tezdən bizə qarşı edilən hərbi hücum planlaşdırılmış hərbi təxribat idi. Çünki bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan bizim mövqelərimiz atəşə tutuldu və eyni zamanda yaşayış məntəqələrimiz, kəndlərimiz atəşə tutuldu. Qeyd etdiyim kimi, mülki əhali arasında itkilərimiz var. Bu, bir daha Ermənistanın, Ermənistan faşizminin eybəcər sifətini göstərir. Çünki dinc əhaliyə qarşı belə qəddarlıq ancaq faşist dövlətlərə aid ola bilər və birinci dəfə deyil, Tovuz hadisələrində, ondan sonra digər hadisələrdə, Xocalı soyqırımı erməni vəhşiləri tərəfindən əliyalın dinc əhaliyə qarşı törədilmişdir və bu dəfə də Ermənistanın əsas hədəfi bizim yaşayış məntəqələrimizdir. Onlar bu atəşi açmaqla istəyirlər ki, Azərbaycan ictimaiyyəti, Azərbaycan vətəndaşları arasında, cəbhəboyu yerləşən kəndlərdə, şəhərlərdə yaşayan insanlar arasında təşviş yaransın. Amma tam qətiyyətlə deyə bilərəm ki, - bu gün səhər mən bütün bölgələrdən, cəbhəyanı bölgələrdən məlumat almışam, - Azərbaycan vətəndaşları cəsarət göstərirlər, hər kəs öz yerindədir, ordumuza, dövlətimizə hər an dəstək verməyə hazırdırlar və bunu edirlər.

Azərbaycan Ordusu bu hərbi təxribata cavab olaraq, hazırda əks-hücum əməliyyatı keçirir. Deyə bilərəm ki, əməliyyat uğurla keçirilir. Prezident Administrasiyasına, eyni zamanda, Müdafiə Nazirliyinə göstəriş verildi ki, əhali müntəzəm olaraq hadisələrin gedişatı ilə bağlı məlumatlandırılsın. Onu deyə bilərəm ki, uğurlu əks-hücum əməliyyatı nəticəsində düşmənin canlı qüvvəsinə və hərbi texnikasına böyük ziyan vurulmuşdur. Əks-hücum nəticəsində Azərbaycanın işğal altında olan bir neçə yaşayış məntəqəsi işğalçılardan azad edilib. Bu münasibətlə bütün Azərbaycan xalqını təbrik edirəm!

Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır! Çünki Azərbaycan xalqı öz torpağında yaşamaq istəyir. Azərbaycan vətəndaşı Vətən həsrəti ilə yaşayır. Ermənilər tərəfindən, Ermənistan rəhbərliyi tərəfindən öz dədə-baba torpaqlarından zorla didərgin salınmış insanlar öz doğma ocaqlarına qayıtmaq istəyirlər. Baxmayaraq ki, artıq onların ocaqları vəhşilər tərəfindən dağıdılıb. Baxın Ağdam şəhərinin qalıqlarına. Baxın Füzuli şəhərinin qalıqlarına. Baxın işğal edilmiş ərazilərdə bizim məscidlərimizin, qəbiristanlıqlarımızın dağılmış vəziyyətinə. Bütün bunları erməni cəlladları törədib və biz tam haqlıyıq. Bizim mübarizəmiz haqq mübarizəsidir və bu gün Azərbaycan vətəndaşları dövlətə tam dəstək göstərirlər, bu dəstəyi biz daim hiss edirik. Azərbaycan vətəndaşı Azərbaycan Ordusunun yanındadır. Otuz ilə yaxın öz doğma torpaqlarına qayıda bilməyən soydaşlarımıza da üz tutub deyirəm, biz əlimizdən gələni edəcəyik ki, sizi öz doğma torpaqlarınıza qaytaraq.

Mən Ermənistana xəbərdarlıq etmişdim. Tovuz hadisələrindən sonra bir neçə dəfə xəbərdarlıq etmişdim ki, əgər onlar öz çirkin əməllərindən əl çəkməsələr peşman olacaqlar. Biz onlara 2016-cı ildə, 2018-ci ildə, bu ilin iyul ayında dərs verdik. Amma görünür ki, bu, onlar üçün dərs olmadı. Bu dəfə də dərs veririk və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əks-hücum əməliyyatı keçirir və bu əməliyyat davam edir.

Onu da bildirməliyəm ki, bizim bütün hərbi hissələrimizdə, hərbi birləşmələrimizdə ruh yüksəkliyi var. Eyni zamanda ordumuza könüllü yazılanların sayı on minlərlə insanı əhatə edir. Bu, xalqımızın öz dövlətinə sadiqliyini göstərir.

Dağlıq Qarabağ məsələsi bizim milli məsələmizdir. Dağlıq Qarabağ məsələsinin həlli bizim tarixi vəzifəmizdir. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm, biz bu məsələni elə həll etməliyik ki, Azərbaycan xalqı bundan razı olsun. Biz bunu elə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin. Biz bunu elə etməliyik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun.

Mən müxtəlif dövrlərdə dəfələrlə demişəm ki, bizə bu məsələnin, bu münaqişənin yarımçıq həlli lazım deyil. Biz öz torpağımızdayıq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Amma öz torpağımızı heç kimə verən deyilik. Mən dəfələrlə demişəm, biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycan torpaqlarında ikinci qondarma erməni dövləti yaradılsın. Heç vaxt imkan verə bilmərik və bugünkü hadisələr onu bir daha göstərir.

Dağlıq Qarabağ bizim əzəli tarixi torpağımızdır. Mən Dağlıq Qarabağın tarixi ilə, keçmişi ilə bağlı beynəlxalq tədbirlərdə müxtəlif kürsülərdən dəfələrlə öz sözlərimi demişəm. Tarixi həqiqətləri dünya ictimaiyyətinə çatdırmışam. Bizim məqsədyönlü və yorulmaz səylərimiz nəticəsində bu gün Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dünyada tam geniş təsəvvür var. Ancaq münaqişənin ilk illərində bu, belə deyildi. Münaqişənin ilk illərində dünya erməniliyi Azərbaycanı işğalçı kimi, təcavüzkar kimi təqdim edirdi. Əfsuslar ki, o vaxt Azərbaycan rəhbərliyində olmuş şəxslər bu təbliğata qarşı öz sözünü deyə bilmədilər. Azərbaycan elə bir ağır vəziyyətdə idi ki, torpaqlarımız əldən gedirdi, amma dünyada elə bilirdilər ki, Azərbaycan təcavüzkardır. Qarabağ torpaqlarının itirilməsinin səbəbkarı Azərbaycan Xalq Cəbhəsi Partiyası, Müsavat Partiyasıdır. Məhz onların dövründə torpaqlarımız işğal altına düşüb. Onların xəyanətkar, yarıtmaz fəaliyyəti nəticəsində biz bu torpaqları itirmişik. Mən həmişə deyirdim ki, biz müvəqqəti itirmişik, biz bu torpaqlara qayıtmalıyıq. Şuşanın satılması sırf o vaxt hakimiyyət uğrunda gedən mübarizənin nəticəsində baş vermişdir. Kəlbəcərin, Laçının işğal altına düşməsi Azərbaycan Xalq Cəbhəsi hakimiyyətinin birbaşa məsuliyyətidir. Məhz bu işğaldan sonra demək olar ki, növbəti işğal da qaçılmaz oldu. Çünki Laçının, Kəlbəcərin, Şuşanın işğal altına düşməsi Dağlıq Qarabağ ilə Ermənistan arasında coğrafi bağlantı yaratmışdır. Belə olan halda əlbəttə ki, o bölgələrə, Dağlıq Qarabağa silah təchizatı, ondan sonra digər maddi resursların təchizatı asanlaşmışdır.

Bu gün biz Azərbaycan Xalq Cəbhəsi Partiyasının və Müsavat Partiyasının yarıtmaz əməllərini, bu ləkəni Azərbaycanın üstündən silirik. Bu gün biz öz torpaqlarımızı bərpa edirik. 2016-cı ildə Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi. Bu gün - 2020-ci ildə, artıq bir daha qeyd etmək istəyirəm ki, bir neçə yaşayış məntəqəmiz işğalçılardan azad edildi, bir neçə strateji yüksəkliklər Azərbaycanın nəzarətinə keçdi. Güclü Azərbaycan Ordusu güclü siyasi iradəyə əsaslanır.

Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır.

Mən Azərbaycan xalqına bu məlumatı verməklə bir daha demək istəyirəm ki, biz haqq yolundayıq, biz özümüzü müdafiə edirik. Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan silahlı birləşmələrinin heç bir məqsədi, hədəfi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğalçılardan azad edəcəyik.

İndi isə məlumat üçün söz verilir Müdafiə naziri Zakir Həsənova.

Müdafiə naziri **Zakir HƏSƏNOV** dedi:

- Möhtərəm Prezident, cənab Ali Baş Komandan. Məruzə edirəm ki, saat 6-ya bir neçə dəqiqə qalmış erməni silahlı qüvvələri Füzuli, Cəbrayıl, Tərtər və Ağdam rayonlarının kəndlərini artilleriyadan atəşə tutmuşdur. Dağıntılar, əhali arasında yaralananlar və itkilər olmuşdur. Hərbi hissələrin ön xətti də atəşə tutulmuşdur. Eyni vaxtda Ağdam, Füzuli, Cəbrayıl istiqamətindən düşmənin silahlı qüvvələrinin cəmləşməsi müşahidə olunmuşdur və onların hücuma hazırlaşdığı müşahidə edilmişdir. Əməliyyat şəraiti nəzərə alınaraq, ilk növbədə, Sizə məruzə olunmuşdur. Əməliyyat şəraitini nəzərə alaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatı həyata keçirib. Əks-hücum əməliyyatı nəticəsində düşmənin ön xətti yarılmışdır. Mənə indi əlavə məlumat da verdilər, yeddi kənd işğaldan azad olunmuşdur. Məsləhətdirsə adlarını burada qeyd edim?

**Prezident İlham ƏLİYEV:**

**-** Qeyd et.

Nazir **Zakir HƏSƏNOV:**

**-** Qaraxanbəyli, Nüzgar, Yuxarı Əbdürrəhmanlı, Böyük Mərcanlı, Kənd Horadiz, Qərvənd kəndləri azad edilmişdir. Azərbaycan Ordusu digər istiqamətlərdə uğurlu əks-hücum əməliyyatı həyata keçirir və düşmən böyük itkilər verərək geri çəkilir. Xüsusi qeyd etmək istəyirəm ki, Azərbaycan Ordusunun zərbələri həm ön xətdə, həm də düşmənin tam dərinliyində həyata keçirilir. Siz qeyd etdiyiniz kimi, ən müasir silahlar tətbiq olunur və biz düşmənin müqavimətini o qədər də güclü görmürük. Düşmən tam şəkildə geri çəkilir.

Məruzə etdi Müdafiə naziri general-polkovnik Həsənov.

**Prezident İlham ƏLİYEV:**

**-** Aydındır. Biz Təhlükəsizlik Şurasının qalan hissəsini qapalı rejimdə keçirəcəyik. Əminəm ki, Azərbaycan vətəndaşları bu qərara anlayışla yanaşacaqlar. Çünki müzakirə olunan məsələlərin bir çoxu hərbi sirr təşkil edir. Ancaq yenə də demək istəyirəm ki, Azərbaycan əhalisi müntəzəm olaraq həm Prezident Administrasiyası, həm Müdafiə Nazirliyi tərəfindən məlumatlandırılır. Azərbaycan vətəndaşlarına operativ məlumat çatdırılacaqdır.

Mən əldə edilmiş ilk uğurlar münasibətilə Azərbaycan xalqını, Azərbaycan Ordusunu təbrik edirəm. Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!

* * *

Sonda Təhlükəsizlik Şurasının digər üzvləri müzakirədə iştirak etdilər.

# “Cənab Ali Baş Komandan, Sizin ətrafınızda sıx birləşib ərazi bütövlüyümüz uğrunda canımızdan keçməyə hər an hazırıq”



**Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısını uğurla alması, düşmənə sarsıdıcı zərbələr endirməklə cəbhədə əldə etdiyi qələbələr xalqımız tərəfindən böyük sevinclə və ruh yüksəkliyi ilə qarşılanır. Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları bu nailiyyətlərə görə Prezident, Ali Baş Komandan İlham Əliyevə çoxsaylı təbrik və minnətdarlıq məktubları yazırlar. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.**

Bakı şəhərinin sakini **Babək Babaşov** yazır: “Cənab Ali Baş Komandan, illərdir gözlədiyimiz və tərəfinizdən verilən bu cəsur qərar üçün Sizə minnətdarlığımı bildirirəm. Hər bir vətənpərvər vətəndaşımız kimi, mən də torpaqlarımızın, dədə-baba yurdumuzun mənfur düşməndən azad olunacağı günləri səbirsizliklə gözləyirdim. Əmin ola bilərsiniz ki, bu şərəfli yolda hamımız Sizin əmrinizdəyik. Torpaqlarımızı tam şəkildə azad edəcəyimiz gün üçün hazırıq. Siz öz üzərinizə düşəni etdiniz, indi növbə bizimdir. Tanrı Sizə xalqımızın və ölkəmizin firavanlığı, Qarabağımızın azad edilməsi uğrunda fəaliyyətinizdə yardımçı olsun. Sizin timsalınızda bütün xalqımızı təbrik edirəm. Qarabağ Azərbaycandır!”

Azərbaycan Ordusunun əldə etdiyi nailiyyətlər qardaş Türkiyədə də böyük sevinclə qarşılanır. Türkiyənin Konya şəhərindən **Ömər Ulusoy** dövlətimizin başçısına yazır: “Hörmətli cənab Prezident!

Sizi və xalqınızı salamlayaraq ölkənizin təcavüzə uğradığı bu günlərdə yanınızda olduğumu, düşmənə layiqli cavab verərək qələbə çalacağınıza əmin olduğumu bildirmək istəyirəm. Biz iki dövlət, bir millətik. Buna görə də ölkənizə gəlib qanımın son damlasına qədər vuruşmağa, qardaşlarıma dəstək verməyə hazıram. Qələbə sevincini bir yerdə yaşamaq arzusu ilə əmrinizi gözlədiyimi bildirirəm”.

Türkiyənin Bursa şəhərindən **Dəmirəl Hüseyin** yazır: “Hörmətli cənab Prezident, Vətənin müdafiəsi və düşmənə cavab zərbəsi endirilməsi üçün verdiyiniz cəsur qərarla əlaqədar Sizi təbrik edirəm. Bir türk vətəndaşı olaraq qardaş Azərbaycanın bu çətin günündə ya ön cəbhədə, ya da arxa cəbhədə kömək etmək üçün Sizin əmrinizdəyəm. Biz türk olaraq birlikdə güclüyük və bunu ermənilərə sübut edəcəyik”.

İsmayıllı rayonundan **Qədir Məmmədovun** məktubunda deyilir: “Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin uzaqgörən və qətiyyətli siyasətiniz nəticəsində bu günlər cəbhədən şad xəbərlər alırıq. Bu xəbərlər Sizin xalqımıza verdiyiniz vədlərə sadiqliyinizin bariz nümunəsidir. Azərbaycan xalqı, Azərbaycan gəncliyi Sizə, öz dövlətinə, öz ordusuna güvənir. Mən də bir Azərbaycan gənci olaraq hər an əlimdə silah ön xətdə vuruşaraq Vətəni azad etməyə hazıram”.

İmişli rayonundan **Novruz Hüseynov:** “Möhtərəm cənab Prezident, Azərbaycan Ordusunun qələbəsi münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Sizi tam əmin etmək istəyirəm ki, biz gənclər apardığınız daxili və xarici siyasəti daim dəstəkləyirik, Sizin və Azərbaycan dövlətinin əsgərləri olaraq hər an əmrinizdəyik. Ulu Tanrı Sizi və ailənizi qorusun!”

Füzuli rayonundan **Sahilə Qurbanova:** “Hörmətli cənab Prezident, mən Qurbanova Sahilə Fuad qızı Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Uzun müddətdən sonra Füzuli rayonunun sakini olaraq sevinc və qürur hissləri keçirirəm. Bunu Siz Ali Baş Komandanımıza və güclü Ordumuza borcluyuq. Dağlıq Qarabağda üçrəngli bayrağımızın dalğalanmasını, himnimizin bütün işğal olunmuş rayonlarda səslənməsini bir Azərbaycan vətəndaşı olaraq ürəkdən istəyirəm. Hər an ölkəmizin yanındayıq. Biz birlikdə güclüyük!”

Türkiyənin Düzce şəhərindən **Özkan Abdussamed** yazır: “Hörmətli cənab Prezident, işğalçı ermənilərə qarşı müharibədə azərbaycanlı qardaşlarıma yardımçı olmaq istəyirəm. Əgər ordunuza əsgər lazım olarsa, məni çağırın, həmin anda gələrəm. Şükür Allaha, əlim silah tutur, canımda təpər, ürəyimdə Azərbaycana sevgi var. Erməni cəlladlarına qarşı vuruşmaq və qisas almaq mənə nəsib olarsa, özümü çox xoşbəxt hesab edərəm. Yaşasın böyük türk birliyi!”

Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndindən **Tural Quliyev:** “Hörmətli cənab Prezident, mən Cəbrayıl rayonu Böyük Mərcanlı kənd sakini olaraq doğulduğum ildən Vətən həsrəti ilə yaşayıram. Bu gün mənim doğum günümdə mənə və ailəmə doğulduğum Böyük Mərcanlı kəndini hədiyyə etdiyiniz üçün sevincimizin həddi-hüdudu yoxdur. Nəhayət ki, Sizin və ordumuzun şücaətiniz sayəsində bütün Azərbaycanın neçə illərdir ki, həsrətlə gözlədiyi gün gəlib çatmışdır. Yağı düşmən layiqli cəzasını Sizin əmrinizlə almışdır. Mənim doğum günümdə belə şərəfli, ləyaqətli və tarixə düşmüş hədiyyəni bizim ailəyə bəxş etdiyiniz üçün Sizə dərin minnətdarlığımızı bildiririk. İnşallah, sayənizdə yaxın günlərdə Azərbaycan öz tarixi torpaqlarına tamamilə qovuşacaqdır. Hər bir Azərbaycan vətəndaşına göstərdiyiniz diqqətə görə Sizə dərin təşəkkürümü bildirirəm. Yaşasın Azərbaycan xalqı, yaşasın cənab Ali Baş Komandanımız, yaşasın Azərbaycan Ordusu!”

Lerik rayonundan **Cahani Nüsrətzadə:** “Cənab Ali Baş Komandan, son günlər cəbhədəki erməni təxribatına verilmiş layiqli cavablar bizləri bir daha ruhlandırdı. Sizin uzaqgörən və müdrik qərarlarınızı dəstəkləyirik. Biz Sizin ətrafınızda həmişə olduğu kimi, yenə sıx birləşib mənfur düşmənlərimizə layiq olduğu yeri göstərməyə hər an hazırıq. Düzgün və uğurlu siyasətiniz xalqımızı xoşbəxt gələcəyə aparır. Cənab Ali Baş Komandan, mən bir gənc olaraq doğma Vətənimiz Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi üçün hər an ön cəbhəyə getməyə hazıram. Bunun üçün Sizin əmrinizi gözləyirəm. Hər birimiz əsgərik və Vətən uğrunda döyüşə hər an hazırıq”.

Lerikin daha bir sakini **Əlizamin Rzayevin** məktubunda deyilir: “Möhtərəm cənab Prezident, Lerik rayonunda yaşayan bir gənc olaraq bildirmək istəyirəm ki, rayonumuzun bütün gəncləri hər zaman Sizin siyasətinizi dəstəkləyir və bir yumruq kimi ətrafınızda sıx birləşib. Sizin rəhbərliyinizlə ölkəmiz bütün sahələrdə mənfur qonşularımızı üstələyir, regionun ən güclü dövlətinə çevrilib. Cəbhə xəttində erməni təxribatlarının qarşısının ordumuz tərəfindən uğurla alınması, düşmənə sarsıdıcı zərbələr endirilməsi bunu bir daha sübut edir. Bütün bunlar bizi ruhlandırır. Hər zaman Sizin, Şanlı Ordumuzun yanındayıq, cənab Ali Baş Komandan. İşğal altında olan torpaqlarımızın geri qaytarılması üçün əmrinizi gözləyirik. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün canımızdan və qanımızdan keçməyə hər an hazırıq”.

Gəncə şəhərindən **Xaliq Qurbanov** yazır: “Möhtərəm cənab Prezident, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində apardığınız siyasətə və ordumuzun gücünün artırılması ilə bağlı görülən işlərə görə bir vətəndaş olaraq razılığımı bildirmək istəyirəm. Hazırda regionun ən qüdrətli ölkəsi olan Azərbaycan Respublikasını dünya ictimaiyyəti indi daha yaxşı tanıyır. Son müsahibələrinizdə erməni tərəfinin sərsəm açıqlamalarına qarşı verdiyiniz tutarlı cavablar və erməni silahlı qüvvələrinə vurulan sarsıdıcı zərbələr xalq arasında bu münaqişənin tezliklə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacağına dair fikirləri daha da əminləşdirir. Allah Azərbaycanımıza yar olsun! Sizin apardığınız siyasətin dövlətimizin işıqlı gələcəyini təmin edəcəyinə hər bir azərbaycanlı kimi, mən də tam əminəm. Allah xalqımız və dövlətimiz uğrunda sevə-sevə, yorulmadan çalışan, respublikamızı qorumağa çalışan hər birimizin yardımçısı olsun. Allahın amanında olasınız, cənab Prezident!”

# Münaqişə Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həll olunmalıdır

Sentyabrın 28-də BMT-nin Baş katibi Antonio Quterreşin təşəbbüsü ilə onunla Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev arasında videokonfrans formatında görüş olub.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev dünən Ermənistanın Azərbaycana qarşı törətdiyi hərbi təxribatla bağlı hadisələrin gedişinə dair məlumat verdi. Qeyd etdi ki, sentyabrın 27-də Ermənistan təmas xətti boyunca Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və yaşayış məntəqələrimizi ağır artilleriyadan atəşə tutub və bunun nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımız həlak olublar. Azərbaycan tərəfi özünümüdafiə məqsədilə uğurlu əks-hücum əməliyyatları həyata keçirir.

Dövlət başçısı vurğuladı ki, Ermənistan tərəfi birinci dəfə deyil belə hərbi təxribatlar törədir. Belə ki, işğalçı ölkə bu ilin iyul ayında Azərbaycan-Ermənistan dövlət sərhədində buna oxşar təxribat həyata keçirib, avqust ayında isə erməni diversiya dəstəsi təmas xəttini keçməyə cəhd edib. Eyni zamanda Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərinə başqa ölkələrdən xarici vətəndaşların qanunsuz məskunlaşmasını həyata keçirir ki, bu da Cenevrə Konvensiyasına görə beynəlxalq hüququn ciddi pozulmasıdır.

Dövlət başçısı onu da qeyd etdi ki, Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələri yaradıb.

Prezident İlham Əliyev söhbət zamanı bildirdi ki, o, Ermənistanın yeni müharibəyə hazırlaşmasını BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışında qeyd etmişdir.

Dövlət başçısı bildirdi ki, Ermənistan rəhbərliyi şüurlu şəkildə danışıqlar prosesini pozur. Ermənistan rəhbərliyinin “Dağlıq Qarabağ Ermənistandır” bəyanatı danışıqlara ciddi zərbə vurub. “Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır” bəyanatı isə danışıqlar formatının dəyişdirilməsi cəhdidir ki, bu da qəbuledilməzdir və bu, Minsk qrupunun rəhbərliyi tərəfindən də bildirilib.

Prezident İlham Əliyev dedi ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həll olunmalıdır.

Söhbət zamanı Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının COVID-19-la mübarizəyə həsr olunmuş Xüsusi Sessiyası müzakirə edildi və dövlət başçısı bu təşəbbüsə göstərdiyi dəstəyə görə BMT Baş katibinə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanın COVID-19 ilə mübarizə istiqamətində beynəlxalq müstəvidə səylərini bundan sonra da əsirgəməyəcəyini qeyd etdi.

Videokonfrans formatında keçirilən görüşdə Azərbaycanla BMT arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə olundu.

# Xalq orduya və Komandana güvənir, arxalanır

# İlham Əliyevin rəhbərliyi ilə tariximizin şərəfli səhifəsi yazılır

## Hərbi vəziyyətə keçidə razılıq verən Milli Məclis hər bir vətəndaşı qanunvericiliyin öhdəliklərini və tələblərini yerinə yetirməyə çağırır

**Sentyabrın 27-də Milli Məclisin iclası keçirildi. Milli Məclisin Sədri Sahibə Qafarova iclası açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.**



### Dağlıq Qarabağ probleminin həlli bizim milli məsələmizdir

Sahibə Qafarova bildirdi ki, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 29-cu bəndinə və 111-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Hərbi vəziyyət elan edilməsi haqqında" Fərman imzalamış və təsdiq olunması üçün Milli Məclisə təqdim etmişdir. "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinə görə, "Hərbi vəziyyətin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı Azərbaycan Respublikasının Milli Məclisinə daxil olduqdan sonra 48 saat müddətində növbəti və növbədənkənar sessiyalar dövrünün olub-olmamasından asılı olmayaraq, Azərbaycan Respublikası Milli Məclisinin iclası keçirilir. Bugünkü iclasın keçirilməsi də bu zərurətdən irəli gəlir.

Milli Məclisin Sədri dedi ki, Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycana qarşı növbəti planlaşdırılmış təxribata əl atmışlar. İşğalçı ölkənin silahlı qüvvələri müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək Azərbaycanın yaşayış məntəqələrini və hərbi mövqelərimizi bir neçə istiqamətdən atəşə tutmuşlar. Mülki əhali və hərbi qulluqçular arasında həlak olanlar və yaralananlar var.

İclasda şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Milli Məclisin Sədri daha sonra diqqətə çatdırdı ki, Ermənistanın xaincəsinə hücumu erməni faşizminin, işğalçı ölkənin hərbi və siyasi rəhbərliyinin beynəlxalq hüquqa qarşı saymazyana münasibətinin növbəti bir təzahürüdür: "Ermənistan bu təxribatı törətməklə işğalçılıq siyasətini genişləndirmək və təcavüzkar siyasətini davam etdirmək niyyəti güdür. Xatırlatmaq istəyirəm ki, bir neçə gün əvvəl Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışı zamanı Ermənistanın planlaşdırdığı təcavüz aktı və hərbi təxribatları barədə beynəlxalq ictimaiyyətə xəbərdarlıq etmişdir. İyul ayında Tovuzda baş verən təxribatdan sonra bu gün baş verənlər Ermənistan faşizminin iç üzünü və çirkin mahiyyətini açıb göstərir.

Bütün xalqımız əmindir ki, şəhidlərimizin qanı yerdə qalmayacaqdır və qalmır. Azərbaycan Ordusu bütün cəbhəboyu uğurlu əks-hücum əməliyyatları həyata keçirir və düşmənə sarsıdıcı zərbələr endirir. Artıq düşmənin ön xətti yarılmış, Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Abdulrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri işğaldan azad edilmişdir".

Sahibə Qafarova bu münasibətlə təbriklərini çatdırdı.

Ermənistan ordusunun təxribatları barədə beynəlxalq ictimaiyyətə məlumat verildiyini bildirən spiker qeyd etdi ki, Türkiyə Böyük Millət Məclisinin Sədri cənab Mustafa Şentop zəng edərək qardaş ölkənin Azərbaycana dəstəyini bir daha ifadə edib. Milli Məclis tərəfindən beynəlxalq parlament təşkilatlarına və milli parlamentlərə Ermənistanın bu təxribatı haqqında məktublar göndərilib.

"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi, Dağlıq Qarabağ məsələsi bizim milli məsələmizdir. Dağlıq Qarabağ məsələsinin həlli bizim tarixi vəzifəmizdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq, bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" -deyə Sahibə Qafarova bildirdi.

Sonra Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Hərbi vəziyyət elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanını oxudu.

### Tarixi qərar

Müzakirələr zamanı Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli bildirdi ki, hərbi vəziyyətin elan olunması haqqında cənab Prezidentin fərmanı tarixi bir qərardır: "Nə üçün məhz indi belə fərman verildi. Uzun illərdir xalqımız torpaqlarımızın işğaldan azad olunması çağırışları edir. Son zamanlar mürtəce Ermənistan sistemli şəkildə həm siyasi, həm də hərbi təxribatlar həyata keçirirdi. Bir neçə gün bundan əvvəl Prezident İlham Əliyev BMT Baş Assambleyasının yubiley iclasında bu təxribatları dünya ictimaiyyətinə çatdırdı. Cənab Prezident həm də Ermənistanın mənfur niyyəti ilə bağlı dünya ictimaiyyətini xəbərdar etdi. Sentyabrın 27-də səhər Ermənistanın hücumları nəticəsində mülki vətəndaşlarımız həlak oldular. Artıq gözləmək vaxtı deyildi və cənab Prezident tərəfindən belə bir fərman verilməsi zərurəti meydana çıxdı".

Əli Hüseynli bildirdi ki, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinin səbəbləri ilə bağlı cənab Prezident dəfələrlə açıqlamalar verib. Ermənilərin havadarları mövcud olmasaydı, buna cəsarətləri və gücləri çatmazdı. Təəssüflər olsun ki, o dövrdə Azərbaycanda hakimiyyətdə olanlar da bu işğal üçün şərait yaratmışdılar. İndi isə Azərbaycanın bütün siyasi qüvvələri-hakimiyyət, dövlət Qarabağ problemi ətrafında birləşib. O zaman da bunu etmək mümkün idi. Lakin yalnız vəziyyət kritik həddə çatanda Ulu Öndər Heydər Əliyevi hakimiyyətə dəvət etdilər. Bu gün Azərbaycanı səciyyələndirən fərqli cəhət bundan ibarətdir: xalq-hakimiyyət birliyi, vətəndaş cəmiyyəti ilə dövlətin birliyi və Ali Baş Komandana olan böyük etimad. "Heç şübhə yoxdur ki, məhz Ali Baş Komandana olan böyük etimad, Ordumuza olan inam zəfəri bizə yaxınlaşdıracaq. Bu baxımdan hesab edirəm ki, Azərbaycan parlamenti bir daha dövlətçilik mövqeyini göstərdi. Əminəm ki, xalqımız da hərbi vəziyyətin elan olunması ilə bağlı qanunvericiliyin cəmiyyətimizin üzərinə qoyduğu öhdəlikləri, tələbləri yerinə yetirəcək, bu məsələyə məsuliyyətlə yanaşacaq. Hərbi vəziyyət elan olunması haqqında qanunvericilikdə nəzərdə tutulmuş tələblərin yerinə yetirilməsinin özü də bizi qələbəyə yaxınlaşdıracaq", - deyə Əli Hüseynli bildirdi.

### Azərbaycan bu döyüşlərdən qələbə ilə çıxacaq

Milli Məclisin Sədrinin müavini Fəzail İbrahimli dedi ki, bu gün müstəqillik tariximizin çətin, mürəkkəb, məsuliyyətli və şərəfli səhifəsini yaşayırıq. Üzləşdiyimiz hadisə hər hansı zaman kəsiyində baş verən hadisə deyil. 200 ildən artıqdır xristian ağuşunda yer tutan ermənilərin son təxribatları xalqımıza qarşı törədilən növbəti cinayətdir. Artıq zaman başqadır, ordumuz çox güclü, qətiyyətli və peşəkardır: "Ali Baş Komandanın əmrini uğurla yerinə yetirir, yetirəcək və heç şübhə yoxdur ki, Azərbaycan bu döyüşlərdən qələbə ilə çıxacaq və müstəqillik tariximizə yeni şərəfli səhifə yazılacaq".

Fəzail İbrahimli onu da diqqətə çatdırdı ki, ordu öz işini görür. Hər bir azərbaycanlı da öz vətəndaşlıq mövqeyini ortaya qoymalı, ideoloji cəbhədə fəal olmalı, Prezidentinin ətrafında sıx birləşməlidir: "Azərbaycan haqq işini sonadək yerinə yetirəcək və bu zalda biz birlikdə uğurlu qələbəmizi qeyd edəcəyik".

> ### "Hərbi vəziyyət elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının təsdiq edilməsi barədə
>
> ### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı
>
> Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin 8-ci bəndinə və 111-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**
>
> "Hərbi vəziyyət elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 sentyabr tarixli 1166 nömrəli Fərmanı təsdiq edilsin.
>
> ***Sahibə QAFAROVA,***
> *Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
>
> *Bakı şəhəri, 27 sentyabr 2020-ci il*

### 2 yaşlı Zəhranı ermənilər öldürəndə beynəlxalq təşkilatlar harda idi?

Parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov dedi ki, bu gün tarix yazılır: "Azərbaycanın müasir tarixi yazılır və bu tarixi Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan xalqımızla birlikdə yazır. Bu, işğaldan azadolma tarixidir. Və bu qızıl hərflərlə Azərbaycanın tarixinə yazılacaq". Qeyd etdi ki, beynəlxalq qanunlara, dünyaya meydan oxuyan, xalqımıza qarşı cinayətlər törədən, Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədən Ermənistan öz təcavüzkar siyasətinin məntiqi sonuna gəlib çıxmalıdır. İllər boyu təcavüzdən əziyyət çəkən Azərbaycan bu gün erməni faşizminin qarşısını alır. BMT, Avropa İttifaqı, Avropa Şurası, ATƏT və başqa beynəlxalq təşkilatlar müxtəlif sənədlər qəbul ediblər, ancaq icrasına nail olmayıblar. Bu gün Azərbaycan əsgəri torpaqlarımızı azad etməklə yanaşı, beynəlxalq qanunu bərpa edir. Xalqımız torpaqlarımızı erməni faşizmindən xilas etməklə həm də dünyanı erməni faşizmindən azad edir.

"Müxtəlif ölkələr, təşkilatlar məsələnin sülh yolu ilə həllinə dair bəyanatlar verir. Harda idi bu beynəlxalq təşkilatlar 2 yaşlı Zəhranı ermənilər Füzulidə öldürəndə? 76 yaşlı ahılı evində öldürən ermənilər bu cinayəti törədəndə harda idiniz? Axı biz hamıya xəbərdarlıq etmişdik. Cənab Prezident son zamanlar iki dəfə dünyaya müraciət edərək Ermənistanın işğalçılığı ilə bağlı mesajlarını göndərdi. Biz təxribatçı siyasətin iç üzünü açdıq. Dünyaya göstərdik ki, bunların mənbəyi, ideologiyası Yerevanda Njdeyə qoyulmuş abidənin içindən gəlir. Bu, sadəcə, işğalçı siyasət deyil, ermənilərin ideologiyası dünya qaydalarına ziddir. Ona görə bu gün xalqımız məntiqlə, rəşadətlə, iradəsi ilə həm torpaqlarının azad edilməsi uğrunda çalışır, həm də dünyanın qayda-qanunlarını düz istiqamətə yönəldir", - deyə Səməd Seyidov bildirdi.

### Ordumuz İlham Əliyevin rəhbərliyi ilə işğal olunmuş ərazilərimizi azad edəcək

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev bildirdi ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin imzaladığı fərman tarixi zərurətdir. Çünki 30 ildir Azərbaycana qarşı Ermənistanın təcavüzü davam edir. Ermənistan hər dəfə sülh danışıqlarından yayınmış və BMT-nin müəyyən etdiyi prinsipləri kobudcasına pozmuş, illərlə ardıcıl şəkildə hərbi təxribatlar törədərək günahsız, dinc azərbaycanlıları, hərbçiləri qətlə yetirmişdir. Azərbaycan Ordusu Ermənistanın növbəti təxribatına cavab olaraq, təcavüzkarın atəş nöqtələrini susdurmaqla işğal altında olan ərazilərimizin azad edilməsinə və vətəndaşlarımızın təhlükəsizliyinin təmin edilməsinə başlamışdır.

Bəxtiyar Əliyev daha sonra dedi: "Cənab İlham Əliyev bu günlərdə BMT tribunasından bir daha dünyaya səsləndi ki, Ermənistan təpədən-dırnağa kimi silahlandırılır, amma BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamədə bu qadağan edilmişdir. Bütün dünyaya bəyan olundu ki, Ermənistan növbəti təcavüzə hazırlaşır və bu ilin iyul ayında Tovuz rayonu istiqamətində Azərbaycanın dövlət sərhədini pozmaq cəhdi bu işğal siyasətinin bir bəndi idi. Dövlət başçısı dünya ictimaiyyətinə səsləndi ki, Ermənistanı bu işğalçı addımlardan çəkindirin. Bu çağırışa vaxtında və dərhal reaksiya verilməməsi Ermənistana növbəti təxribat törətməsinə imkan yaratmışdır. Ona görə bu günlərdə Azərbaycan BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnaməyə uyğun olaraq Ermənistan silahlı qüvvələrinin işğal olunmuş torpaqlarımızdan qeyd-şərtsiz və dərhal çıxarılmasını, eyni zamanda Azərbaycanın həmin sənədlərdə qeyd edilmiş ərazi bütövlüyünün bərpa edilməsi missiyasını öz üzərinə götürmüşdür".

Qeyd olundu ki, xalqımız və dünya ictimaiyyəti bunu dəstəkləyir. Müzəffər Ordumuz və xalqımız İlham Əliyevin rəhbərliyi ilə tez bir zamanda işğal olunmuş ərazilərimizi azad edəcək, bölgəyə sülh və əmin-amanlıq gətiriləcək.

### Hər kəs İlham Əliyevin ətrafında birləşməli və vahid mövqedən çıxış etməlidir

"Bu gün tarixi bir hadisəni yaşayırıq. Xalqımız 27-28 ildir bu günü gözləyirdi. Cənab Prezident, Ali Baş Komandan İlham Əliyev başda olmaqla silahlı qüvvələrimizi və xalqımızı kəndlərimizin azad olunması, işğalçı Ermənistana layiqli cavab verilməsi münasibəti ilə təbrik edirəm. İnanırıq ki, qələbə xəbərləri daha da artacaq və biz torpaqlarımızın hamısını mütləq işğaldan azad edəcəyik". Bunu Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva bildirdi.

Onun sözlərinə görə, Azərbaycan qadınları özlərini Ali Baş Komandanın əmrində könüllü əsgər hesab edirlər. Hər bir qadın bu gün dövlətimizin, ordumuzun yanındadır və kişilərlə birlikdə torpaqlarımızın azadlığı uğrunda canlarından keçməyə hazırdır. Qənirə Paşayeva onu da diqqətə çatdırdı ki, bu gün dünyanın harasında yaşamasından və siyasi düşüncəsindən asılı olmayaraq hər bir azərbaycanlı Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməli və vahid mövqedən çıxış etməlidir.

Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc isə dedi ki, ordumuzun torpaqlarımızın azadlığı uğrunda hərbi əməliyyata başladığı gün müstəqillik tariximizin, eləcə də son 100 ilin önəmli günü kimi yaşanmaqdadır. Qeyd olundu ki, Təhlükəsizlik Şurasının iclasında kəndlərimizin azad olunması xəbərinin verilməsi həm də bütün şəhidlərimizin ruhunu sevindirdi. Çünki bu həm də şəhidlərimizin davasıdır. Bu bir dövlətin, hökumətin, partiyanın yox, bütün Azərbaycan xalqının savaşıdır.

O da qeyd olundu ki, Ermənistanın hərb maşınının mühüm bir hissəsi həm də informasiya məkanına köçmüşdü. Amma indi onların bu təxribat kanalları bağlanıb.

### Bəzi müdafiə tədbirlərimizi Ermənistan ərazisində də görə bilərik

"Tək Milli Məclisin deputatları deyil, 10 milyon vətəndaşın hər biri cənab Prezidentin hərbi vəziyyətin elan olunması ilə bağlı fərmanının altından imza atmağa hazırdır. Azərbaycan xalqı bu günü gözləyirdi". Bunu isə deputat Aydın Mirzəzadə bildirdi. Onun sözlərinə görə, torpaqlarımız tam azad edilənə qədər hər bir əsgər rəşadətini göstərəcək. Bu gün hər bir deputat cəbhədədir, hər birimiz əsgərlərimizin yanındayıq, hər birimiz Prezident İlham Əliyevin qətiyyətini müdafiə edirik və Azərbaycanın milli maraqları naminə üzərinə düşən tarixi missiyanı şərəflə yerinə yetirdiyinə görə ona təşəkkür edirik", - deyə Aydın Mirzəzadə diqqətə çatdırdı.

Deputat Erkin Qədirli bildirdi ki, cəmiyyətimizdə torpaqlarımızın azadlığı ilə bağlı böyük ruh yüksəkliyi var. İqtidar-müxalifət münasibətlərində də Qarabağ məsələsinə dair fikir ayrılığı olmayıb. Onun sözlərinə görə, beynəlxalq hüquqa əsasən Azərbaycanın mövqeyi tam haqlıdır: "BMT Nizamnaməsinin 51-ci maddəsində yazılır ki, bu nizamnamədə heç nə təcavüzə məruz qalmış dövlətin fərdi və ya kollektiv özünümüdafiə haqqını gerçəkləşdirməsini əngəlləmir. Burada göstərilən "Heç nə" ifadəsi çox önəmlidir və o deməkdir ki, təcavüzə məruz qalmış dövlət özünün müdafiəsini yalnız öz ərazisində qurmağa borclu deyil. Bu o deməkdir ki, biz bəzi müdafiə tədbirlərimizi Ermənistan ərazisində də görə bilərik".

### Milli məsələdə hamı həmrəydir

Siyasi partiyaların mütləq əksəriyyətinin bu vəziyyətdə ölkə rəhbərinin, Ali Baş Komandanın yeritdiyi siyasəti müdafiə etməsi Azərbaycanda milli məsələdə hamının bir yerdə olmasının bariz göstəricisidir. Bu barədə danışan deputat Fazil Mustafa onu da qeyd etdi ki, Azərbaycan son iki ayda diplomatik, hərbi və informasiya sahəsində o qədər çevik və sistemli siyasət yeritdi ki, bu gün biz əvvəlki dövrlərdən fərqli olaraq düşmənin qarşısında daha hazırlıqlı vəziyyətdəyik.

Deputat Səttar Möhbalıyev əmin olduğunu bildirdi ki, əvvəlki döyüşlərdən fərqli olaraq ordumuz lazımınca düşmənin dərsini verəcək. Azərbaycan Ordusunun ən müasir silahlarla təchiz olunması, güclənməsi dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır. Səttar Möhbalıyevin sözlərinə görə, Azərbaycan Ermənistandan fərqli olaraq mülki insanları atəşə tutmur. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası Ermənistanın mülki şəxsləri atəşə tutması barədə beynəlxalq təşkilatlara məlumat göndərmişdir. Əminik ki, ordumuz tez bir zamanda işğal olunmuş ərazilərimizi azad edəcək.

Məsələyə münasibət bildirən Nizami Cəfərov dedi ki, tarix erməni əsgəri və ya ordusu anlayışını tanımır. Ermənistan dövləti süni hadisə olduğu kimi, erməni ordusu da sünidir. Ona görə Ermənistan Azərbaycanın qarşısında duruş gətirə bilməyəcək.

Çıxışlardan sonra "Hərbi vəziyyət elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı səsə qoyularaq təsdiq edildi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

---

## Milli Məclisin Sədri ilə ATƏT Parlament Assambleyasının prezidenti arasında telefon danışığı olub

Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova ilə ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tsreteli arasında telefon danışığı olub.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon söhbətində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son vəziyyət, Ermənistanın Azərbaycana təcavüzü müzakirə edilib.

---

## Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları ilə bağlı müzakirələr aparılıb

Milli Məclisin Sədri Sahibə Qafarova ilə Türkiyənin Parlamentlərarası İttifaqda nümayəndə heyətinin rəhbəri Ravza Kavakçı arasında telefon danışığı olub.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, telefon söhbətində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son vəziyyət, sentyabrın 27-də Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən və davam edən hərbi təxribatlar müzakirə edilib.

---

## *Əli HÜSEYNLİ:* "Xalq-dövlət birliyi, xalqımızın ordumuza dəstəyi sarsılmazdır"

**"Bildiyimiz kimi, bu gün səhər saatlarından işğalçı Ermənistan ordusu cəbhə bölgəsində növbəti genişmiqyaslı təxribatlar törədib. Ermənistan tərəfi məhz mülki əhalini hədəf alan, onların həlak olması və yaralanması ilə nəticələnən hücumlara başladı. Silahlı Qüvvələrin komandanlığının göstərişi ilə Azərbaycan Ordusu bütün cəbhəboyu əks hücum əməliyyatlarına başlayıb və düşmənə sarsıdıcı zərbələr endirilir".**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli söyləyib.

Əli Hüseynli deyib ki, son dövrlər Ermənistan tərəfi sistemli şəkildə təxribatları davam etdirirdi. Bu təxribatları iki hissəyə bölmək olar: hərbi və siyasi təxribatlar: "Hərbi təxribatların son mərhələsi iyul ayında Tovuzda başlandı. Daha sonra avqustda erməni diversiya qrupunun hazırladığı təxribat planlarının qarşısı alındı. Son günlərdə isə könüllülərin hərbi təlimə cəlb olunması Ermənistanın növbəti təxribatı idi. Buna paralel olaraq Ermənistan tərəfindən siyasi təxribatlar da həyata keçirilirdi. Belə ki, qədim Azərbaycan şəhəri - Şuşada qondarma separatçı rejimin başçısının andiçmə mərasiminin keçirilməsi və qondarma rejimin "parlamentinin" Şuşaya köçürülməsi, bu dövrdə, həmçinin Livandan erməni əsilli ailələrin Azərbaycanın işğal altında olan ərazilərinə köçürülməsi kimi məsələlər Ermənistanın təxribatçı hərəkətlərinin və işğalçı siyasətinin növbəti təzahürü oldu. Təsadüfi deyil ki, cənab Prezident İlham Əliyev bir neçə gün əvvəl keçirilən BMT-nin sessiyasında Ermənistanın bu təxribatlarını bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Eyni zamanda cənab Prezident Ermənistanın məqsədinin yeni təxribatlar törətmək və işğal siyasətini genişləndirmək olması ilə bağlı beynəlxalq ictimaiyyəti xəbərdar etdi".

Əli Hüseynli bildirib ki, biz bütün bu analizlərin və proqnozların doğru olduğunun bir daha şahidi olduq. Belə şəraitdə cəmiyyətimizin və xalqımızın qarşısında duran əsas vəzifə cənab Prezidentin, Ali Baş Komandanın ətrafında sıx birləşməkdir: "Xalq-dövlət birliyi, xalqımızın ordumuza dəstəyi sarsılmazdır. İndiki yaranmış şəraitdə cəmiyyətdə tutduğu mövqeyindən asılı olmayaraq, hər kəs bu müharibəyə, bu mübarizəyə hazır olmalıdır. Hamı əmin olmalıdır ki, bu, Azərbaycanın haqq işidir, beynəlxalq hüquq bizim tərəfimizdədir və döyüşdə də zəfər bizimdir!".

---

## *Ziyafət ƏSGƏROV:* "Azərbaycan Ordusu düşməni yerində oturdur, ona həddini bildirir"

**"Azərbaycan tərəfindən Ermənistana dələlərlə xəbərdarlıq edilmişdi ki, öz işğalçılıq siyasətindən əl çəksin. Amma düşmən bu xəbərdarlıqları qulaqardına vururdu. Odur ki, indi də cavabını alır".**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov deyib.

Ziyafət Əsgərov bildirib ki, Azərbaycan Prezidenti BMT-nin bu günlərdə keçirilən sessiyasında çıxışı zamanı bütün dünyaya ölkəmizin haqq səsini bir daha çatdırdı və beynəlxalq təşkilatlardan Ermənistanın işğalçılıq siyasətinə son qoymalarını tələb etdi. Ermənilər ərazilərimizi işğal etməklə kifayətlənmir, dini və tarixi abidələrimizi məhv edir, məscidlərimizdə donuz saxlayırlar. Bunun bir sonu olmalıdır. Hazırda gedən döyüşlərdə Ermənistan silahlı qüvvələri mülki əhalini hədəfə alır, zərər verirlər. Lakin Azərbaycan Ordusu beynəlxalq humanizm prinsiplərinə sadiq qalaraq mülki əhaliyə silah açmır. Bizim müharibəmiz ancaq işğalçılarla, Ermənistan ordusu ilədir.

Komitə sədri diqqətə çatdırıb ki, 30 ildən artıqdır biz BMT başda olmaqla bütün beynəlxalq təşkilatlara erməni vəhşiliyi ilə bağlı müraciət etsək də, bir nəticəsi olmadı. BMT-nin 4 qətnaməsi hələ də kağız üzərindədir. ATƏT-in Minsk qrupu boş-boş bəyanatlar verməklə məşğuldur. Bəs onda Azərbaycan nə etməlidir? Əlbəttə, Azərbaycan Ordusu düşmənə layiqli cavab verməyə qadirdir və verir də. Düşmən yerində oturdulur, ona həddi bildirilir.

# *Hikmət HACIYEV:* “Ermənistanın yaşayış məntəqələrini, mülki əhalini qəsdən hədəfə alması beynəlxalq humanitar hüququn kobud surətdə pozulmasıdır”

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev sentyabrın 27-də saat 06:00 radələrində Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozması ilə bağlı bəyanat yayıb.

AZƏRTAC bəyanatı təqdim edir: “Müdafiə Nazirliyi tərəfindən məlumat verildiyi kimi, sentyabrın 27-də saat 06:00 radələrində Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycan Ordusunun cəbhə zonasında yerləşən mövqelərini, Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çiraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı, Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub.

Ermənistan silahlı qüvvələrinin cəbhəyanı ərazilərdə sıx şəkildə yaşayan mülki insanları və obyektləri atəşə tutması qəsdən və hədəflənmiş şəkildə həyata keçirilib. Mülki əhali və hərbi qulluqçular arasında həlak olan və yaralananlar barədə məlumatlar var. Çoxsaylı evlərə və mülki obyektlərə ciddi ziyan dəyib.

Ermənistan silahlı qüvvələri cəbhəboyu zonada yerləşən mövqelərimizi və yaşayış məntəqələrini intensiv surətdə atəşə tutmaqda davam edir.

Ermənistanın yaşayış məntəqələrini, mülki əhalini qəsdən hədəfə alması beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il Cenevrə konvensiyalarının kobud surətdə pozulmasıdır. Mülki insanların hədəfə alınması Ermənistan silahlı qüvvələrinin döyüş hazırlığına daxil edilmiş taktikadır və onun ən bariz nümunəsi 1992-ci ilin fevral ayında törədilmiş Xocalı soyqırımıdır.

Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Ordusunun mövqelərinə zərbələrin endirilməsi, mülki insanların və obyektlərin iriçaplı silahlardan atəşə tutulması beynəlxalq hüquqa əsasən Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təcavüzü və güc tətbiq etmək aktıdır.

Azərbaycan Respublikası silahlı qüvvələri Ermənistanın növbəti hərbi təcavüzünün qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə zəruri əks-həmlə tədbirlərini həyata keçirir.

Azərbaycan beynəlxalq ictimaiyyəti Ermənistanın yeni təcavüz aktı həyata keçirməyə və müharibəyə hazırlaşdığı barədə dəfələrlə xəbərdarlıq etmişdi.

Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzü, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu regional sülh və sabitlik üçün əsas təhlükədir.

BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarının keçirildiyi, dünyanın COVID-19 pandemiyasına qarşı mübarizə apardığı şəraitdə Ermənistanın siyasi-hərbi rəhbərliyi növbəti hərbi avantüra və təxribata əl atmışdır. Ermənistan rəhbərliyi bu əməlləri ilə beynəlxalq hüquqa, BMT Nizamnaməsinə və beynəlxalq ictimaiyyətə hörmətsizliyini bir daha nümayiş etdirir.

Yaranmış vəziyyətə və hadisələrin gələcək inkişafına görə bütün məsuliyyət tam şəkildə Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür”.

### “Bu hadisələr Ermənistan və onun hərbi-siyasi rəhbərliyi tərəfindən həyata keçirilən təxribatdır”

“Əməliyyatlar dünən səhər saat 6 radələrində qoşunların təmas xəttinin geniş bir coğrafiyasını əhatə edən ərazilər üzrə Azərbaycanın mülki kəndlərinə hücumlarla başlamışdır. Hadisələrin bu məcrada cərəyan etməsini müəyyən mənada gözləmək olardı”.

AZƏRTAC xəbər verir ki, bu sözləri sentyabrın 28-də keçirilən brifinqdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Hikmət Hacıyev qeyd edib ki, artıq bununla əlaqədar Azərbaycan öz narahatlığını və belə hücumların gözlənilməsi barədə fikirlərini beynəlxalq ictimaiyyətə çatdırmışdır. Dövlət başçısı İlham Əliyev tərəfindən BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışı zamanı Ermənistanın öz qoşunlarını təmas xətti boyunca konsentrasiya etməsi və əlavə hərbi tədbirlər görməsi barədə də məlumat verilmişdir. Bütün bunlar növbəti təxribatın hazırlanmasından xəbər verirdi. Bütün bunlar, eyni zamanda, Tovuz hadisələrindən başlayaraq artan dinamika ilə inkişaf edən regional gərginlik mənzərəsinin tərkib hissəsidir ki, bu da bilavasitə Ermənistan və onun hərbi-siyasi rəhbərliyi tərəfindən həyata keçirilən təxribatdır.

### “Beynəlxalq ictimaiyyət Ermənistanı işğala son qoymağa çağırmalıdır”

“Azərbaycan Respublikasına qarşı 30 ildir ki, müharibə aparılır. Beynəlxalq ictimaiyyət Ermənistanı işğala son qoymağa çağırmalıdır”.



AZƏRTAC xəbər verir ki, bu sözləri sentyabrın 28-də ölkəmizdəki diplomatik korpusun nümayəndələri üçün keçirilən brifinqdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev deyib: “Biz istəyirik ki, Ermənistan işğalçı mövqeyinə son qoysun. Bu, böyük Vətən müharibəsidir. Azərbaycan ərazisində hərbi vəziyyət elan olunub və bu gün də ölkədə qismən səfərbərlik elan edilib. Biz beynəlxalq hüquqdan istifadə edirik, amma Ermənistan silahlı qüvvələrində bunun əksini görürük. Biz belə məqamda dövlətlərin əsl mövqeyini görmək də istəyirik”.

Bəzi beynəlxalq təşkilatların rəhbərlərinin mövqelərinin qəbuledilməz olduğunu deyən Prezidentin köməkçisi qeyd edib ki, Amerika Dövlətləri Təşkilatının rəhbəri qurumdakı dövlətlərin mövqeyini nəzərə almadan qərəzli bəyanat verib. Frankofoniya Təşkilatının Baş katibinin mövqeyini də qəbul etmirik. Biz üzv dövlətlərə müraciət edirik ki, qurumların rəhbərləri üzv dövlətlərin mövqelərini nəzərə alsınlar”.

### “Ermənistan işğal olunmuş ərazilərdən çıxmamaq üçün təxribatlara əl atır”

“Azərbaycan Ordusu öz ərazimizdə müdafiə xarakterli əməliyyatlar keçirir. Məqsəd mülki əhalini qorumaq, işğalçını sülhə məcbur etməkdir”.

AZƏRTAC xəbər verir ki, bu sözləri sentyabrın 28-də keçirilən brifinqdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidenti köməkçisi bildirib ki, Ermənistanın indiyədək apardığı siyasətdə məqsəd danışıqlar prosesini məhv etmək idi və buna da nail oldu. Ermənistan işğal olunmuş ərazilərdən çıxmamaq üçün hərbi, siyasi təxribatlara əl atır. Bu, Azərbaycana qarşı növbəti təcavüz cəhdi, Azərbaycanı güc yolu ilə hədələməkdir.

### “Ermənistan çətin vəziyyətə düşdükdə mülki əhalini hədəfə alır”

“Dünən səhər saat 06:00 radələrində Ermənistan silahlı bölmələri kəndlərimizə hücum edib. Ermənistanın təxribatından sonra əks-hücum əməliyyatı həyata keçirilib. Hazırda qoşunların təmas xətti boyu əməliyyatlar davam edir”.

AZƏRTAC xəbər verir ki, bu sözləri sentyabrın 28-də ölkəmizdəki diplomatik korpusun nümayəndələri üçün keçirilən brifinqdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Ermənistan çətin vəziyyətə düşdükdə mülki əhalini hədəfə aldığını, Ermənistanın hərbi doktrinasında mülki əhalinin hədəf kimi göstərildiyini bildirən Prezidentin köməkçisi deyib: “Biz 1990-cı illərdə də, 2016-cı ilin Aprel döyüşlərində də bunu görmüşük. Dünən cəbhə xəttindən xeyli aralıda yerləşən Naftalan rayonunun bir kəndində bir ailə və onun azyaşlı üzvləri həlak olub. Bu gün səhər də Tərtər rayonu istiqamətində ağır artilleriya atəşi açılıb, Tərtərdə xalçaçılıq fabriki dağıdılıb. Tərtər rayonunda polis şöbəsinə zərbə endirilmək istənilib. On dörd mülki Azərbaycan vətəndaşı yaralanıb”.

### “Ermənistan sosial şəbəkələr üzərindən təxribatçı məlumatlar və dezinformasiya yayır”

“Ermənistan sosial şəbəkələr üzərindən təxribatçı məlumatlar və dezinformasiya yayır. Buna görə də ölkəmizdə internet şəbəkəsində müəyyən məhdudiyyətlər var”.

AZƏRTAC xəbər verir, bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi vurğulayıb ki, ermənilər hətta əvvəlki dövrə aid kadrları yayır ki, bu da heç bir həqiqəti əks etdirmir. O, əhaliyə diqqətli olmağı, bu cür dezinformasiyalara inanmamağı və rəsmi məlumatları izləməyi tövsiyə edib.

### “Azərbaycan Ordusu fəaliyyətini Cenevrə Konvensiyasına uyğun həyata keçirir”

“Azərbaycan Silahlı Qüvvələri fəaliyyətini Cenevrə Konvensiyasına uyğun qaydada həyata keçirir”.

AZƏRTAC xəbər verir ki, bunu sentyabrın 27-də keçirilən brifinqdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev deyib ki, Ermənistan mətbuatında Ermənistan-Azərbaycan sərhədində də toqquşmanın baş verdiyi barədə məlumatlar yayılıb. Bu, yalandır. Hərbi əməliyyatlar Azərbaycanın işğal olunmuş ərazilərində baş verir. Əsas məqsəd mülki şəxslərin təhlükəsizliyini təmin etmək və işğal olunmuş əraziləri azad etməkdir.

Azərbaycan Prezidentinin köməkçisi deyib ki, artıq bir sıra beynəlxalq təşkilatlar narahatlıqlarını ifadə edir. Vəziyyətin gərginləşməsinin məsuliyyəti Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Hikmət Hacıyev nəzərə çatdırıb ki, bu gün baş verənlər Tovuz hadisələrindən sonra Ermənistanın Azərbaycana qarşı yürütdüyü təxribatçı siyasətinin nəticəsidir. O vurğulayıb ki, eyni zamanda, düşmən tərəfindən kiberhücumlar da təşkil edilir.

Prezidentin köməkçisi qeyd edib ki, bu gün bizim güclü Azərbaycan dövlətimiz, ordumuz var və Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad edəcəyik.

### Azərbaycan və Türkiyə bütün məsələlərdə həmrəylik nümayiş etdirir və daim bir-birini tərəddüdsüz dəstəkləyir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti, əziz qardaşı cənab Rəcəb Tayyib Ərdoğana “Tarix, Siyasət və Ölkələrarası Münasibətlər baxımından Beynəlxalq Dəniz Hüququ və Şərqi Aralıq Dənizi Simpoziumu”nda Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı söylədiyi fikirlərə görə öz təşəkkürünü bildirir. Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi təxribatının ilk saatlarından etibarən hörmətli cənab Prezident başda olmaqla qardaş Türkiyə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü qətiyyətlə pisləmiş və özünün birmənalı dəstəyini göstərmişdir. Azərbaycan xalqı bu dəstəyi yüksək qiymətləndirir.

Bu fikirləri AZƏRTAC-a Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi qeyd edib ki, Tovuz hadisələri zamanı da Ermənistanın Azərbaycana qarşı hərbi təxribatını ilk dəqiqələrdən ən qəti şəkildə pisləyən ölkə Türkiyə Respublikası olmuşdur. Prezident İlham Əliyev Azərbaycanın da hər zaman Türkiyənin yanında olduğunu qeyd etmişdir. Azərbaycan və Türkiyə “bir millət, iki dövlət” prinsipinə uyğun olaraq bütün məsələlərdə həmrəylik nümayiş etdirir və daim bir-birini tərəddüdsüz dəstəkləyir.

### Prezidentin köməkçisi Hikmət Hacıyev Ermənistanın təxribatları ilə bağlı “Al Jazeera” telekanalına müsahibə verib

Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın son təxribatları ilə bağlı “Al Jazeera” telekanalına müsahibə verib.

Müsahibədə qeyd olunur ki, 30 ilə yaxındır Azərbaycan Ermənistanın hərbi təcavüzünə məruz qalıb. Azərbaycan torpaqlarının işğalı nəticəsində dinc sakinlərimiz Ermənistan silahlı qüvvələrinin hədəfinə çevrilib. İşğal olunmuş ərazilərdə bir milyon azərbaycanlı etnik təmizlənməyə məruz qalıb. Buna görə də Azərbaycan Silahlı Qüvvələri əks-hücum əməliyyatlarını həyata keçirməklə, ilk növbədə, Ermənistanın Azərbaycana qarşı təxribatlarını dəf etmək, gözlənilən təcavüzkarlıq hərəkətlərinin qarşısını almaq, eləcə də Ermənistanı sülh danışıqlarına məcbur etmək məqsədini güdür.

“Çünki sülh danışıqları da Ermənistanın məqsədyönlü və destruktiv mövqeyi ucbatından iflasa uğrayır. Hazırda ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə həyata keçirilən hər hansı real danışıqlar mövcud deyil. Buna görə də məqsədimiz, ilk növbədə, təmas xəttinə yaxın ərazilərdə yaşayan mülki vətəndaşlarımızın təhlükəsizliyini təmin etmək və Azərbaycanın 30 ilə yaxındır ki, işğal altında olan torpaqlarını erməni işğalından azad etməkdir”, - deyə Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi vurğulayıb ki, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Ermənistan tərəfi mülki vətəndaşlarımıza qarşı hücumları davam etdirir. Öz suveren torpaqlarına qayıtmaq hüququna malik olan azərbaycanlı qaçqın və məcburi köçkünlər Ermənistanın həmin əraziləri işğal altında saxlaması səbəbindən öz torpaqlarına geri qayıda bilmirlər.

# Azərbaycanın diplomatik nümayəndəlik və konsulluqlarının rəhbərləri ilə videokonfrans formatında görüş keçirilib

Sentyabrın 27-də Xarici İşlər naziri Ceyhun Bayramovun və Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin iştirakı ilə Azərbaycanın diplomatik nümayəndəlik və konsulluqlarının rəhbərləri ilə videokonfrans formatında görüş keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Ermənistan silahlı qüvvələrinin bu ilin 27 sentyabr tarixində iriçaplı silahlardan və artilleriya qurğularından istifadə edərək cəbhə xətti boyu Azərbaycan mövqelərinə qarşı növbəti təcavüz aktı nəticəsində bölgədə yaranan son dərəcə gərgin vəziyyətlə bağlı Azərbaycanın diplomatik nümayəndəlik və konsulluqlarının rəhbərlərinə müvafiq təlimatlar verilib.

Azərbaycan Prezidentinin mövcud vəziyyətlə bağlı Azərbaycan xalqına etdiyi müraciətə, eləcə də dövlət rəhbəri tərəfindən Təhlükəsizlik Şurasının iclasında verilmiş təlimatlara istinadən diplomatik nümayəndəliklərimiz üzərlərinə düşən vəzifələrlə bağlı məlumatlandırılıb. Mövcud vəziyyətdə diplomatik nümayəndəliklərimizin xüsusi şəkildə fəaliyyətə keçdiyi vurğulanıb, eləcə də xarici ölkələrdə ermənilər tərəfindən təxribatların törədilməsi ehtimalının yüksək olması səbəbindən



diplomatlarımızın, həmçinin bu ölkələrdəki həmyerlilərimizin son dərəcə ehtiyatlı davranması məsləhət görülüb.

Görüşdə, həmçinin diplomatik nümayəndəlik və konsulluqlarımıza yaranmış bu vəziyyətdə Azərbaycanla bağlı və bölgədəki vəziyyətə dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün lazımi tədbirlərin görülməsi tapşırılıb.

* * *

Sentyabrın 28-i səhər saatlarından etibarən Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Tərtər şəhəri intensiv atəşə tutulur. Düşmən qüvvələri şəhərin mülki şəxslərini və obyektlərini məqsədyönlü şəkildə hədəfə alır.

AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin bununla bağlı açıqlamasında deyilir ki, Ermənistan Tərtər şəhərinin dinc sakinlərini atəşə tutmaqla, mülki insanlara qarşı terror vasitələrindən istifadə etdiyini və növbəti dəfə beynəlxalq humanitar hüququ kobudcasına pozduğunu nümayiş etdirir.

Ermənistanın yeni təcavüz aktına cavab olaraq əks-hücum tədbirlərini həyata keçirən Azərbaycan Silahlı Qüvvələri mülki əhaliyə, qadınlara və uşaqlara qarşı müharibə aparmadığını bəyan edərək, əks həmlələrini məhz beynəlxalq humanitar hüquq çərçivəsində həyata keçirir. Ermənistan tərəfinin beynəlxalq hüquqa zidd addımları isə bu ölkənin yeni təcavüz planlarına nail olmaq üçün bütün vasitələrdən, o cümlədən müharibə cinayətlərindən istifadə etdiyini nümayiş etdirir.

Beynəlxalq ictimaiyyəti Ermənistanın mülki şəxsləri məqsədyönlü şəkildə hədəfə alan müharibə cinayətlərini qətiyyətlə pisləməyə çağırırıq.

* * *

Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin artilleriya atəşi nəticəsində Azərbaycanın Naftalan rayonunun Qaşaltı kəndinin sakini 1951-ci il təvəllüdlü Qurbanov Elbrus və onun dörd ailə üzvü, 1956-cı il təvəllüdlü Qurbanova Şəfayət, 2006-cı il təvəllüdlü Qurbanova Fidan, 2007-ci il təvəllüdlü Qurbanov Şəhriyar və 1981-ci il təvəllüdlü Əmirova Afaq həlak olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Ermənistan tərəfi Azərbaycanın mülki əhalisini və infrastrukturunu məqsədyönlü şəkildə hədəfə almaqla beynəlxalq hüququn norma və prinsiplərini, xüsusilə də beynəlxalq humanitar hüquq və 1949-cu il Cenevrə Konvensiyalarını kobudcasına pozur.

Ermənistan tərəfinin bu vəhşilik aktını qətiyyətlə qınayır, mülki şəxslərin atəşə tutulması və bu yolla dinc əhalinin qorxu içində saxlanılması cəhdinə son verməyi tələb edirik.

Beynəlxalq ictimaiyyət tərəfindən işğalçı ölkənin Azərbaycanın mülki əhalisini hədəfə alan müharibə cinayətləri əməllərinə son verməsini Ermənistandan tələb edilməsi zəruridir.

Ermənistan silahlı qüvvələrinin təcavüz aktı nəticəsində həyatını itirmiş mülki şəxslərimizin yaxınlarına dərin hüznlə başsağlığı bildiririk.

# Baş Prokurorluq xəbər verir

Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi Cenevrə Konvensiyası ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq dinc əhalini, çoxsaylı ev və mülki obyektləri, təsərrüfat təyinatlı məntəqələri hədəfə almaqda davam edir. Hədəf kimi seçilən ərazilər əhalinin kompakt olduğu məntəqələr - rayon və kənd mərkəzləri, mülki infrastruktur obyektləri - xəstəxanalar, tibb məntəqələri, məktəb binaları, uşaq bağçaları seçilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hazırkı vaxtadək ümumilikdə mülki əhalidən 26 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib.

Xüsusilə qeyd edilməlidir ki, səhər saat 07 radələrindən başlayaraq düşmən qüvvələri tərəfindən Tərtər rayonunun mərkəzinin, o cümlədən əhalinin sıx yaşadığı kəndlərin ağır artilleriyadan intensiv atəşə tutulması nəticəsində, Azad Qaraqoyunlu kənd sakinləri Əhmədov Mayıl Ələsgər oğlu, Salahov Nizami Məcid oğlu, Kərimov Elşən Şahmat oğluna məxsus evlərə külli miqdarda ziyan dəyib, rayonun əsas strateji körpüsü və polis şöbəsinə zərbələr endirilib.

Bundan başqa, düşmənin mülki obyektləri atəşə tutması nəticəsində Tərtər şəhəri E.Səfərov küçəsi, 54 mənzildən ibarət 10 saylı binası, rayonun Şıxarx qəsəbəsində 16 saylı çoxmənzilli yaşayış binası yararsız vəziyyətə düşüb, bina sakinləri təxliyə olunub.

Həmçinin işğalçı ölkənin qüvvələrinin intensiv atəşi nəticəsində Tərtər rayonunun Səhləbad kəndində Ağayev Bəxtiyar Rəhim oğluna, Yuxarı Qapanlı kənd sakini Rəsmiyyə Həsənovaya məxsus yardımçı tikililərə top mərmilərinin düşməsi nəticəsində çoxsaylı xırda və iribuynuzlu heyvan tələf olub.

Hazırda Prokurorluğun əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq əməliyyat tədbirləri həyata keçirilir, o cümlədən yaralananların aldıqları xəsarətlərin ağırlıq dərəcəsini, eləcə də mülki infrastruktur obyektlərinə dəymiş ziyanın məbləğini müəyyən etmək məqsədilə müvafiq ekspertizalar təyin edilib.

Azərbaycan Respublikasının Baş Prokurorluğu müxtəlif cinayətlər törətmiş Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb olunaraq cəzalandırılmalarını təmin etmək məqsədilə zəruri tədbirlər həyata keçirir.

* * *

Məlum olduğu kimi, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi Cenevrə Konvensiyası ilə üzərinə düşən öhdəliklərini yerinə yetirməyərək beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhalini, çoxsaylı ev və mülki obyektləri, təsərrüfat təyinatlı məntəqələri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hədəf kimi əhalinin kompakt olduğu məntəqələr - rayon və kənd mərkəzləri, mülki infrastruktur obyektlər - xəstəxanalar, tibb məntəqələri, məktəb binaları, uşaq bağçaları seçilir.

Hazırkı vaxtadək ümumilikdə mülki əhalidən 27 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdiriliblər.

Dərin kədər hissi ilə qeyd edirik ki, bu gün düşmənin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə qrad qurğularından atəşə tutması nəticəsində Ağdam rayonunun Evoğlu kənd sakini 1979-cu il təvəllüdlü Paşayev Coşqun Ənvər oğlu həlak olub.

Faktla bağlı Ağdam Rayon Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 120.2.1-ci (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürmə), 100.2-ci (təcavüzkar müharibəni aparma) və digər maddələri ilə cinayət işi başlanıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən hadisə yerində döyüş şəraiti nəzərə alınmaqla mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən müxtəlif cinayətlər törətmiş Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilərək cəzalandırılmalarını təmin etmək məqsədi ilə zəruri sənədləşdirilmə aparılır və müvafiq qaydada sübutlar toplanılır.

İctimaiyyətə mütəmadi qaydada məlumatlar veriləcək.

* * *

Məlum olduğu kimi, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn əsas norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhalini, çoxsaylı ev və mülki obyektləri, təsərrüfat təyinatlı məntəqələri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir. Dərin kədər hissi ilə qeyd edirik ki, düşmənin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində sentyabrın 28-də saat 11 radələrində Tərtər şəhəri Heydər Əliyev prospektində yerləşən rayon məhkəməsinin inzibati binasının yanına düşmüş mərmi qəlpələrindən 1975-ci il təvəllüdlü Əliyev Mehman Sovet oğlu həlak olub.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həmin vaxt ərazidən keçən təcili tibbi yardım maşınının sürücüsü 1968-ci il təvəllüdlü Əsədov Qənbər Əsgər oğlu və maşında olan hərbi polisin əməkdaşı 1994-cü il təvəllüdlü Hüseynov Fəxrəddin Fərman oğlu, həmçinin ərazidə olan digər Tərtər şəhər sakini 1991-ci il təvəllüdlü İbrahimov Tural Firdovsi oğlu yaralanıblar.

Faktla bağlı Tərtər Rayon Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni aparma), 120.2.1-ci (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürmə), 29, 120.2.7-ci (qəsdən iki və ya daha çox şəxsi öldürməyə cəhd) və digər maddələri ilə cinayət işi başlanıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən hadisə yerində döyüş şəraiti nəzərə alınmaqla mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən müxtəlif cinayətlər törətmiş Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilərək cəzalandırılmalarını təmin etmək məqsədilə zəruri sənədləşdirilmə aparılır və müvafiq qaydada sübutlar toplanılır.

İctimaiyyətə mütəmadi qaydada məlumatlar veriləcək.

# Hərbi vəzifəlilər zənglər və SMS-lər aldıqda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə və şöbələrinə gəlməlidirlər

Məlum olduğu kimi, sentyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının müvafiq sərəncamı ilə ölkədə qismən səfərbərlik elan edilib. Sərəncama əsasən, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə təsdiq edilmiş planlara uyğun olaraq, hərbi vəzifəlilərin səfərbərlik üzrə hərbi xidmətə çağırılmasını və hərbi-nəqliyyat vəzifəsindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etmək tapşırılıb.

AZƏRTAC xəbər verir ki, bunu sentyabrın 28-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin birinci müavini general-mayor Zaur Abdullayev deyib.

Z.Abdullayev bildirib ki, səfərbərlik Azərbaycan Respublikası iqtisadiyyatının, icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının və təşkilatların müharibə dövrünün iş rejiminə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və xüsusi birləşmələrin müharibə dövrü üçün müəyyən edilmiş təşkilati-ştat strukturuna keçirilməsinə dair tədbirlər kompleksidir.

Qismən səfərbərlik zamanı təsdiq edilmiş planlara uyğun olaraq, Xidmət tərəfindən ehtiyatda olan birinci dərəcəli hərbi vəzifəlilər əsgərlər, matroslar, çavuşlar, gizirlər və miçmanlar 35 yaş, zabitlər isə hərbi rütbəsindən asılı olaraq 50 və daha yuxarı yaş həddində Azərbaycan Ordusunun komplektləşdirilməsinə cəlb olunacaqlar.

“Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Silahlı Qüvvələrin sifarişləri əsasında tələb olunan sayda hərbi vəzifəlilərin və hərbi-nəqliyyat vasitələrinin hərbi hissələrə təhvil verilməsini təmin etmək üçün bütün imkanlara malikdir. Xidmət adından hərbi vəzifəlilərin diqqətinə çatdırırıq ki, tərəfimizdən onlara zənglər və SMS-lər daxil olduqda dərhal hərbi qeydiyyatda olduqları Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinə gəlsinlər. Məlumat üçün bildirirəm ki, son günlər xeyli sayda Azərbaycan vətəndaşı ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmək üçün Xidmətə könüllü müraciət edirlər. Bu hal onu göstərir ki, vətəndaşlarımız elan olunmuş qismən səfərbərlik tədbirində böyük ruh yüksəkliyi ilə iştirak edəcəklər”, - deyə Dövlət Xidməti rəisinin birinci müavini bildirib.

# Müdafiə Nazirliyi xəbər verir




## *General-mayor Mais BƏRXUDAROV:*
## "Düşməni sona qədər məhv etmək uğrunda vuruşacağıq"



Düşmən hücumunun qarşısının alınması məqsədilə həyata keçirdiyimiz əks-hücum əməliyyatı uğurla davam edir. Gərgin döyüşlər gedir. Ordumuz torpaqlarımızın işğaldan azad olunması üzrə tapşırıqları yüksək döyüş əzmi və igidliklə icra edir.

AZƏRTAC Müdafiə Nazirliyinin saytına istinadla xəbər verir ki, bunu hərbi birliyin komandiri general-mayor Mais Bərxudarov deyib.

"Komandirlik etdiyim birliyin şəxsi heyəti düşməni tam məhv etmək üçün son damla qanınadək vuruşacaq və qələbə qazanacaq", - deyə general bildirib.

* * *

Ermənistan Müdafiə Nazirliyinin rəsmilərinin Azərbaycan Ordusundakı itkilərin sayı ilə bağlı yaydığı məlumatların heç bir əsası yoxdur və reallığı əks etdirmir. Bu, Azərbaycan Ordusunun uğurları qarşısında erməni əhalisi arasında hökm sürən təşviş və ordularındakı yaranmış xaosu bir qədər azaltmaq məqsədi güdür.

Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumata görə, əməliyyat gününün sonuna əldə edilən kəşfiyyat məlumatlarına əsasən, Ermənistan ordusu döyüşlər nəticəsində ciddi itkilərə məruz qalıb. Belə ki, düşmənin 22 tankı və digər zirehli texnikası, 15 "OSA" zenit-raket kompleksi, 18 pilotsuz uçuş aparatı (PUA), 8 artilleriya qurğusu məhv edilib, ölən və yaralı olmaqla canlı qüvvə baxımından 550 nəfərdən artıq itkisi var. Müxtəlif istiqamətlərdə düşmənin 3 silah-sursat anbarı məhv edilib.

Məlumata görə, Talış kəndi istiqamətində gedən döyüşlərdə Ermənistan ordusunun desant həmlə taborunun komandiri polkovnik-leytenant Lernik Babayan məhv edilib. Onun komandiri olduğu hərbi hissənin şəxsi heyəti isə ağır itkilərə məruz qalıb. Düşmən ordusundakı yaralıların say çoxluğu səbəbindən hərbi hospital və mülki xəstəxanalarda yer qıtlığı yaranıb, qan bankında isə ehtiyat qan çatışmazlığı mövcuddur. Ermənistan tərəfi ordusundakı döyüş itkilərinin real sayını hər zaman olduğu kimi yenə də ictimaiyyətdən gizlədir.

* * *

Sentyabrın 28-də Müdafiə Nazirliyi tərəfindən Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelərə və beynəlxalq təşkilatların (BMT, Avropa İttifaqı, Beynəlxalq Qızıl Xaç Komitəsi) ölkəmizdəki nümayəndələrinə Ermənistanın Azərbaycana qarşı təcavüzü, cəbhə xəttində yaranmış vəziyyət, qoşunlarımızın əks-tədbirləri və yaranmış əməliyyat şəraiti haqqında məlumat verilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumata görə, nümayəndələr düşmənin itkiləri, azad edilmiş ərazilər və yüksəkliklər, o cümlədən düşmənin təxribatları və dezinformasiya fəaliyyətləri haqqında ətraflı məlumatlandırılıb.

* * *

Azərbaycan Ordusunun torpaqlarımızın işğaldan azad edilməsi uğrunda apardığı əks-hücum əməliyyatları davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ordumuzun şəxsi heyətinin döyüş əzmi və mənəvi-psixoloji durumu yüksəkdir, gərgin döyüşlərdə iştirak edən hərbi qulluqçularımız şücaətlə döyüşür.

Sentyabrın 27-də və bu gün Azərbaycan Ordusunun apardığı döyüşlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində Ermənistan qoşunlarının çoxlu sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikaları məhv edilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin təqdim etdiyi növbəti videoda düşmənin bir az əvvəl iki tankının məhv edilməsi görüntüləri əks olunub.

* * *

Sentyabrın 28-də səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Tərtər şəhəri atəşə tutulur.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumata görə, nazirliyin rəhbərliyi qarşı tərəfi sonuncu dəfə xəbərdar edir ki, tərəfimizdən onlara qarşı adekvat cavab tədbirləri görüləcək.

* * *

Ermənistan silahlı qüvvələrindən azad edilən yüksəkliklərdən və əlverişli mövqelərdən hərəkətə keçən Azərbaycan Ordusunun bölmələri əldə olunmuş müvəffəqiyyəti artırmaq məqsədilə əks-hücum əməliyyatını davam etdirir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmənin müqavimət göstərdiyi mövqelərə raket-artilleriya və aviasiya zərbələri endirilib. Düşmən sıxışdırılaraq əldə saxlamaq istədiyi hədlərdən geri çəkilməyə məcbur edilir.

Talış kəndi ətrafındakı bir neçə əlverişli yüksəklik işğalçı qüvvələrdən təmizlənib, düşmən xeyli itki verib.

* * *

Düşmənin aktiv döyüş fəaliyyətinin qarşısının alınması məqsədilə atılan addımlar nəticəsində Ermənistan silahlı qüvvələrinə məxsus daha 2 tank bölmələrimizin dəqiq atəşi ilə məhv edilib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin yaydığı daha bir videoda isə düşmən tanklarının məhv edilməsinə dair görüntülər nümayiş olunub.

* * *

Azərbaycan Ordusunun bölmələri düşmənin döyüş texnikasını sərrast atəşlə məhv etməyə davam edir.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin təqdim etdiyi növbəti videoda düşmənin döyüş texnikasının məhv edilməsinə dair görüntülər nümayiş olunub.

* * *

Əldə olunan kəşfiyyat məlumatına əsasən, düşmənin itkiləri arasında Suriya və Yaxın Şərqin müxtəlif ölkələrindən olan çoxlu sayda erməni əsilli muzdlu döyüşçülər də var. Lakin onlar Ermənistanda rəsmi qeydiyyata alınmadığı üçün düşmən bu itkiləri asanlıqla gizlədir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı AZƏRTAC-a açıqlamasında deyib.

Vaqif Dərgahlı bildirib ki, əvvəlki döyüşlərdə olduğu kimi, bu dəfə də Ermənistanın hərbi-siyasi rəhbərliyi hərbi məlumatların yayılmasına tətbiq edilən qadağanı əsas gətirərək döyüş itkilərini ictimaiyyətindən gizlədir. İtkilərin sayının çox olması səbəbindən düşmən bir müddət sonra bu itkiləri müxtəlif şəraitdə baş vermiş hadisə kimi göstərərək etiraf etmək məcburiyyətində qalacaq.

* * *

Əldə etdiyimiz kəşfiyyat məlumatına əsasən, Ermənistanın hərbi komandanlığı işğal olunmuş ərazilərlə Ermənistan arasındakı yollarda komendant postları qurub.

Bunu AZƏRTAC-a açıqlamasında Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı bildirib.

V.Dərgahlı qeyd edib ki, məqsəd təşviş içində Ermənistana axın edən əhalinin ərazini tərk etməməsi və silahlarını ataraq ordudan fərarilik edən erməni hərbi qulluqçularının tutulub saxlanılmasıdır.

Bəzi xəbərlərə görə artıq həmin postlarda silah tətbiqi ilə ciddi insidentlər qeydə alınıb, ölən və yaralananlar var.

* * *

Aparılan ikigünlük döyüşə tab gətirməyən Ermənistan ordusunda dərman və tibbi ləvazimatlar, eləcə də ərzaq qıtlığının olması barədə məlumatlar əldə etmişik.

Bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı AZƏRTAC-a açıqlamasında deyib.

V.Dərgahlı qeyd edib ki, dərman və tibbi ləvazimat çatışmazlığı düşmənin döyüşlərdə verdiyi çoxsaylı itkilərlə əlaqədardır. Yaralılar və meyitlərin təxliyəsi üçün nəzərdə tutulmuş hərbi sanitar nəqliyyat vasitələrinin sayının kifayət etməməsi səbəbindən onların daşınması fərdi avtomobillər və yük maşınları vasitəsilə həyata keçirilir.

* * *

Yaşayış məntəqələrimizi atəşə tutan Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən artilleriya bölmələrinə zərbələr endirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, artilleriyaçılarımızın sərrast atəşi nəticəsində ağır itkilərə məruz qalan düşmən bölmələri yerləşdiyi atəş mövqelərindən geri çəkilməyə məcbur edilib.

Həmin artilleriya bölmələri Ermənistan ordusunun 5-ci dağ atıcı alayının tərkibindədir.

* * *

Ermənistan silahlı qüvvələrindən azad edilən yüksəkliklərdən və əlverişli mövqelərdən hərəkətə keçən Azərbaycan Ordusunun bölmələri əldə olunmuş müvəffəqiyyəti artırmaq məqsədilə əks-hücum əməliyyatını davam etdirir. Düşmənin müqavimət göstərdiyi mövqelərə raket-artilleriya və aviasiya zərbələri endirilib. Düşmən sıxışdırılaraq əldə saxlamaq istədiyi hədlərdən geri çəkilməyə məcbur edilir. Artıq Talış kəndi ətrafındakı bir neçə əlverişli yüksəklik işğalçı qüvvələrdən təmizlənib.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov sentyabrın 28-də keçirilən brifinqdə deyib.

Polkovnik-leytenant vurğulayıb ki, Ermənistan Müdafiə Nazirliyinin rəsmilərinin Azərbaycan Ordusundakı itkilərin sayı ilə bağlı yaydığı məlumatların heç bir əsası yoxdur və reallığı əks etdirmir. Bu, Azərbaycan Ordusunun uğurları qarşısında erməni əhalisi arasında hökm sürən təşviş və ordularındakı yaranmış xaosu bir qədər azaltmaq məqsədi güdür. Ermənistan tərəfi döyüş itkiləri barədə məlumatları həmişə olduğu kimi, yenə də ölkə ictimaiyyətindən gizlədir. Əməliyyat gününün sonuna əldə edilən kəşfiyyat məlumatlarına əsasən, Ermənistan ordusu döyüşlər nəticəsində ciddi itkilərə məruz qalıb.

Xüsusi vurğulanıb ki, düşmənin itkiləri arasında Suriya və Yaxın Şərqin müxtəlif ölkələrindən olan çoxlu sayda erməni əsilli muzdlu döyüşçülərin olduğu aşkarlanıb. Ermənistan rəhbərliyi informasiya qadağasından istifadə edərək bu məlumatı həm öz cəmiyyətindən, həm də beynəlxalq ictimaiyyətdən gizlədir.

Anar Eyvazov bildirib ki, Talış kəndi istiqamətində gedən döyüşlərdə Ermənistan ordusunun desant həmlə taborunun komandiri polkovnik-leytenant Lernik Babayan məhv edilib. Onun komandiri olduğu hərbi hissənin şəxsi heyəti isə ağır itkilərə məruz qalıb. Düşmən ordusundakı yaralıların say çoxluğu səbəbindən hərbi hospital və mülki xəstəxanalarda yer qıtlığı yaranıb, qan bankında isə ehtiyat qan çatışmazlığı mövcuddur.

"Sentyabrın 28-də səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini atəşə tutub. Müdafiə Nazirliyinin rəhbərliyi qarşı tərəfi sonuncu dəfə xəbərdar edib ki, tərəfimizdən onlara qarşı adekvat cavab tədbirləri görüləcək.

Bu gün Müdafiə Nazirliyi tərəfindən Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelərə və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələrinə Ermənistanın Azərbaycana qarşı təcavüzü, cəbhə xəttində yaranmış vəziyyət, qoşunlarımızın əks-tədbirləri və yaranmış əməliyyat şəraiti haqqında məlumat verilib. Nümayəndələr düşmənin itkiləri, azad edilmiş ərazilər və yüksəkliklər, o cümlədən düşmənin təxribatları və dezinformasiya fəaliyyətləri haqqında ətraflı məlumatlandırılıb",- deyə Müdafiə Nazirliyinin mətbuat katibi diqqətə çatdırıb.

Brifinqdə Anar Eyvazov hərbi birliyin komandiri general-mayor Mais Bərxudarovun əməliyyat bölgəsindən müraciətini diqqətə çatdırıb. Müraciətdə bildirilib: "Düşmən hücumunun qarşısının alınması məqsədilə həyata keçirdiyimiz əks-hücum əməliyyatı uğurla davam edir. Gərgin döyüşlər gedir. Ordumuz torpaqlarımızın işğaldan azad olunması üzrə tapşırıqları yüksək döyüş əzmi və igidliklə icra edir. Komandirlik etdiyim birliyin şəxsi heyəti düşməni tam məhv etmək üçün son damla qanınadək vuruşacaq və qələbə qazanacaq".

* * *

Düşmən Goranboy rayonunun Yuxarı Ağcakənd və Qaramusalı kəndlərini artilleriya atəşinə məruz qoyub. Mülki infrastruktur obyektlərinə ciddi ziyan dəyməyib. Kənd sakinləri arasında itki yoxdur.

Bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı AZƏRTAC-a açıqlamasında deyib.

V.Dərgahlı qeyd edib ki, düşmənə qarşı bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.










## Azərbaycan Ordusu ilə bacara bilməyən düşmən yaşayış məntəqələrimizi və mülki obyektləri hədəf seçir

Cəbhə bölgəsindən gələn məlumatlara görə, düşmən tərəfindən atılan mərmilərdən biri Tərtər şəhərinin mərkəzində yerləşən rayon polis şöbəsinin inzibati binasının həyətinə düşüb. Bu zaman dağıntı və insan tələfatı olubmu?

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hərbi qüvvələrimizlə bacara bilməyən düşmən yaşayış məntəqələrimizi və mülki obyektləri hədəf seçir. Bu gün saat 12 radələrində düşmən tərəfindən atılan mərmilərdən biri Tərtər Rayon Polis Şöbəsinin inzibati binasının həyətinə düşüb. Zərbə o qədər güclü olub ki, mərminin qəlpələri inzibati binanın dəhlizlərinə qədər daxil olub. Xoşbəxtlikdən insan tələfatı, xəsarət alan olmasa da, binaya ciddi maddi ziyan dəyib.

Bu bir daha onu göstərir ki, döyüş meydanında ağır zərbələr alan düşmən cəbhədən xeyli aralıda olan yaşayış məntəqələrimizi, orada yaşayan mülki əhalini hədəf seçməkdə davam edir.

## Düşmən bölmələrinin artilleriya atəşi nəticəsində Ağdam və Tərtər rayonlarının bir sıra kəndlərində mülki obyektlər yanıb

Ermənistanın hərbi-siyasi rəhbərliyinin təxribatçı xislətindən irəli gələrək düşmənin silahlı qüvvələri beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobudcasına pozaraq əhalinin sıx yaşadığı yaşayış məntəqələrini, fərdi və çoxmənzilli binaları, o cümlədən mülki obyektləri ağır artilleriya qurğularından atəşə tutmaqda davam edir.

Fövqəladə Hallar Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nəticədə yanğınlar baş verir, dinc əhalinin əmlakına ciddi ziyan vurulur. Sentyabrın 28-də də Ermənistan qoşunlarının atdığı mərmilər nəticəsində Ağdam və Tərtər rayonlarının bir sıra kəndlərində mülki obyektlərdə yanğınlar baş verib. Fövqəladə Hallar Nazirliyinin dərhal hadisə yerlərinə cəlb olunan Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələri yanğınları qısa müddətdə söndürüblər.

# Qafqaz Müsəlmanları İdarəsinin sədri Azərbaycan xalqına müraciət edib



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan xalqına müraciət edib. QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan müraciətdə deyilir:

"Azərbaycan xalqına müraciət edərək son günlər doğma torpaqlarımızın erməni işğalından azad olunması uğrunda haqq mücadiləmizdə qazandığımız zəfərlərə Uca Allahdan rəvac diləyir, Vətən uğrunda Uca Yaradanın nəzərində ən ali mərtəbə olan şəhidlik zirvəsinə yüksələn qəhrəman övladlarımıza Allah-Təaladan rəhmət diləyirəm.

Xalqımız öz ərazi bütövlüyü uğrunda Vətən müharibəsinə qalxıb. Vətən müharibəsi hər zaman ədalətli savaşdır. Biz hər zaman sülhsevər və sülhpərvər xalq olmuşuq, heç vaxt özgə torpağına göz dikməmişik. Öz milli-mənəvi dəyərlərimiz qədər ümumbəşəri irsə diqqət, qayğı və ehtiramla yanaşmışıq. Lakin bu danılmaz gerçəklikdir ki, erməni təcavüzkarların əzəli torpaqlarımıza iddiaları, işğalçılıq, xalqımıza qarşı soyqırımı, terror, etnik təmizləmə, dini-mədəni abidələrimizə qarşı məqsədyönlü məhvetmə siyasəti ilə üz-üzəyik. Bu davamlı təcavüz Azərbaycan xalqının səbrini tükəndirib. Otuz ildən artıq müddətdir davam edən işğal və mənəvi təcavüz sona yetməlidir. Ədalət zəfər çalmalı, haqq öz yerini tutmalıdır.

Bu gün işğalçı Ermənistanın davamlı təxribatına cavab olaraq Azərbaycan hərb meydanındadır. Bu meydan ədalətin yerini almasına xidmət edir. İllərlə Azərbaycanın haqq səsini, bəşərin sülh çağırışlarını qulaqardına vuran, beynəlxalq aləmin səylərini heçə endirən, mənəvi məkanlarımıza həqarət edən, dini ibadətgahlarımızı yerləyeksan edən, ata-babalarımızın yurdunu viran qoyan, qəbiristanlıqlarımızı dağıdan, izimizi itirməyə, tariximizi saxtalaşdırmağa cəhd göstərən, ümumbəşər əhəmiyyətli abidələrə qarşı vandallıq aktları həyata keçirən mənfur işğalçı, nəhayət hərb meydanında cavab verməlidir. Ermənilərin İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət etmələri riyakarlıqdır və heç bir çərçivəyə sığmır. Dövlətimizin başçısının söylədiyi kimi, erməni əsgərinin bizim torpağımızda nə işi var?!

Azərbaycan beynəlxalq birlik, BMT tərəfindən tanınan ərazi bütövlüyünü bərpa edir, öz torpaqları uğrunda vuruşur. Biz beynəlxalq hüquqa əsaslanan sivil cəmiyyət olaraq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli sülh yolu ilə həllinə ümidvar olmuşuq. Bu münaqişənin dinc yolla nizamlanması məramı ilə fəaliyyət göstərən beynəlxalq təşkilatların çoxsaylı səfərlərinə, görüş və danışıqlarına ümidlə baxmışıq və bu səyləri dəyərləndiririk. Lakin Ermənistan tərəfi bu səylərin nəticəsiz qalması üçün əlindən gələni əsirgəmir. Dünya birliyi isə beynəlxalq hüququ heçə sayan, BMT qətnamələrini nümayişkaranə şəkildə yerinə yetirməyən, Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədən, məscidlərimizi, qəbiristanlıqlarımızı məhv edən, mənəvi dəyərlərimizi təhqir edən, beynəlxalq konvensiyalara məhəl qoymadan mülki əhalini, dinc insanları, yaşayış evlərini, qadın, uşaq və qocaları güllələbaran edən erməni ekstremizminə və terroruna qarşı heç bir cəzalandırma həyata keçirmir, sanksiyalar tətbiq etmir.

Qafqazın dini lideri, Şeyxülislam olaraq həmçinin Azərbaycandakı dini konfessiyaların rəhbərləri ilə birgə bu illər ərzində erməni tərəfinin cinayətləri barədə beynəlxalq təşkilatlara, dünya parlamentlərinə, siyasi və dini liderlərə davamlı, müfəssəl müraciətlər etmişik. Qarşıdurma başlayan dövrdən etibarən Rus Pravoslav Kilsəsinin, Gürcü Pravoslav Kilsəsinin, Ümumdünya Kilsələr Şurasının, Vatikanın və müsəlman dini mərkəzlərinin vasitəçiliyi ilə münaqişənin sülh yolu ilə həlli naminə dəfələrlə bir araya gəlmiş, erməni kilsəsi ilə danışıqlarda iştirak etmişəm. Bunun nəticəsində münaqişənin heç bir vəchlə dinlərarası qarşıdurma müstəvisinə keçməsinə yol verməməyə nail olsaq da, təəssüf ki, erməni tərəfi imzaladığımız birgə bəyanatların ruhuna uyğun davamlı davranış nümayiş etdirmədi. Ermənistan hər zaman müxtəlif müstəvilərdə özünün işğalçı-ekstremist siyasətini ört-basdır edərək, münaqişəyə dini don geyindirməyə, onu xristian-müsəlman qarşıdurması kimi təqdim etməyə çalışıb. Birmənalı şəkildə bəyan edirəm: biz özgə torpaqlarına göz dikməmişik, Azərbaycan xalqının yeganə məqsədi Vətəni təcavüzdən xilas etmək və işğal olunmuş əzəli torpaqlarımızı erməni qəsbkarlardan azad etməkdir.

Qafqaz Müsəlmanları İdarəsi müqəddəs Vətən torpağımız uğrunda mücadiləmizdə Şanlı Ordumuzun qazandığı uğurlar münasibətilə Ali Baş Komandanımızı və bütün xalqımızı təbrik edir. Bu uğurlar haqq etdiyimiz Böyük Qələbənin müjdələridir. Bu gün düşmənə layiq olduğu cavabı verən qəhrəman Azərbaycan Ordusunu Uca Allah qorusun! Qəlbi ülvi Vətən məhəbbəti ilə döyünən əsgərlərimiz həmişə ürəyimizdədirlər. Biz, din xadimləri bütün ibadətlərimizdə xalqımızın haqq mübarizəsinin qələbəsi, ədalətin zəfər çalması üçün dualar edirik. Savaş meydanında da əsgərlərimizlə bərabər olmağa, onlara dəstək verməyə həmişə hazırıq. Vətən bizi çağırır. Zülm və haqsızlığa qarşı milli qürur və şücaətimiz, mənəvi birlik və həmrəyliyimiz hər zamankından daha artıq olmalıdır. Milli, dini mənsubiyyətindən, siyasi baxışından, dünyanın hansı nöqtəsində olmasından asılı olmayaraq bütün azərbaycanlılar ümumi düşmənə qarşı bir səngərdə olmalı, yumruq kimi birləşməlidirlər. Dövlətimizin başçısının vurğuladığı kimi, "Biz birlikdə güclüyük!"

Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Ordusunun zəfəri münasibətilə xalqımıza müraciəti bütün xalqımız kimi, cəmiyyətimizin ayrılmaz parçası olan dindarların, din xadimlərimizin də qəlbinə fəxarət və sevinc bəxş etdi. Bu günlər istər Qarabağda, istərsə də Tovuz istiqamətində işğalçı Ermənistanın təxribat xarakterli həmlələrinə mərdanə sinə gərən yerli mülki əhalimizin mətinliyi, şücaəti xalqımızı ruhlandıran vətəndaşlıq nümunəsidir. Bütün xalqımız kimi, milyonlarla dindarın ümdə istəyi işğal altında olan torpaqlarımızın Azərbaycanın Ali Baş Komandanının rəhbərliyi ilə azad edilməsidir. Ölkə dindarları, hər zaman olduğu kimi, bu gün də dövlətimizin başçısının qətiyyətli addımlarını dəstəkləyirlər və Ali Baş Komandanımızın rəhbərliyi ilə tarixi Qələbəmizin əldə olunması yolunda öz əməli töhfələrini verməyə hazırdırlar.

Bir daha Azərbaycan xalqına müraciət edərək, Uca Allahın bizlərə əmanəti olan müqəddəs Vətən torpağının azad edilməsi, dini-mənəvi dəyərlərimizin xilası, ata-babalarımızın nigaran ruhları naminə haqq mücadiləmiz yolunda həyatını qurban vermiş şəhidlərimizə Uca Allahdan rəhmət, yaralılara şəfa diləyirik. Haqq uğrunda ədalətli mücadiləmizdə Uca Allah bizə yar olsun! Allah-Təala Azərbaycanımızı hifz etsin, Ali Baş Komandanımızı müzəffər, dövlətimizi, ordumuzu, xalqımızı qalib qərar versin, İnşallah! Amin".

# Azərbaycanda xüsusi karantin rejimi noyabrın 2-dək uzadılıb

Nazirlər Kabineti Azərbaycanda xüsusi karantin rejiminin noyabrın 2-dək uzadılması barədə Qərar verib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2020-ci il 2 noyabr saat 06:00-dək uzadılsın.

"Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1-ci bəndin mətnində "30 sentyabr saat 00:00-dək" sözləri "2 noyabr saat 06:00-dək" sözləri ilə əvəz edilsin;

1.2.5-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.2.5. 2020-ci il 3 oktyabr saat 00:00-dan 5 oktyabr saat 06:00-dək, 10 oktyabr saat 00:00-dan 12 oktyabr saat 06:00-dək, 17 oktyabr saat 00:00-dan 19 oktyabr saat 06:00-dək, 24 oktyabr saat 00:00-dan 26 oktyabr saat 06:00-dək və 31 oktyabr saat 00:00-dan 2 noyabr saat 06:00-dək ictimai nəqliyyatın hərəkətinin və Bakı Metropolitenində sərnişindaşıma fəaliyyətinin dayandırılması.".

# Daxili İşlər Nazirliyi komendant saatı ilə bağlı məlumat yayıb

Məlum olduğu kimi, 2020-ci il sentyabr ayının 28-i saat 00:00-dan etibarən Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan olunmuş və bu dövrdə Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Qazax və Ağstafa rayonlarında saat 21:00-dan ertəsi gün saat 06:00-dək komendant saatı tətbiq ediləcəkdir.

Nəzərə çatdırılır ki, komendant saatının qüvvədə olduğu müddətdə şəxslər hərbi vəziyyət rejiminin tətbiq edildiyi inzibati ərazi vahidlərində yalnız xidməti vəsiqə əsasında və "icaze.e-gov.az" portalında qeydiyyatdan keçib xüsusi icazə aldıqda hərəkət edə biləcəklər.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bununla əlaqədar komendant saatının tətbiq edildiyi şəhər və rayonlarda yaşayan yaxud həmin ərazilərə giriş-çıxış edən sakinlərdən və digər şəxslərdən gedəcəkləri ünvanadək olan məsafəni nəzərə alıb komendant saatı başlayanadək səfərlərini, öz işlərini başa çatdırmaq, eləcə də komendant saatı dövründə xüsusi icazə və şəxsiyyəti təsdiq edən sənəd olmadan yaşadıqları (qaldıqları) ünvanı tərk etməmək xahiş olunur.

Həmin müddətdə hərəkətinə xidməti vəsiqə əsasında icazə verilən dövlət orqanlarının əməkdaşlarının, habelə fəaliyyətinə icazə verilən sahələrin siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş, habelə Daxili İşlər Nazirliyi xüsusi icazələrin verilməsi qaydasını təsdiqləmişdir (əlavə olunur).

Xidməti vəsiqə əsasında və **"icaze.e-gov.az"** portalında qeydiyyatdan keçməklə hərəkətinə icazə verilmiş şəxslərin xidməti və fərdi nəqliyyat vasitələrindən istifadə etmələrinə yol verilir.

Komendant saatı müddətində tibb müəssisəsinə təcili tibbi yardım avtomobili ilə, yaxud yaxın qohumları tərəfindən aparılan şəxslərin hərəkətinə şərait yaradılacaqdır.

Diqqətə çatdırılır ki, vəfat edən şəxsin dini qaydalara uyğun dəfnə hazırlanması üçün onun yaxın qohumları Daxili İşlər Nazirliyinin "102" Xidmətinə və ya "Qaynar xətt"inə (012 590-80-20) etdikləri müraciət üzrə aparılan araşdırmalardan sonra sərbəst hərəkət edə bilərlər.

Hərbi vəziyyət rejiminin tələblərini pozan, komendant saatının təmin olunmasına cəlb edilmiş polis əməkdaşlarının və hərbi qulluqçuların qanuni tələblərinə əməl etməyən şəxslər haqqında hüquqi məsuliyyət tədbirləri görüləcəkdir.

*28 sentyabr 2020-ci il Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 sentyabr tarixli 358 nömrəli Qərarı ilə təsdiq edilmişdir*

***1 nömrəli əlavə***

**Azərbaycan Respublikasının ərazisində elan edilmiş hərbi vəziyyətlə əlaqədar tətbiq edilən komendant saatı müddətində əməkdaşlarının xidməti vəsiqə ilə hərəkətinə icazə verilən dövlət orqanlarının (qurumlarının) Siyahısı**

1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
3. Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti
4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı
5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər İdarəsi
6. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi
7. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi
8. Azərbaycan Respublikasının Baş Prokurorluğu
9. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
10. Məhkəmə orqanlarının əməkdaşları, vəkillər
11. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi
12. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi
13. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (Azərbaycan Respublikasında akkreditasiya olunmuş diplomatik nümayəndəliklərin və beynəlxalq təşkilatların əməkdaşları və onların yerli heyəti - Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi tərəfindən verilmiş akkreditasiya kartları əsasında)
14. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi
15. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti
16. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti
17. Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti
18. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti
19. Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi
20. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti
21. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti
22. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti
23. Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi (TƏBİB), dövlət və özəl səhiyyə müəssisələri
24. Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik.

***2 nömrəli əlavə***

**Azərbaycan Respublikasının ərazisində elan edilmiş hərbi vəziyyətlə əlaqədar tətbiq edilən komendant saatı müddətində elektron imzadan istifadə edilməklə əməkdaşlarının "icaze.e-gov.az" portalından qeydiyyatdan keçməklə hərəkətinə icazə verilən dövlət orqanlarının (qurumlarının) Siyahısı**

1. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi
2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
5. Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi
6. Azərbaycan Respublikasının Energetika Nazirliyi
7. Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi
8. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi
9. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi
10. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi
11. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC)
12. Azərbaycan Respublikasının Mərkəzi Bankı, dövlətə məxsus banklar
13. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR)
14. "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti
15. "Azərsu" Açıq Səhmdar Cəmiyyəti
16. "Azəriqaz" İstehsalat Birliyi
17. "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti
18. "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti
19. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
20. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti
21. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti
22. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti
23. "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti
24. Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi
25. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi

***3 nömrəli əlavə***

**Azərbaycan Respublikasının ərazisində elan edilmiş hərbi vəziyyətlə əlaqədar tətbiq edilən komendant saatı müddətində fəaliyyətinə icazə verilən sahələrin Siyahısı**

1. Səhiyyə və sosial sahə üzrə:
1.1. xəstəxanalar, poliklinikalar və digər tibb müəssisələri üzrə xidmətlər;
2. İnfrastruktur sahəsi üzrə:
2.1. kommunal xidmətlər (kanalizasiya və su təchizatı, qaz təchizatı, istilik təchizatı, enerji paylanması);
2.2. elektrik enerjisinin istehsalı və təchizatı;
2.3. su təsərrüfatı və meliorasiya;
2.4. telekommunikasiya və rabitə xidmətləri.
3. Nəqliyyat və logistika sahəsi üzrə:
3.1. hava, dəniz, dəmir yolu və avtomobil nəqliyyatı ilə yük daşımaları;
3.2. dəmir yolu, dəniz gəmiçiliyi, liman və avtomobil yolları xidmətləri;
3.3. logistika xidmətləri;
3.4. ictimai nəqliyyatın fəaliyyəti.
4. Əsas istehsalat növləri:
4.1. müdafiə sənayesi məhsullarının istehsalı;
4.2. neft avadanlıqları və qurğularının istehsalı;
4.3. qida məhsullarının və onlar üçün xammal istehsalı, qida məhsullarının tədarükü, təchizatı, saxlanması və topdan satışı;
4.4. gündəlik baxım və gigiyena vasitələrinin istehsalı;
4.5. kimyəvi məhsulların istehsalı;
4.6. kənd təsərrüfatı məhsullarının toplanması, istehsalı və emalı, o cümlədən fermer təsərrüfatlarının fəaliyyəti;
4.7. neft və qazın hasilatı, emalı, saxlanması və satışı;
4.8. neft və qazın boru kəmərləri vasitəsilə ötürülməsi;
4.9. metallurgiya sənayesi üzrə fəaliyyət;
4.10. tikinti və məişət avadanlıqlarının istehsalı və təmiri;
4.11. qablaşdırma məhsullarının istehsalı;
4.12. maşın və avadanlıqların istehsalı;
4.13. elektrik avadanlıqlarının istehsalı;
4.14. kompüter, elektron və optik məhsulların istehsalı;
4.15. avtomobil, qoşqu və yarımqoşquların istehsalı;
4.16. sair nəqliyyat vasitələrinin istehsalı;
4.17. tütün məmulatlarının istehsalı;
4.18. sair sənaye məhsullarının istehsalı.
5. Pərakəndə və topdansatış üzrə:
5.1. yanacaqdoldurma məntəqələri.
6. Məişət xidmətləri üzrə:
6.1. məişət tullantılarının yığılması və utilizasiyası.
7. Kütləvi informasiya vasitələri.
8. Təhsil müəssisələrinin fəaliyyəti.
9. Fəaliyyətinə icazə verilməmiş özəl hüquqi şəxslərin mühafizəsi və texniki təhlükəsizliyinin təmin edilməsi üzrə fəaliyyət.

**Xüsusi icazənin verilməsi**
**QAYDASI**

1. Bu Qayda Azərbaycan Respublikası Prezidentinin "Hərbi vəziyyət elan edilməsi haqqında" 2020-ci il 27 sentyabr tarixli 1166 nömrəli Fərmanına və "Azərbaycan Respublikasının ərazisində elan edilmiş hərbi vəziyyətlə əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 sentyabr tarixli 358 nömrəli Qərarına uyğun olaraq hazırlanmışdır və hərbi vəziyyətin elan edildiyi inzibati ərazi vahidlərində komendant saatı müddətində şəxslərin və nəqliyyat vasitələrinin sərbəst hərəkətinə xüsusi icazənin verilməsi ilə bağlı məsələləri tənzimləyir.

2. Komendant saatı müddətində xidməti vəsiqə ilə hərəkətə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 sentyabr tarixli 358 nömrəli Qərarına 1 nömrəli əlavədə göstərilən dövlət orqanlarının əməkdaşlarına icazə verilir.

3. Aşağıdakı şəxslər barəsində məlumatlar "icaze.e-gov.az" portalına daxil edildikdən sonra komendant saatının qüvvədə olduğu müddətdə onların hərəkətinə xüsusi icazə verilir:

3.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 sentyabr tarixli 358 nömrəli Qərarına 2 nömrəli əlavədə göstərilən dövlət orqanlarının əməkdaşlarına;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 sentyabr tarixli 358 nömrəli Qərarına 3 nömrəli əlavədə göstərilən sahələrdə çalışan şəxslərə.

4. Ölmüş şəxsin dini qaydalara uyğun dəfnə hazırlanması üçün onun yaxın qohumlarının sərbəst hərəkətinə Daxili İşlər Nazirliyinin "102" Xidmətinə və ya "Qaynar xətt"inə edilmiş müraciət üzrə aparılan araşdırmalardan sonra icazə verilir.

5. Beynəlxalq və ölkədaxili uçuşlara müvafiq reys üçün bileti olan şəxslərin yaşadıqları və ya olduqları yerdən hərəkətinə onların biletləri əsasında, dövlət sərhədindən müvafiq qaydada ölkəyə daxil olan şəxslərin yaşadıqları və ya olduqları yerə gəlməsinə isə onların pasportuna vurulmuş ştamp əsasında yol verilir.

6. Tibb müəssisəsinə təcili tibbi yardım avtomobili ilə, yaxud yaxın qohumları tərəfindən aparılan şəxslərin hərəkətinə şərait yaradılır.

7. Xidməti vəsiqə əsasında, **"icaze.e-gov.az"** portalında qeydiyyatdan keçməklə və təxirəsalınmaz tibbi zərurətlə əlaqədar hərəkətinə icazə verilmiş şəxslər xidməti və fərdi avtomobildən istifadə edə bilərlər.

8. Hər hansı şəxsin komendant saatının qüvvədə olduğu müddətdə həyata keçirdiyi fəaliyyətlə bağlı iş yerindən arayış əsasında hərəkətinə icazə verilmir.

9. Komendant saatı müddətində hərəkətinə icazə verilən şəxslərin şəxsiyyəti təsdiq edən sənədlərinin üzərində olması məcburidir.

# Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü ilə bağlı Azərbaycan Sahibkarlar Konfederasiyasının bəyanatı

Sentyabrın 27-də səhər saatlarından başlayaraq erməni vandalları növbəti təxribata əl ataraq, işğalçılıq siyasəti yeritdiklərini bir daha sübut etdilər. Ermənistan silahlı qüvvələrinin bölmələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutdular, hücuma keçməyə cəhd göstərdilər.

Düşmənin atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itki və yaralananların da olması Azərbaycan sahibkarlarını dərindən sarsıtdı. Sahibkarlar adından qəhrəman şəhidlərimizə Allahdan rəhmət diləyir, onların yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralılarımızın tezliklə sağalmasını arzulayırıq.

Əlbəttə ki, ordumuzun adekvat tədbirləri nəticəsində düşmənə lazımi cavab verilir.

Ölkə Prezidenti cənab İlham Əliyevin uzaqgörən və düşünülmüş siyasəti nəticəsində Azərbaycan dünya üçün maraqlı və əməkdaşlığa layiq ölkəyə çevrilmiş, xarici dövlətlərin maraqları Azərbaycanın maraqları ilə üst-üstə düşür.

Bu hadisələrlə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə keçirilmiş Təhlükəsizlik Şurasının iclasında dövlət başçısı çıxış edərək bildirdi ki, "Heç kəsə sirr deyil ki, Tovuz hadisələrində olduğu kimi bu dəfə də ilk atəşi, o cümlədən artilleriya atəşini Ermənistan açıbdır və ilk həlak olanlar da məhz Azərbaycan hərbçiləri olmuşdur. Azərbaycan düşmənə layiqli cavabını verir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Bizim işimiz haqq işidir və Azərbaycan öz prinsipial mövqeyindən bir addım geri atmayacaq".

Mövcud vəziyyət nəzərə alınaraq Azərbaycan Respublikasında Hərbi vəziyyət elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti fərman imzalamış, "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş tədbirlər həyata keçirilməyə başlanılmışdır.

Azərbaycan sahibkarlarından Konfederasiyaya daxil olan müraciətlərdə sahibkarlar ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin, ordumuzun, qəhrəman əsgərlərimizin yanında olduqlarını bəyan etməklə, onlara dəstək olmaq istədiklərini ifadə edirlər.

İnanırıq ki, xalqımız, o cümlədən çoxminlik sahibkarlar ordusu Azərbaycan Respublikası Prezidentinin hərbi vəziyyət elan olunması ilə bağlı fərmanının tələblərini yerinə yetirməklə qələbə üçün bütün imkanları səfərbər edəcəklər.

Biz Azərbaycan Sahibkarlar Konfederasiyası olaraq hərbi vəziyyət dövründə və koronavirus pandemiyasına qarşı çətin mübarizə günlərində, erməni təxribatına qarşı həmrəylik nümayiş etdirərək ölkə Prezidenti cənab İlham Əliyevin verdiyi bütün qərarları bəyənir, onun rəhbərliyi altında yeni-yeni iqtisadi uğurlara nail olacağımıza inanır və bəyan edirik ki, dövlətimizin daha da güclənməsi, rəqabətədavamlı istehsalın genişləndirilməsi və dünya miqyasında nüfuzunun daha da artması üçün gücümüzü səfərbər edərək, əlverişli biznes mühitindən yararlanmaqla ölkəmizin daha da çiçəklənməsi, hərbi potensialının gücləndirilməsi, əhalinin rifah halının yaxşılaşdırılması üçün var gücümüzlə çalışacağıq.

***Məmməd MUSAYEV,***
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***

# İslam Əməkdaşlıq Təşkilatı Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı təxribat və hücumlarını kəskin şəkildə qınayır

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş Katibliyi Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini pozaraq Azərbaycana qarşı mülki insan tələfatına səbəb olan hücumlarını dərin narahatlıqla izləyir.

AZƏRTAC xəbər verir ki, İƏT-in bununla bağlı yaydığı bəyanatda Baş Katibliyin Ermənistan silahlı qüvvələrinin təxribat və hücumlarını kəskin şəkildə qınadığı vurğulanır. Qeyd edilir ki, Baş Katiblik Azərbaycan Respublikası ilə həmrəyliyini bir daha ifadə edir, İslam Əməkdaşlıq Təşkilatının qərar və qətnamələrini, həmçinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini xatırladaraq, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasını, iki ölkə arasındakı münaqişənin Azərbaycanın suverenliyinə hörmətə, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına əsaslanan siyasi yolla həllinə nail olmaq üçün dialoqun qəbul edilməsini tələb edir.

Baş Katiblik şəhid olan Azərbaycan vətəndaşlarının ailələrinə, Azərbaycan hökumətinə və xalqına dərin hüznlə başsağlığı verir, yaralıların tezliklə sağalmasını diləyir.

# 70 nəfər sağalıb, 38 yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 70 nəfər sağalıb, 38 yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 40 min 61 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 37 min 725 nəfər müalicə olunaraq sağalıb, 588 nəfər vəfat edib. Aktiv xəstə sayı 1748 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 104 min 783 test aparılıb. Dünənki test sayı isə 2382-dir.



## Azərbaycan öz ərazisində beynəlxalq hüququ bərpa edir

# “Qələbəyə doğru İLHAMLA İRƏLİ!”

*Yeni Azərbaycan Partiyası (YAP) cəbhəboyu təmas xəttində erməni hərbi təxribatları ilə əlaqədar bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir. Bəyanatda deyilir:*

“Sentyabrın 27-də səhər saat 06:00-da düşmən bütün cəbhəboyu yeni və iyrənc hərbi təxribat törətmişdir. Ermənistanın silahlı qüvvələri tərəfindən Azərbaycanın yaşayış məntəqələri, mülki əhali atəşə tutulur. Ağır döyüşlər gedir. Qəhrəman Azərbaycan Ordusu, igid əsgərlərimiz düşmənin xain təxribatlarının qarşısını alır, erməni silahlı birləşmələrinin mövqelərinə ağır, sarsıdıcı zərbələr endirir.

Öz ölkəsinin daxilində bütün dayaqlarını itirən Ermənistanın diktatura rejimi cəbhədə təxribatlar törətmək, müharibə təhlükəsi yaratmaqla xalqın qəzəbindən yayınmağa çalışır. Bu, Ermənistan rəhbərliyinin əsl faşist mahiyyətindən xəbər verir. Bütün dünyada sülhün carçısı kimi tanınan, yaradılmasının 75 illiyi qeyd edilən BMT Baş Assambleyasının xüsusi yubiley sessiyasının keçirildiyi bir zamanda Ermənistanın hərbi təxribatlar törətmək, müharibə təhlükəsi yaratmaq cəhdləri beynəlxalq icmaya meydan oxumaq, sülhə xəyanət etməkdir. Ermənistan rəhbərliyinin növbəti hərbi təxribatı onun sülh, əmin-amanlıq, təhlükəsizlik kimi dəyərlərə düşmən kəsildiyini bir daha əyani şəkildə sübuta yetirir. İşğal etdiyi Azərbaycan torpaqlarını azad etmək haqqında BMT Təhlükəsizlik Şurasının, müxtəlif beynəlxalq təşkilatların çoxsaylı qətnamələrinə və çağırışlarına məhəl qoymayan Ermənistan nəinki Cənubi Qafqazda, eləcə də bütün dünyada sülhə və təhlükəsizliyə ən böyük təhlükəyə çevrilmişdir.

Azərbaycanın öz torpaqlarının işğaldan azad edilməsi, məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtması naminə mübarizəsi ədalətin və sülhün bərqərar olması məqsədlərinə xidmət edir. Rəşadətli Azərbaycan Ordusu, qəhrəman əsgərlərimiz xalqımızın çoxdan gözlədiyi qələbəni təmin etməyə qadir və hazırdır. Heç bir təxribat və xəyanət Silahlı Qüvvələrimizi haqq işi yolunda müqəddəs savaşından çəkindirə bilməz. Bu gün bütün Azərbaycan xalqı qəhrəman Ordumuzla bir yerdədir, onun düşmənə qarşı mübarizəsini alqışlayır və dəstəkləyir. İgid əsgərlərimiz əmin ola bilər ki, hər bir Azərbaycan vətəndaşı, hər bir gənc onun yanındadır, onunla birdir.

Bütün xalqı yağı düşmənə layiqli cavab vermək, doğma Qarabağımızı düşmən tapdağından azad etmək naminə Ali Baş Komandanın ətrafında sıx birləşməyə, səfərbər olmağa, Qəhrəman Azərbaycan Ordusuna mənəvi güc və ruh mənbəyi olmağa çağırırıq. Xalqın və Ordunun bir yumruq kimi birləşərək düşmənə həlledici zərbənin endirməsi zamanıdır. İgidlik, şücaət və fədakarlıq zamanıdır. Həqiqət anıdır. Ədalətin və qəhrəmanlığın, Rəhbərin və Xalqın birliyinin qüdrətinin zəfər çaldığı həqiqət anı.

Yeni Azərbaycan Partiyası olaraq, Ordumuzla qürur duyduğumuzu, onunla birgə olduğumuzu bəyan edirik. Ali Baş Komandanımız cənab İlham Əliyev əmin ola bilər ki, rəhbəri olduğu Yeni Azərbaycan Partiyasının hər bir üzvü müsəlləh əsgər kimi onun əmri ilə Vətən yolunda fədakarlıq və qəhrəmanlıq göstərməyə hər an hazırdır. Ali Baş Komandanımızın müdrik rəhbərliyi ilə Silahlı Qüvvələrimizin növbəti erməni təxribatına layiqli cavab verəcəyinə, düşmənə sarsıdıcı zərbələr endirəcəyinə və xalqımıza haqqı olan QƏLƏBƏNİ bəxş edəcəyinə dərindən inanırıq. O gün uzaqda deyil.

Qəhrəman Azərbaycan Ordusuna eşq olsun!

İgid ƏSGƏR! Qələbəyə doğru İLHAMLA İRƏLİ!”

# “Rus icması beynəlxalq strukturları ikili standartlar siyasətindən əl çəkməyə çağırır”

*Sentyabrın 27-də Respublika Rus İcması Şurası Ermənistanın bütün cəbhə xətti boyunca növbəti təxribatı ilə əlaqədar Azərbaycanın etnik rus vətəndaşları adından bəyanat yayıb. AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir:*

“Sentyabrın 27-də səhər saat 06:00 radələrində Ermənistan silahlı qüvvələri irimiqyaslı təxribatlar həyata keçirərək Azərbaycan Ordusunun cəbhə xətti boyunca yerləşən mövqelərini və cəbhəyanı zonada yerləşən yaşayış məntəqələrini iriçaplı silahlardan, minaatanlardan və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutublar. Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycan Ordusunun cəbhə xətti boyunca mövqelərini, Tərtər rayonunun Qapanlı kəndini, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd kəndlərini, Füzuli rayonunun Alxanlı və Şükürbəyli kəndlərini, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndini atəşə tutublar. İntensiv atəşlər nəticəsində dinc sakinlər arasında ölənlər və yaralananlar var. Mülki infrastruktur obyektlərinə də ciddi ziyan vurulub.

Ermənistan silahlı qüvvələrinin döyüş fəallığının qarşısını almaq və dinc əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı bütün cəbhə boyunca əks-həmlə əməliyyatına başlamaq barədə qərar qəbul edib. Təsdiqlənmiş məlumata görə, Azərbaycanın Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Yuxarı Əbdürrəhmanlı və Kənd Horadiz, həmçinin Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri azad edilib.

Biz - Azərbaycanın etnik rus əhalisi Ermənistan rəhbərliyinin münaqişənin gərginləşməsinə və suveren Azərbaycan dövlətinin yeni ərazilərini ələ keçirmək cəhdinə yönələn təcavüzkar hərəkətlərini qətiyyətlə pisləyirik.

Ölkənin etnik rus vətəndaşları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin cəbhə xəttində vəziyyətlə və bütövlükdə, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi ilə bağlı mövqeyini və fəaliyyətini tam dəstəkləyir. Biz Ordumuzun, igid hərbi qulluqçularımızın nümayiş etdirdiyi dözüm və rəşadətə görə onlara təşəkkür edirik! Vəziyyətdən asılı olmayaraq, Azərbaycanın rus əhalisi 90-cı illərin əvvəllərində olduğu kimi, daim Azərbaycan xalqı ilə, qardaşlarımızla çiyin-çiyinə dayanmağa və Azərbaycan sərhədlərinin möhkəmlənməsi hüququnu qoruyaraq Vətənimizi sonadək müdafiə etməyə hazırdır!

Azərbaycan, onun rəhbərliyi 25 ildən çoxdur ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini beynəlxalq birlik tərəfindən tanınan sərhədlər çərçivəsində suverenliyə və ərazi bütövlüyünə hörmət əsasında dinc yolla nizamlamağa çalışır.

Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan edib ki, Ermənistan tərəfindən Azərbaycana qarşı davam edən hərbi təcavüz, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərində mövcudluğu regionda sülhə və təhlükəsizliyə əsas təhdid mənbəyidir. Beynəlxalq təşkilatlara - BMT, ATƏT və onun Minsk qrupuna, Avropa ictimaiyyətinə, həmçinin bir sıra sülhməramlı təşkilatlara Ermənistan rəhbərliyini bütün danışıqlar prosesinin sabitliyini pozmaq üçün təkrarlanan cəhdlərə görə məsuliyyətə çağırmaq barədə müraciətlər edilib. Ermənistanın bu il iyul ayında Tovuz istiqamətində hərbi təxribatı növbəti dəfə sübut etdi ki, rəsmi Yerevan bütün beynəlxalq razılaşmalara zidd olaraq danışıqlar prosesini pozmağa çalışır və qeyri-qanuni şəkildə erməni işğalı altında olan Dağlıq Qarabağ və ona bitişik 7 rayondan uzaqda yerləşən rəsmi sərhəd istiqamətində hücuma keçərək məqsədli şəkildə münaqişə zonasını genişləndirir.

Əfsuslar olsun ki, Ermənistanın hərbi-siyasi rəhbərliyinə heç bir sərt çağırışlar olmadı və bu gün Ermənistanın növbəti təxribatı irimiqyaslı hərbi əməliyyatların başlanmasına, həm hərbçilərin, həm də dinc sakinlərin ölümünə gətirib çıxardı.

Ermənistanın cinayətkar rəhbərliyi tərəfindən başlanmış silahlı münaqişə müstəqil və suveren Azərbaycan Respublikasının ərazisində artıq 30 ildən çoxdur ki, davam edir. Özlərinin işğalçı hərəkətlərinə bəraət qazandırmaq və beynəlxalq strukturların gözlərinə kül üfürməklə Ermənistan Dağlıq Qarabağda heç kəs tərəfindən tanınmayan separatçı rejim yaradıb. Nəticədə, yüz minlərlə azərbaycanlı doğma torpaqlarından qovulub, Xocalı şəhərinin faciəsi baş verib, dinc sakinlər vəhşicəsinə qətlə yetirilib, Azərbaycanın milli sərvətləri və tarixi abidələri vəhşicəsinə məhv edilib.

Azərbaycanın rus icması beynəlxalq strukturları ikili standartlar siyasətindən əl çəkməyə və öz hərəkətləri ilə bütün regionun sabitliyini təhlükə altına qoya biləcək təcavüzkar ölkə olan Ermənistana lazımi təzyiq göstərməyə çağırır”.

# “Prezident İlham Əliyevin bütün siyasi və hərbi tədbirlərini yekdilliklə dəstəkləyirik”

*Azərbaycanda fəaliyyət göstərən 50 siyasi partiya Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına dair birgə bəyanat yayıblar. AZƏRTAC bəyanatı təqdim edir.*

Sentyabrın 27-də saat 06:00 radələrində Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribat törədərək, iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv şəkildə atəşə tutması nəticəsində Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı, Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərində mülki əhali və hərbi qulluqçular arasında həlak olanlar və yaralılar var.

Ermənistanın genişmiqyaslı hərbi əməliyyatlara başlaması, mülki əhalinin yaşadığı kəndləri və infrastrukturları hədəf kimi seçərək ağır silahlarla bombalaması beynəlxalq hüquqa ziddir və qarşısı qətiyyətlə alınmalıdır.

Ermənistan 30 ilə yaxındır ki, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur və əfsuslar olsun ki, o, buna görə cəzalandırılmır. Bəzi hallarda BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra olunur. Azərbaycana gəldikdə isə qətnamələr icra olunmur. Bu, ikili standarta əsaslanan yanaşma qəbuledilməzdir.

Ermənistan hökuməti 30 ildir davam edən münaqişənin həll edilməsində maraqlı deyildir. Ermənistanın siyasi hakimiyyəti daxili siyasətdə yaşadığı sosial-iqtisadi problemləri, epidemioloji vəziyyətin gətirdiyi sosial çətinlikləri həll etməkdə acizdir. Ermənistan hökuməti vətəndaşlarının diqqətini bu problemlərdən yayındırmaq, daxili siyasi mübarizəni arxa plana çəkmək məqsədilə mütəmadi olaraq cəbhə xəttində atəşkəsi pozur.

Ermənistan baş nazirinin militarist bəyanatları, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi müzakirələrində konstruktiv mövqe nümayiş etdirməməsi, “Qarabağ Ermənistandır və nöqtə” kimi sərsəm bəyanatları müzakirələrin önünü kəsən amillərdir.

Ermənistan status-kvonun dəyişməz qalması üçün əlindən gələni edir, substantiv danışıqların qarşısını alır.

Ermənistan Azərbaycanın qondarma “Dağlıq Qarabağ Respublikası” ilə müzakirə aparmasını istəyir. Ali Baş Komandan bunu qətiyyətlə rədd edir və bu təkliflə ATƏT-in Minsk qrupu da razılaşmır.

2016-cı il aprel və 2020-ci il iyul aylarında Ermənistanın atəşkəsi pozmasından sonra yaşanan hadisələrdə Azərbaycan Ordusunun vurduğu sarsıdıcı zərbələr nəticəsində Ermənistan ordusu məğlubiyyətə uğradıldı. Ermənistanın məğlubiyyəti ona dərs olmalıdır. Ali Baş Komandan dəfələrlə bildirib ki, bizim Ermənistan torpağında siyasi və hərbi maraqlarımız yoxdur.

Ermənistanın genişmiqyaslı hərbi əməliyyatlara başlaması sadəcə bölgənin deyil, beynəlxalq aləmin də təhlükəsizliyini ciddi şəkildə təhdid edir.

Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün vasitəçilik missiyası olan ATƏT-in Minsk qrupu, beynəlxalq təşkilatlar Ermənistanın işğalçılıq siyasəti qarşısında səssiz qalmamalı, dərhal siyasi və hüquqi tədbirlər görməlidir.

Azərbaycanda fəaliyyət göstərən və bu bəyanatı imzalayan siyasi partiyalar Ali Baş Komandan, Prezident İlham Əliyevin Vətənimizin ərazi bütövlüyünün və vətəndaşların təhlükəsizliyinin qorunması, Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi genişmiqyaslı terror təxribatlarının qarşısının alınması məqsədilə həyata keçirdiyi bütün siyasi və hərbi tədbirləri yekdilliklə dəstəkləyir və onun yanında olduğunu bildirir!

Belə mürəkkəb şəraitdə ölkəmizin bütün vətəndaşlarını və dünya azərbaycanlılarını bir daha milli birliyə və vəhdətə səsləyir, hər kəsi Azərbaycanın haqq səsinin dünya birliyinə çatdırılmasına töhfə verməyə, beynəlxalq ictimaiyyəti isə Azərbaycanın həm tarixi həqiqətlər, həm də beynəlxalq hüquqla dəstəklənən haqq mübarizəsinə biganə qalmamağa çağırırıq.

1. Yeni Azərbaycan Partiyası - Əli Əhmədov
2. Vətəndaş Həmrəyliyi Partiyası - Sabir Rüstəmxanlı
3. Ana Vətən Partiyası - Fəzail Ağamalı
4. Böyük Quruluş Partiyası - Fazil Mustafa
5. Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası - Qüdrət Həsənquliyev
6. Demokratik İslahatlar Partiyası - Asim Mollazadə
7. Vəhdət Partiyası - Tahir Kərimli
8. Vətəndaş Birliyi Partiyası - Sabir Hacıyev
9. Azərbaycan Demokratik Maarifçilik Partiyası - Elşən Musayev
10. Milli Cəbhə Partiyası - Razi Nurullayev
11. ReAL Partiyası - İlqar Məmmədov
12. Azərbaycan Ümid Partiyası - İqbal Ağa-zadə
13. Milli Dirçəliş Hərəkatı Partiyası - Fərəc Quliyev
14. Azərbaycan Demokrat Partiyası - Sərdar Cəlaloğlu
15. Azərbaycan Xalq Partiyası - Pənah Hüseyn
16. Ədalət Partiyası - İlyas İsmayılov
17. Klassik Xalq Cəbhəsi Partiyası - Mirmahmud Fəttayev
18. Azad Demokratlar Partiyası - Sülhəddin Əkbər
19. Azərbaycan Liberal Partiyası - Əvəz Temirxan
20. Azərbaycan Milli İstiqlal Partiyası - Arzuxan Əlizadə
21. Aydınlar Partiyası - Qulamhüseyn Əlibəyli
22. Azərbaycan Respublikaçılar Partiyası - Sübut Əsədov
23. Azərbaycan Sosial Demokrat Partiyası - Araz Əlizadə
24. Azərbaycan Sosial Rifah Partiyası - Əsli Kazımova
25. Böyük Azərbaycan Partiyası - Elşad Musayev
26. Milli Vəhdət Partiyası - Yunus Oğuz
27. AĞ Partiya - Tural Abbaslı
28. Müasir Müsavat Partiyası - Hafiz Hacıyev
29. Azərbaycan Liberal Demokrat Partiyası - Fuad Əliyev
30. Azərbaycan Yurddaş Partiyası - Mais Səfərli
31. Azadlıq Partiyası - Əhməd Orucov
32. Azərbaycan Naminə Alyans Partiyası - Abutalıb Səmədov
33. Azərbaycan Azad Respublikaçılar Partiyası - Kamil Seyidov
34. Cümhuriyyət Xalq Partiyası - Bədrəddin Quliyev
35. Demokratik Azərbaycan Dünyası Partiyası - Əlisahib Hüseynov
36. Yeni Zaman Partiyası - Musa Ağayev
37. Vətəndaş və İnkişaf Partiyası - Əli Əliyev
38. Azərbaycan Xalq Demokratik Partiyası - Rafiq Turabxan
39. Azərbaycan Kommunist Partiyası - Hacı Hacıyev və Rauf Qurbanov
40. Milli Konqres Partiyası - İxtiyar Şirinov
41. Müstəqil Xalq Partiyası - Əflan İbrahimov
42. Vahid Azərbaycan Milli Birlik Partiyası - Hacıbaba Əzimov
43. Azərbaycan Milli Demokrat Partiyası - Tufan Kərimov
44. Azərbaycan Təkamül Partiyası - Teyyub Əliyev
45. Birlik Partiyası - Xudadat Xudiyev
46. Gələcək Azərbaycan Partiyası - Ağasif Şakiroğlu
47. Azərbaycan Milli Hərəkat Partiyası - Samir Cəfərov
48. Azərbaycan Mübarizləri Partiyası - Ağadur Müslümov
49. Qorqud Partiyası - Firudin Kərimov
50. Milli Demokrat İdrak Partiyası - Osman Əfəndiyev

# “Milyon yarım üzvümüz Ali Baş Komandanın yanındadır və yolundadır!”

*Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası Ermənistanın ölkəmizə qarşı hərbi təxribatları ilə bağlı bəyanat yayıb. Bəyanatda deyilir:*

“Sentyabrın 27-də sübh tezdən Ermənistan silahlı qüvvələrinin bölmələri bütün cəbhəboyu hərbi təxribat törədib. Cəbhəboyu ərazidə yerləşən dinc əhalinin məskunlaşdığı kəndlər iriçaplı silahlar, minaatan və müxtəlif çaplı artilleriya qurğularından atəşə tutulub. Ermənistan silahlı qüvvələri tərəfindən cəbhəyanı ərazilərdə mülki əhalinin və obyektlərin atəşə tutulması qəsdən və hədəflənmiş növbəti təxribatdır. Bu təxribat nəticəsində mülki əhali və hərbi qulluqçular arasında həlak olan və yaralananlar var, çoxsaylı evlərə və mülki obyektlərə ciddi ziyan dəyib.

Prezident İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 75-ci sessiyasında çıxışında da Ermənistanın hücuma hazırlaşdığını qeyd edərək demişdir ki, Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştiraka məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış könüllü dəstələrinin yaradılmasını elan edib. Ermənistanın müdafiə naziri “yeni ərazilər uğrunda yeni müharibəyə” çağırır. Ermənistan rəhbərliyinin düşməncəsinə verilən Azərbaycanofob bəyanatları və törədilən təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşdığını nümayiş etdirir.

Ermənistan rəhbərliyinin növbəti hərbi təxribatı onun sülh, əmin-amanlıq, təhlükəsizlik kimi dəyərlərə düşmən kəsildiyini bir daha əyani şəkildə sübuta yetirir. İşğal etdiyi Azərbaycan torpaqlarını azad etmək haqqında BMT Təhlükəsizlik Şurasının, müxtəlif beynəlxalq təşkilatların çoxsaylı qətnamələrinə və çağırışlarına məhəl qoymayan Ermənistan nəinki Cənubi Qafqazda, eləcə də bütün dünyada sülhə və təhlükəsizliyə ən böyük təhlükəyə çevrilib.

Erməni tərəfinin təmas xəttində və sərhəd zonalarında vaxtaşırı qanlı təxribatlar törətməsi pis adət halını alıb. Ermənistan rəhbərliyi birinci dəfə deyil ki, ölkə daxilində üzləşdiyi və qarşısında aciz qaldığı ağır problemlərdən sərhəddə və ya təmas xəttində iyrənc hərbi təxribatlar törətməklə yaxa qurtarmağa çalışır. Ağır epidemioloji vəziyyətdən və sosial-iqtisadi sıxıntılardan cana doymuş xalqın qəzəbindən yayınmaq üçün Paşinyanın diktatura rejiminin hərbi təxribatlara əl atması onun yürütdüyü siyasətin Ermənistanın əvvəlki xunta rejimlərinin yürütdüyü siyasətdən azacıq da olsa fərqlənmədiyinin göstəricisidir.

Bu gün Azərbaycan Ordusu dünyanın ən qüdrətli orduları sırasında yer alır və düşmənin istənilən həmləsinin qarşısını almaq, ona öldürücü zərbə endirmək gücündədir və bunu inamla həyata keçirir. Rəşadətli Azərbaycan Ordusunun apardığı əks-hücum əməliyyatı nəticəsində düşmənin ön xətti yarılıb, bir sıra kəndlər işğaldan azad edilib, xüsusi əhəmiyyət kəsb edən strateji yüksəkliklər ələ keçirilib. Düşmən hərbi silah-sursatı ataraq geri çəkilməyə məcbur edilib. İnanırıq ki, bu qələbələrin davamı gələcəkdir.

Biz Azərbaycan həmkarlar ittifaqları olaraq Ali Baş Komandan, Prezident İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, hər cür erməni fitnəsi və təxribatının qarşısının alınması istiqamətində həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəkləyir, onun ətrafında sıx birləşdiyimizi bəyan edirik. Şərəfli tarixi olan Ordumuzla qürur duyuruq. Həmkarlar ittifaqlarının milyon yarım üzvü Prezident, Ali Baş Komandan İlham Əliyevin yanındadır və yolundadır!”

# “Bütün məsuliyyət təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür”

*Ermənistanın cəbhə xətti boyu etdiyi sonuncu hücumlarla bağlı Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması bəyanat yayıb. AZƏRTAC-a daxil olan bəyanatda deyilir:*

“Sentyabrın 27-də səhər saatlarında təcavüzkar Ermənistanın silahlı qüvvələri bütün cəbhə xətti boyu ordumuzun mövqelərinə və yaşayış məntəqələrinə hücum edib.

Biz, işğalın və etnik təmizləmənin qurbanı olan Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması olaraq Ermənistanın bu hücumunu və törətməkdə davam etdiyi müharibə cinayətlərini ən kəskin formada pisləyirik. Biz, təcavüzkar Ermənistan qoşunlarının bütün işğal etdiyi ərazilərimizdən dərhal çıxarılmasını tələb edirik. Yetər 30 ildir gözlədik, artıq evlərimizə qayıtmaq istəyirik.

Keçən illər göstərdi ki, təcavüzkar Ermənistan, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrini və digər beynəlxalq təşkilatların sənədlərini ayaq altına ataraq, tapdalanmış hüquqlarımızın bərpasına imkan vermədi.

Hazırda bütün cəbhə boyu davam edən döyüşlərə görə bütün məsuliyyət təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Ermənistanın bu növbəti hücumu nəticəsində şəhid olmuş hərbçilərimiz və mülki vətəndaşlarımıza Allahdan rəhmət diləyirik və onların ailələrinə başsağlığı veririk”.

# “Azərbaycan əsgərlərinin döyüş bölgələrində uğurlarına sevinəndə, şəhidlərimizə göz yaşları tökəndə onların etnik mənsubiyyətini soruşmuruq”

*Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinə Azərbaycan Respublikasında yaşayan etnik icma rəhbərlərinin imzaladığı bəyanat daxil olub. AZƏRTAC bəyanatın mətnini təqdim edir.*

Bu ilin 27 sentyabr tarixində Ermənistan növbəti hərbi təcavüzə əl ataraq, atəşkəs rejimini kobud şəkildə pozub, təmas xətti boyunca Azərbaycan Ordusunun mövqelərini, yaşayış məntəqələrini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə tutmuşdur. Azərbaycanın cavab həmlələri nəticəsində ciddi tələfat verən düşmən növbəti siyasi-ideoloji təxribata əl atır, Azərbaycan Respublikasının guya döyüş əməliyyatlarına müxtəlif xalqların nümayəndələrini zorla cəlb etməsi barədə çirkin məlumat yaymışdır.

Onu da yaxşı bilirik ki, Azərbaycanda yaşayan xalqlar arasında əsrlərboyu davam edən sarsılmaz dostluq və qardaşlıq münasibətləri, onların vahid və bölünməz vətən naminə həmrəyliyi özünün sərsəm iddiaları ilə monoetnik dövlətə çevrilən irqçi Ermənistanda həmişə qısqanclıq və qıcıq hissi ilə qarşılanır. Çünki Vətənimiz Azərbaycanın ən böyük sərvəti onun etnik müxtəlifliyi, burada yaşayan bütün xalqların tarixi birliyi və qardaşlığıdır. Münaqişənin əvvəllərində olduğu kimi, bu gün də Azərbaycan Milli Ordusunun sıralarında Azərbaycanda yaşayan xalqların yüzlərlə, minlərlə nümayəndələri - əsgər və zabitləri vardır. Odur ki, terrorçu Ermənistan və onun havadarları münaqişənin ilk dövrlərindən etibarən Azərbaycan xalqları arasında münasibətləri pozmağa, etnik, dini zəmində süni qarşıdurmalar yaratmağa çalışmış və bu istiqamətdə pozuculuq fəaliyyətini indi də davam etdirməkdədir. Lakin onların bütün çirkin və mənəviyyatsız oyunları həmişə olduğu kimi bu gün də uğursuzluqla nəticələnir. Ermənistanın dövlətimiz üçün əlavə gərginlik mənbələrinin yaradılmasına yönəldilmiş təxribat cəhdləri sıralarımızı daha da möhkəmləndirir, bizi bir-birimizə bağlayan qardaşlıq tellərini daha sarsılmaz edir. Ermənistanın özünü Azərbaycanda yaşayan xalqların “dostu və himayədarı” kimi təqdim etməsi isə riyakarlıqdan başqa bir şey deyildir.

Biz Ermənistanın növbəti çirkin böhtan kampaniyasını qətiyyətlə pisləyir və bir daha bəyan edirik: İşğalçı və marionet Ermənistan dərk etməlidir ki, Azərbaycanın bütün xalqları Vətənimizin ərazi bütövlüyünün bərpası, torpaqlarımızın düşməndən azad olunması, məcburi köçkünlərimizin öz ata-baba yurdlarına, Azərbaycanın tarixi torpaqlarına qayıtması uğrunda aparılan müqəddəs mübarizədən heç vaxt kənarda qalmamışdır.

Biz etnik və dini mənsubiyyətimizdən asılı olmayaraq, Azərbaycan əsgərlərinin döyüş bölgələrində uğurlarına sevinəndə, şəhidlərimizə göz yaşları tökəndə onların etnik mənsubiyyətini soruşmuruq. Biz ürəkdən inanırıq və əminik ki, tezliklə Azərbaycanın rəşadətli Ordusu üçrəngli bayrağımızı Şuşada, Xankəndidə dalğalandıracaq, şəhidlərimizin qisasını alacaq və mənfur düşmən üzərində böyük qələbə sorağı ilə bizi sevindirəcəklər. Azərbaycan əsgərlərinin isə hansı xalqa məxsus olmalarının, hansı dildə danışmalarının və hansı dinə tapınmalarının heç bir əhəmiyyəti yoxdur. Çünki Azərbaycan bizim doğma Vətənimiz, Azərbaycan Respublikası bizim də dövlətimizdir. Onun hər qarış torpağı Azərbaycan xalqları üçün müqəddəs və əzizdir. Qələbə bizimdir!

***Bəyanatı imzalayıblar:***

*İmamverdi Həmidov,*
*talış icmasının ağsaqqalı,*
*Əhmədə Həpo,*
*kürd icmasının ağsaqqalı,*
*İmran Rzayev,*
*“Samur” Ləzgi Milli Mərkəzi,*
*Məhəmməd Nooyev,*
*Azərbaycan-Avar İctimai Birliyinin sədri,*
*Mixail Zabelin,*
*Azərbaycanda Rus İcması,*
*Elman Əhmədov,*
*“Azəri” tat mədəniyyət mərkəzi ictimai birliyi,*
*Milix Yevdayev,*
*Bakı Dağ Yəhudiləri Dini İcması,*
*Robert Mobili,*
*Azərbaycan Respublikasının*
*Alban-Udi Xristian Dini İcması,*
*Aleksandr Şarovski,*
*Avropa Yəhudilərinin Bakı Dini İcması,*
*Rafiq Abdullayev,*
*“Buduq” Xeyriyyə Cəmiyyəti,*
*Gülcan Miəsautova,*
*“Tuqan tel” Tatar Mədəniyyəti Cəmiyyəti,*
*İsmayıl Rəhimov,*
*Azərbaycanda Yaşayan Axısxa*
*Türkləri “Vətən” İctimai Birliyi,*
*Şevinc Bulacova,*
*İngiloy İcması,*
*Rafael Qvaladze,*
*Azərbaycanda yaşayan Gürcü İcması.*

## Uğurlu əks-hücum əməliyyatı işğala son qoyacaq!

# “İlham Əliyevin ətrafında səfərbər olmuşuq”

## Siyasi partiyalar Ali Baş Komandana tam dəstək verirlər

*Ermənistanın növbəti hərbi təxribatının qarşısını alan Azərbaycan Ordusunun bütün cəbhə boyu əks əməliyyata başlaması ölkə ictimaiyyətinin dərin sevincinə səbəb olub. Çünki bu günü xalqımız səbirsizliklə gözləyirdi. Torpaqlarımızın azadlığı uğrunda vətən müharibəsinin başlanması həm də Azərbaycan xalqının həmrəyliyini, o cümlədən siyasi baxışlarından asılı olmayaraq, dövlətçilik və milli maraqları rəhbər tutan bütün partiyaların Azərbaycan Prezidentinin ətrafında sıx birləşdiyini göstərdi.*
*50 siyasi partiya sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına dair birgə bəyanat verib. Bu məsələ ilə bağlı siyasi partiya rəhbərlərinin fikirlərini öyrəndik.*
















### Düşmən layiqli cəzasını alır

**Əli ƏHMƏDOV,**
*Baş nazirin müavini, YAP Sədrinin müavini - İcra katibi:*

- Düşmən növbəti təxribatını törətdi. Azərbaycanın mülki əhalisi və yaşayış məntəqələri erməni yaraqlıları tərəfindən atəşə tutulur. Dünyada sülhün keşiyində duran və yardılmasının 75 illiyi qeyd edilən BMT-nin yubiley ilə bağlı Baş Assambleyasının keçirildiyi bir zamanda Ermənistan müharibə təxribatına əl atır. Bu, bütün dünyaya meydan oxumaq deməkdir. Bütün dünyada sülhə xəyanətdir. Rəşadətli Azərbaycan Ordusu, qəhrəman əsgərlərimiz düşmənə ağır və sarsıdıcı zərbələr endirir. Düşmənin başını əzmək, torpaqlarımızı azad etmək zamanıdır. İgidlərimiz bunu bacarır və edəcək. Qələbəni gözləyirik!

İşğal altında olan bir neçə kəndin düşməndən boşaldılması, vacib mövqelərin ələ keçirilməsi artıq təmin edilib. Bunlar çoxdan gözlədiyimiz qələbənin ilk müjdələridir.

Düşmən layiqli cəzasını alır. Xalq Ali Baş Komandana, qəhrəman Azərbaycan Ordusuna tam dəstəyini ifadə edir. Artıq Bakıda mülki avtomobillərdə Azərbaycan bayraqları dalğalanır. Bu həm artıq qazanılmış hərbi uğurların sevinci, həm Ordumuza dəstək, həm də daha böyük qələbəyə inam deməkdir. Qəhrəman Azərbaycan Ordusuna eşq olsun!”

### Ordumuzun zəfəri hər kəsi qürurlandırır

**Qüdrət HƏSƏNQULİYEV,**
*Milli Məclisin deputatı, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri:*

- İlk növbədə xalqımızı, Ali Baş Komandanı, zabit və əsgərlərimizi torpaqlarımızın işğaldan azad olunması istiqamətində əldə etdiyimiz qələbələr münasibətilə təbrik edirəm. Son aylar Azərbaycan diplomatiyası uğurla beynəlxalq ictimaiyyəti regionda baş verənlər, həmcinin Ermənistanın hücuma hazırlaşdığı və təxribatçı fəaliyyəti barədə məlumatlandırırdı. Azərbaycan Prezidentinin BMT Baş Məclisinin 75-ci sessiyasındakı çıxışı son dərəcə təsirli və əhəmiyyətli idi.

Birinci vitse-prezident Mehriban xanımın Qərb ölkələrində, Pakistanda apardığı uzunmüddətli humanitar iş bu gün öz müsbət nəticəsini göstərməkdədir. Bu istiqamətdə MM-in sədri Sahibə Qafarovanın Moskvaya səfərini, xüsusilə Rusiya Federasiya Şurasındakı çıxışını da çox yüksək qiymətləndirirəm. Onun Qarabağın tarixi və mövcud vəziyyət barədə rus senatorlarına ünvanlanan çıxışı erməni lobbisinin təsiri altında olan rus ictimaiyyəti üçün bir yenilik idi. Prezident Administrasiyasının və Xarici İşlər Nazirliyinin yeni rəhbərliyinin səylərini də qeyd etmək lazımdır. Məhz ayrı-ayrı ölkələrlə və beynəlxalq təşkilatlarla görülmüş işlərin nəticəsidir ki, dünya birliyinin Azərbaycanın öz torpaqlarını azad etmək istiqamətindəki fəaliyyətinə ilkin yanaşmasını pozitiv qiymətləndirmək olar.

Bizim üçün müstəsna əhəmiyyət kəsb edən böyük qonşularımızın münasibətinə gəldikdə isə, qardaş Türkiyənin reaksiyasının necə olacağı bəlli idi. Biz qardaş ölkənin cəsur və müdrik lideri Ərdoğana, Çavuşoğluna, Hulisi Akara, Mustafa Şentopa və bütövlükdə türk hökumətinə, qardaşlarımıza son dərəcə minnətdarıq. Biz qardaş Pakistan Respublikasına da tutduğu ədalətli və prinsipial mövqeyinə görə təşəkkür etməliyik. Yaxın qonşularımız və tarixi əlaqələrimiz olan Rusiya və İranın ilk bəyənatlarını müsbət qiymətləndiririk. Onlar işğalçı ölkəyə dəstək verməyəcəkləri təqdirdə qonşu Azərbaycan xalqının sevgi və ehtiramını qazanacaq, regionda öz mövqelərini gücləndirəcəklər. Qədirbilən xalqımız nə pislikləri, nə də ədalətin yanında olanları heç zaman yaddan çıxarmayacaq. Onların beynəlxalq hüququ müdafiə etməklə Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsinə mane olmaması hər iki ölkənin beynəlxalq nüfuzunu da artırmış olardı. Hazırda ordumuzun qarşısında duran əsas vəzifə ondan ibarət olmalıdır ki, qarşıya qoyulmuş vəzifəni qısa müddətdə yerinə yetirsin. Müharibə uzanarsa, ona müdaxilə edənlərin sayı da artacaq.

### Ali Baş Komandanın əmr və göstərişini yerinə yetirməyə hazırıq

**Fazil MUSTAFA,**
*Milli Məclisin deputatı, Böyük Quruluş Partiyasının sədri:*

- Bütün əmr, göstəriş və tapşırıqlarını yerinə yetirməyə tam hazırıq!

Böyük Quruluş Partiyası Ermənistanın işğalçı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatına başlaması barədə qərarını tam dəstəkləyir.

Partiya strukturlarında təmsil olunan hər bir üzvümüzün Ali Baş Komandanın Vətənin müdafiəsi uğrunda bütün əmr, göstəriş və tapşırıqlarını yerinə yetirməyə tam hazır olduğunu bəyan edirik.

### Bütün qüvvələr birləşməli, Ali Baş Komandanın qərarına tabe olmalıdır

**Razi NURULLAYEV,**
*Milli Məclisin deputatı, Milli Cəbhə Partiyasının sədri:*

- İşğalçı Ermənistanın növbəti hərbi təxribatı ilə üz-üzə qalmışıq. Bu dəfə isə düşmənə bütün cəbhəboyu kəskin cavab verilib və şanlı Ordumuz işğalda olan kəndlərimizi və bir sıra yüksəklikləri azad edib.

Düşmən yaşayış məntəqələrimizi atəşə tutur, dinc insanları hədəfə alır: Azərbaycan Ordusu isə ancaq hərbi hədəfləri vurur və beynəlxalq qanunlara əməl edir. Belə bir məqamda siyasi mövqeyindən, baxışlarından asılı olmayaraq bütün qüvvələr birləşməli, Ali Baş Komandanın qərarına tabe olmalıdır. Bu, Vətən, namus savaşıdır. Ortada Vətən savaşı varsa, başqa məsələlər kənara qoyulmalıdır. Biz Milli Cəbhə Partiyası olaraq, Prezident İlham Əliyevi dəstəkləyirik.

Bizim heç kimin torpağında gözümüz yoxdur. Torpağımıza təcavüz edilib. Lakin Azərbaycan 30 il qabaqkı dövlət deyil. Bizim güclü Ordumuz var. İşğalçı Ermənistan və onun hamiləri bilsin ki, qələbə bizim olacaq. Azərbaycan güclü dövlətdir. Ordumuz Cənubi Qafqazın ən güclü ordusudur. Belə bir məqamda dövlətin, Prezidentin və Silahlı Qüvvələrimizin yanında olmalıyıq. Ordumuz bizim dayağımızdır, ona güvənməliyik”.

### Dövlətimizin, ordumuzun gücünə güc qatmaq xalq olaraq əsas qayəmizdir

**Fərəc QULİYEV,**
*Milli Dirçəliş Hərəkatı Partiyasının sədri:*

- Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhəboyu əks-hücum əməliyyatına başlaması barədə qərar verilib. Təbii ki, bu vəziyyətdə hər bir təşkilatın və vətəndaşın əsas vəzifəsi dövlət ətrafında birləşmək və mərkəzi hakimiyyətin qərarlarına tabe olmaqdı.

Hazırkı vəziyyətlə bağlı xalqa səslənirik ki, düşmən hücumları və yaratdığı təxribatlar hakimiyyətə qarşı deyil, dövlətimizə və xalqımıza qarşıdır. Ona görə də dövlətimizin, ordumuzun gücünə güc qatmaq xalq olaraq əsas qayəmizdir. Bunun üçün isə mərkəzi hakimiyyətin addımları diqqətlə izlənilməli və maksimum dəstək nümayiş etdirilməlidir. Biz Milli Dirçəliş Hərəkatı Partiyası olaraq bütün üzvlərimizi dövlət ətrafında sıx birləşməyə çağırırıq.

Partiya sədri başda olmaqla, təşkilatın bütün üzvləri Ali Baş Komandanın əmrindədir və əsgər kimi ordu sıralarına qatılmağa hazırdır.

Təcrübədən bilməliyik ki, Ermənistanın Azərbaycana qarşı təcavüzündə maraqlı olan digər dövlətlərin ölkəmizdəki casusları təxribat xarakterli məlumatlar yaymaqda maraqlıdırlar. Ona görə də xalqı mərkəzləşmiş məlumat mənbələrindən yararlanmağa və təxribat xarakterli şayiələrə uymamağa çağırırıq. KİV-i isə xəbər qaydalarına və xəbər mədəniyyətinə riayət etməyə səsləyirik.

Aktiv müharibə vəziyyətindən “5-ci kolon”un siyasi nümayəndələrinin və ya mənfəətçilərin kiçik siyasi maraqlar naminə yararlanmaqları yolverilməzdir. Xalq olaraq cəbhədəki gərginlikdən siyasi qərarlar çıxarmağa çalışanlara qarşı olmalıyıq və bu cür halları təxribat kimi qiymətləndirməyi bacarmalıyıq.

Bütün sınaqlarda olduğu kimi, bu gün də bir dövlət və xalq kimi, birliyimiz müşahidə olunur ki, biz bunu qorumağı bacarmalıyıq və təxribatlara uymamalıyıq. Reallıq budur ki, bu gün cəbhədə gedən əməliyyatlar Azərbaycan Ordusunun nəzarətindədir. Təbii ki, kimdən hansı dəstəyi almasından asılı olmayaraq, çökmüş Ermənistanın qandan qorxan erməni əsgəri, anadan əsgər doğulan oğulların qüdrətli ordusunun qarşısında məğlub olmağa və qaçmağa məhkumdur! Biz MDHP olaraq ən qısa zamanda xalqımızı Böyük Qələbə Günü münasibəti ilə təbrik edəcəyimizə əminik!

### Ali Baş Komandanın yanındayıq

**Qulamhüseyn ƏLİBƏYLİ:**
*Aydınlar Partiyasının sədri:*

- Azərbaycan Ordusu işğalçı Ermənistanın növbəti təcavüz cəhdini uğurla dəf etdikdən sonar əks-hücuma keçib. İşğal olunmuş ərazilərimizin düşməndən təmizlənməsi əməliyyatına başlayan ordumuzla qürur duyuram.

Aydınlar Partiyası olaraq Azərbaycan torpaqlarının azad olunması uğrunda başlanmış savaşda dövlətimizin, Silahlı Qüvvələrimizin və onun Ali Baş Komandanının yanındayıq, bütün siyasi partiyaları, vətəndaş cəmiyyəti institutlarını, xalqımızı milli həmrəylik göstərərək düşmənə layiqli cavab verməyə çağırırıq.

Bütün partiya üzvlərinə və tərəfdaşlarımıza müraciət edərək Silahlı Qüvvələrimizi dəstəkləməyi, imkanları daxilində ümumi qələbəmizə kömək etməyi, könüllü kimi ordu sıralarına yazılmağı xahiş edirəm.

### Azərbaycan öz torpağı uğrunda mübarizəyə qalxıb

**Bədrəddin QULİYEV,**
*Cümhuriyyət Xalq Partiyasının sədri:*

- Son dövrlərdə işğalçı Ermənistanın istər cəbhənin təmas xəttinə, istərsə də dövlət sərhədinə ağır artilleriya, texnika, canlı qüvvə yerləşdirməsi bir daha onu göstərdi ki, onlar iyul hadisələrindən dərs götürməyiblər. Əksinə, sentyabrın 27-də səhər saatlarında ermənilər cəbhə xəttində geniş hərbi təxribata əl atıb, artilleriya atəşinə başlayıb, nəinki hərbi mövqeləri, eyni zamanda, mülki əhalini hədəfə aldılar. Lakin Azərbaycan Ordusu bunun cavabını verərək, əks-həmlələr etdi. Rəsmi məlumatlarda bildirilir ki, döyüş vəziyyəti Azərbaycan Ordusunun tam nəzarətindədir və artıq bir sıra kəndlər, həmçinin yüksəkliklər düşmən işğalından azad edilib.

Azərbaycan dövləti qətiyyətli şəkildə öz torpaqlarının müdafiəsini təmin edir və Azərbaycan Prezidenti, Ali Baş Komandanımız xalqa müraciətində bir daha bildirdi ki, Qarabağ Azərbaycandır!

Cümhuriyyət Xalq Partiyası adından, şəxsən öz adımdan bütün siyasi qüvvələri Ali Baş Komandanın ətrafında birləşməyə çağırıram. Bu gün Azərbaycan xalqının öz torpaqları uğrunda mübarizəyə qalxdığı, qələbə ruhunun Azərbaycana gəldiyi bir gündür. Məhz bu gün naminə bütün qüvvələr birgə olmalıdır. Hər birimiz Vətən üçün, dövlət üçün, bayraq üçün canımızdan belə keçməyə hazır olmalı, Ali Baş Komandanımızın əmrini müsəllah əsgər kimi yerinə yetirməliyik.

Bu gün Azərbaycanda daxili milli birlik formalaşdırılıb. Bütün bunlar, eyni zamanda, siyasi dialoqun verdiyi nəticədir. İnanıram ki, ölkəmizin taleyüklü məsələləri ilə bağlı birliyimiz davamlı olacaq və biz işğal altındakı torpaqlarımızı azad etdikdən sonra daha yüksək inkişafa nail olacağıq.

### Gözlənilən an yetişib

**Əsli KAZIMOVA,**
*Azərbaycan Sosial Rifah Partiyasının sədr müavini:*

- Bu gün çoxdandır gözlənilən an gəlib yetişib və artıq şəhidlərimizin qanı yerdə qalmayacaq. Qarabağ həsrəti ilə analarımız, atalarımız həyatdan köçməyəcək. Artıq mənim xalqımın nümayəndələri qaçqın və məcburi köçkün adını daşımayacaq!

30 illik işğala son qoyacaq bir cəsarətə, siyasi iradəyə sahib dövlət başçımız illərdir ikili standartlara xidmət edən beynəlxalq təşkilatları qınayaraq, ədalətsizliyə son qoymağa səslədi. Biz də, bu mövqeyə dəstək verməliyik. Torpaqlarımıza sahib çıxmalıyıq. Azərbaycan xalqı cənab Prezident İlham Əliyevin qətiyyətli duruşu və siyasi iradəsi ilə ruhlanmalıdır. Bu gün xalqımın hər bir fərdini Heydər Əliyevin dillərə dastan olan həmrəylik şüarı ilə, İlham Əliyevin qətiyyətli duruşu və siyasi iradəsi qarşısında birlik və həmrəy olmağa çağırıram.

Tovuz hadisələrindən sonra düşmən tərəfindən yeni bir təxribat qəbuledilməzdir. Ermənilərin bu addımı Ermənistanın regionda sülhün qarşısında ən böyük təhdid olduğunu bir daha sübuta yetirdi. Azərbaycan Prezidentinin siyasi iradəsi sayəsində sadəcə torpaqlarımızı düşməndən azad etmək deyil, eyni zamanda, Regionda sülhün və ədalətin brəqarar olmasına da nail olacağıq!”

### Tarixi ədalət, beynəlxalq hüquq bizim tərəfimizdədir

**Mais SƏFƏRLİ,**
*Yurddaş Partiyasının sədri:*

- Düşmənin hücumunun qarşısını almaq üçün, Vətənimizin, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusu bütün cəbhəboyu əks-hücuma keçib. Cəbhənin ən gərgin bölgələrində - Tərtər, Ağdam, Füzuli, Cəbrayıl istiqamətində yerləşən ön xətdəki hərbi hissələrimiz, raket və artilleriya bölmələrimiz, hərbi aviasiyamız, zirehli texnikamız və digər qoşun birləşmələrimizin qarşılıqlı fəaliyyəti ilə Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr vurulub.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətində deyildiyi kimi, bizim işimiz haqq işidir. Tarixi ədalət, beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün məsuliyyət Ermənistan rəhbərliyinin üzərinə düşür. Yurddaş partiyası Ali Baş Komandanın, şanlı Ordumuzun yanındadır. Partiyamızın minlərlə üzvü silaha sarılaraq əsgərlərimizin sıralarına qoşulmağa hazırdır. Əmr gözləyirlər!

Partiyamız bütün xalqımızı, vətəndaşlarımızı, siyasi təşkilatları, vətəndaş cəmiyyəti institutlarını milli birliyə çağırır. Möhkəm birliyi olan xalqa, dövlətə heç kim qalib gələ bilməz! Səbirsizliklə gözlədiyimiz Vətən müharibəsi artıq başlayıb. Hər birimiz qələbə naminə çalışmalı, qələbə üçün əlimizdən gələni etməliyik!

Biz meydanda tək deyilik. Qardaş Türkiyə, böyük türk dünyası, Pakistan, Ukrayna bizim yanımızdadır. Zəfər yaxındadır! Allah Azərbaycan əsgərini, Azərbaycanımızı qorusun!

### Azərbaycan haqq məsələsini müdafiə edir

**Yunus OĞUZ,**
*Milli Vəhdət Partiyasının sədri:*

- İndi ölkənin, dövlətin çox həssas məqamıdır. İndi siyasi, mənəvi və əqidə mövqeyi yalnız dövlətin və onun rəhbəri, Ali Baş Komandan İlham Əliyevin istiqamətə yönəlməli, siyasi mənsubiyyətindən asılı olmayaraq hamı onun ətrafında birləşməlidir. Həm partiya rəhbəri, həm media kapitanı, həm də sıravi vətəndaş kimi Ali Baş Komandanın əmrinə hazıram. Biz birlikdə güclüyük!

Bu gün Azərbaycan haqq məsələsini müdafiə edir. Çünki bütün dünya dövlətləri Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar. Hesab edirəm ki, bu həmçinin antiterror əməliyyatı da adlandırıla bilər. Çünki Dağlıq Qarabağa Livandan və Suriyadan terrorçu qruplar gətirilib.

Ordumuz bu əks-hücum nəticəsində bir sıra kəndlərimizi işğaldan azad edib. Təbii ki, bu məqam bizim ordumuzun gücünü göstərir. Digər tərəfdən Ermənistanın baş naziri Nikol Paşinyan ölkədə hərbi vəziyyət elan edib və əhali ümumi səfərbərliyə alınıb. Bu onu göstərir ki, Azərbaycan Ordusu səfərbərlik elan edilmədən Ermənistan ordusu ilə döyüşməyə hazırdır və bunun öhdəsindən layiqincə gəlir. Faktiki olaraq müharibə gedir. Bu isə Azərbaycan Ordusunun yüksək səviyyəli döyüş hazırlığından, qətiyyətindən və görəcəyi işlərdən xəbər verir.

Azərbaycan xalqı torpaqlarımızın işğaldan azad edilməsini arzulayır və bunun üçün də hamımız bir yerdə olmalıyıq. Əlbəttə ki, hər şey vətən üçün, hər şey cəbhə üçün olmalıdır. Bu məsələdə hər kəs cənab Prezident və Ali Baş Komandan İlham Əliyevin, Azərbaycan Ordusunun və dövlətimizin ətrafında birləşməlidir. Bu zaman Azərbaycan əsgərlərinin gözü arxada qalmayacaq və qətiyyətlə irəli gedəcəyik.

### Ordumuzun qalibiyyət əzminə, dövlətimizin gücünə inanırıq

**Əlisahib HÜSEYNOV,**
*Milli Həmrəylik Partiyasının sədri:*

- Düşmən öz xain xislətinə sadiq qalaraq Azərbaycana qarşı elan olunmamış müharibəyə başlayıb. Ermənistan silahlı qüvvələrinin cəbhəyanı ərazilərdə sıx şəkildə yaşayan mülki insanları və ictimai obyektləri atəşə tutması qəsdən və planlı şəkildə həyata keçirilib. Bu, cəbhəyanı ərazilərimizin sakinlərində qorxu hissinin və çaşqınlığın yaranmasına hesablanmış bir addım idi.

Lakin Azərbaycan Ordusu düşmənin bütün təxribatlarının və xaincəsinə hücumlarının qarşısını alaraq və əks-həmlə tədbirləri həyata keçirdi və bu gün də proses davam edir. Biz Ordumuzun qalibiyyət əzminə, dövlətimizin gücünə inanırıq!

Ali Baş Komandanımız İlham Əliyevin də bəyan etdiyi kimi, “Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur. Ermənistan əsgərinin bizim torpaqda nə işi var?! Bu işğala son qoyulmalıdır və qoyulacaq! Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq!”

Milli Həmrəylik Partiyası olaraq bütün siyasi qüvvələri birliyə, həmrəy olmağa dəvət edir, hər kəsi Ali Baş Komandanın və ordumuzun yanında olmağa çağırırıq. Bu gün siyasi əqidə fərqlərinin bir kənara qoyulduğu, xalq-dövlət və xalq-ordu vəhdətinin nümayiş etdirilməli olduğu bir məqamdır.

Bütün hallarda düşmən məğlubiyyətə məhkumdur. Ermənistanı nə hərbi vəziyyət və ümumi səfərbərliyin elan edilməsi, nə də ki, xarici ölkələrdən gətirilən muzdluların, terrorçuların təpədən-dırnağa qədər silahlanması xilas edə bilməz. Ermənistan öz cəzasını alacaqdır. Biz Azərbaycan Ordusunun bu müharibəni zəfərlə başa vuracağına inanırıq. Çünki Ordumuz haqq işi uğrunda, Vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda döyüşür.

Hamımız bir nəfər kimi Qələbəyə köklənmişik!

### Ordumuz xalqımızı növbəti zəfərləri ilə sevindirməkdə davam edəcək

**Sübut ƏSƏDOV,**
*Azərbaycan Respublikaçılar Partiyasının sədri:*

- Ermənistan silahlı birləşmələri Azərbaycana qarşı yenidən təxribata əl atdılar və yenə də mülki vətəndaşlarımız həlak oldular. Azərbaycan Ordusu buna cavab olaraq düşmənə ağır zərbələr vurub onu geri oturtdu. Üstəlik torpaqlarımızın bir hissəsini də düşməndən azad etdi.

Bu, hər şeydən əvvəl Prezident, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsidir. Əldə edilən ilkin qələbə münasibətilə Ali Baş Komandanı, Ordumuzu və xalqımızı partiyamız adından təbrik edirəm. Bəli, bu gün bütün xalqımız, həmçinin qeyri-hökumət təşkilatları işğal altında olan ərazilərimizin bir hissəsini düşməndən azad edən ordumuzun şücaətindən qürur duyur. Azərbaycan Respublikaçılar Partiyasının çoxminli üzvləri Prezident İlham Əliyevin göstərişi ilə həyata keçirilən əməliyyatı yüksək dəyərləndirir.

Partiyamızın üzvləri yaşlarından asılı olmayaraq cəbhəyə getməyə və hər birimiz Vətənimizin şərəfi və namusu yolunda onun istənilən tapşırığını hər an yerinə yetirməyə, torpaqlarımızın işğaldan azad olunması uğrunda vuruşmağa hazırdır.

Şübhəsiz, Azərbaycan Ordusu xalqımızı növbəti zəfərləri ilə də sevindirməkdə davam edəcək. İşğal altındakı torpaqlarımız tezliklə azad ediləcək və qələbə bayrağımız Lələtəpədə olduğu kimi, Şuşada, Xankəndidə dalğalanacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

### İki canda bir ürək

# “AZƏRBAYCANIMIZ”

## Türkiyə iqtidarı, müxalifəti və mediası haqq savaşında ölkəmizin yanındadır



































































*Tarixin sınaqlarından daim üzüağ çıxmış Azərbaycan-Türkiyə münasibətləri ötən dövr ərzində daha da möhkəmlənərək iki ölkə arasında strateji bağların yeni səviyyəyə yüksəlməsini təmin edib. Müasir dünya reallığında hər iki ölkənin ətrafda gedən proseslərə vahid prizmadan yanaşmaları, xüsusən ərazi bütövlüyü kimi həssas məsələlərdə bir-birlərinin maraqlarını müdafiə etmələri mühüm əhəmiyyət kəsb edir.*

*Bu günlərdə təmas xəttində erməni təxribatı nəticəsində baş verən hərbi əməliyyatlar qardaş ölkənin diqqət mərkəzində yer alıb. Haqq savaşında Azərbaycan qarşısında Ermənistanın böyük uğursuzluğa düçar olacağını bildirən Türkiyə iqtidarı və müxalifət nümayəndələri sosial şəbəkələrdə paylaşımlar edib, onlarca teleşirkət, yüzlərlə qəzet və internet portalı xəbərlər yerləşdirib.*

### Türkiyə iqtidari Azərbaycanın yanında olduğunu bəyan edib

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sosial şəbəkələrdəki səhifəsində etdiyi paylaşımda bildirib ki, Azərbaycana qarşı yeni hücumlar edən Ermənistan bölgədə sülhün və sabitliyin qarşısında ən böyük təhlükə olduğunu bir daha göstərdi. Türk milləti hər zaman olduğu kimi, bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanındadır.

Türkiyə Parlamentinin sədri Mustafa Şentop “Twitter” sosial şəbəkəsində paylaşımında qeyd edib ki, mülki vətəndaşlara qarşı son hücumlar göstərir ki, Ermənistan, sadəcə, Azərbaycana qarşı bir təhdid deyil, bütün bölgədə sülh baxımından düzəlməyəcək bir terror dövlətidir və baş verəcəklərə görə yalnız o məsuliyyət daşıyır. Türkiyə bütün gücü ilə Azərbaycanın yanında olmağa davam edəcək.

Türkiyə Prezidentinin müşaviri İbrahim Kalın təcavüzkar Ermənistanın hərbi təxribatları əsasında yaranmış gərgin vəziyyətlə bağlı sosial şəbəkədəki paylaşımında yazıb ki, Türkiyə bu hücumlara qarşı Azərbaycanın yanındadır. Hücum nəticəsində həyatını itirən qardaşlarımıza Allahdan rəhmət diləyirik. Azərbaycan tək deyil. Türkiyənin tam dəstəyinə sahibdir.

Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu da sosial şəbəkə hesablarında etdiyi paylaşımda yazır ki, Ermənistan yenə də həddini aşıb. Bu dəfə cavabını meydanda alır. Meydanda və masa arxasında Can Azərbaycanla birlikdəyik.

Türkiyənin Maliyyə naziri Berat Albayrak “Twitter” hesabındakı paylaşımla Ermənistanın Azərbaycana hücumlarını şiddətlə pisləyib: “Bölgədə barışdan uzaq hər cür addımın qarşısında, Can Azərbaycanın yanındayıq. Hücum nəticəsində həyatını itirən qardaşlarıma Allahdan rəhmət, yaralılara şəfa diləyirəm”.

Türkiyə Respublikasının Gənclik və İdman naziri Mehmet Muharrem Kasapoğlu sosial şəbəkədəki paylaşımında bildirib ki, Ermənistanın Azərbaycan torpaqlarına qarşı hüquqazidd və təxribat xarakterli hücumlarını şiddətlə qınayır, həyatını itirən qardaşlarımıza Allahdan rəhmət diləyirəm. Can Azərbaycanımızın yanındayıq!

Qardaş ölkənin səhiyyə naziri Fahrettin Koca təcavüzkar Ermənistanın hərbi təxribatları nəticəsində yaranmış gərgin vəziyyətlə bağlı sosial şəbəkədəki paylaşımında yazıb: “Ermənistan Azərbaycana xaincəsinə hücum etdi. Ağır bombardmanlar nəticəsində dinc əhali arasında çox sayda yaralı və həlak olanlar var. Dövlətçilik ləyaqəti və insan dəyərlərinə uyğun olmayan bu hücumu qınayırıq. Qanuni cavab üçün tədbir görən qardaş Azərbaycanın yanındayıq”.

### Türkiyə müxalifəti Ermənistanın işğalçılıq siyasətini pisləyir

Türkiyədə Cümhuriyyət Xalq Partiyasının sədri Kamal Kılıçdaroğlu sosial media hesabındakı paylaşımında yazıb ki, Ermənistan tərəfindən beynəlxalq hüquqa zidd olaraq pozulan atəşkəs rejimini və mülki vətəndaşların ölümünə səbəb olan hücumları qınayırıq. Şəhid olan azərbaycanlı qardaşlarımıza Allahdan rəhmət diləyirik.

Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Baxçalı deyib ki, yeganə məqsədi türklərə qarşı düşmənçilik olan Ermənistan və onun muzdlu silahdaşlarının türk milləti qarşısında dayanma ehtimalı yoxdur: “Qarabağ türkündür, türk vətənidir. Heç kim bu möhkəm və müstəsna həqiqəti dəyişdirə bilməyəcək. Yeganə məqsədi türklərə qarşı düşmənçilik olan Ermənistan və onun muzdlu silahdaşlarının türk millətinin qarşısında dayanma ehtimalı yoxdur. Qanımızla, canımızla, varlığımızla Azərbaycanın yanındayıq”.

Türkiyənin İYİ Partiyanın sədri Meral Akşener sosial şəbəkələrdə paylaşımında Ermənistanın Azərbaycana qarşı hücumlarının qəbuledilməz olduğunu bildirib. Qeyd edib ki, Türkiyə hakimiyyətini, beynəlxalq ictimaiyyəti və Minsk qrupunu erməni işğalının aradan qaldırılması və problemin həlli üçün təcili addım atmağa çağırıram. Hər zaman olduğu kimi haqlı davasında can Azərbaycanımızın yanındayıq.

Türkiyənin “Gələcək” partiyasının sədri Əhməd Davudoğlu Azərbaycan ordusunun işğal olunmuş ərazilərin azad edilməsi əməliyyatını dəstəkləyən bəyanat verib. Qeyd edib ki, Azərbaycan yalnız deyildir və Qarabağ mütləq şəkildə azad olacaqdır! Ermənistanın Azərbaycana qarşı hücumunu şiddətlə qınayıram: “Şəhidlərimizə Allahdan rəhmət, yaralıların tezliklə sağalmalarını arzulayıram. Dəyərli qardaşım Prezident İlham Əliyev və Can Azərbaycanın yanındayıq”.

Türkiyənin Böyük Qurtuluş Partiyasının rəhbəri Mustafa Destici deyib ki, Ermənistanın hücumları davam edərsə, Türkiyə Böyük Millət Məclisi (TBMM) bu ölkəyə qarşı Azərbaycanla birgə döyüşmək üçün qoşun göndərməsi barədə qərar qəbul etməlidir. Məsələ müzakirəyə çıxarılmalı, türk hərbçiləri Azərbaycana getməli və ermənilərə həddini bildirməlidirlər.

Türkiyənin “Səadət” partiyasından olan deputat Əbdülqədir Karaduman deyib ki, zülmə qarşı qardaşlarımızın yanındayıq: “Ermənistanın Azərbaycanın mülki yaşayış məntəqələrinə atəş açmasını pisləyirəm. Azərbaycanın mülki şəxslərindən həyatını itirənlərə Allahdan rəhmət, yaralılara şəfa diləyirəm”.

### Türkiyə KİV: “Tək ürək, qardaşa tam dəstək”

“Sabah” qəzeti “İşğalçı Ermənistana Azərbaycan şilləsi” başlıqlı xəbərində yazır ki, Azərbaycana qarşı yeni hücumlar edən Ermənistan bölgədə sülhün və sabitliyin qarşısında ən böyük təhlükə olduğunu bir daha göstərdi. Türk milləti hər zaman olduğu kimi, bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanındadı.

“Milliyət” qəzeti “Türk milləti yanınızdadır” başlıqlı xəbərində yazır ki, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür. Bildirilir ki, beynəlxalq miqyasda Ermənistanın işğal siyasəti davamlı olaraq pislənir, onun təcavüzkarlığına qarşı çıxanların sayı artır. Bununla bağlı müxtəlif beynəlxalq qurumlar tərəfindən çoxsaylı qərarlar, qətnamələr, eləcə də digər sənədlər qəbul edilib.

“Hürriyət” qəzeti “Qarabağ atəşi” başlıqlı xəbərini manşetdən verib. Qeyd olunur ki, Azərbaycan Ordusunun əkshücum əməliyyatı nəticəsində düşmənin ön xətti yarılıb, 7 kənd işğaldan azad olunub. Qeyd olunub ki, BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələrin tələbləri hələ də yerinə yetirilməyib.

“Milat” qəzeti “Azərbaycanımız” başlıqlı xəbəri manşetdən verib. Azərbaycan Ordusu tərəfindən 7 kəndin işğaldan azad olunduğunun xüsusi vurğulandığı məqalədə bildirilir ki, beynəlxalq miqyasda Ermənistanın işğal siyasəti davamlı olaraq pislənir, onun təcavüzkarlığına qarşı çıxanların sayı artır. Bununla bağlı müxtəlif beynəlxalq qurumlar tərəfindən çoxsaylı qərarlar, qətnamələr, eləcə də digər sənədlər qəbul edilib.

“Karar” qəzeti “Türkiyə tək ürək, qardaşa tam dəstək” başlıqlı xəbəri manşetdən verib. Qeyd olunur ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti davam edir və bu siyasət Ermənistanın faşist mahiyyətini bütün dünyaya göstərir. Azərbaycan Ordusu hərbi təxribata cavab olaraq, əks-hücum əməliyyatı nəticəsində 7 kəndi işğaldan azad edib.

“Yeni akıt” qəzetinin “Qardaşımızın yanındayıq” başlıqlı xəbərində yazılır ki, işğalçı Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı Türkiyədə diqqət mərkəzindədir. Prezident İlham Əliyevin “Azərbaycan xalqı öz torpağında yaşamaq istəyir. Azərbaycan vətəndaşı Vətən həsrəti ilə yaşayır” fikrinin yer aldığı məqalədə vurğulanır ki, ermənilər tərəfindən, Ermənistan rəhbərliyi tərəfindən öz dədə-baba torpaqlarından zorla didərgin salınmış insanlar öz doğma ocaqlarına qayıtmaq istəyirlər.

“Akşam” qəzetinin “Azərbaycanın yanındayıq” başlıqlı xəbərində Azərbaycanın haqq yolunda Türkiyə də yanındadır. Azərbaycan işğal edilmiş torpaqları işğalçılardan azad edəcək.

Türkiyənin “TRTHaber” kanalı “İlham Əliyev: Şəhitlərimizin qanı yerdə qalmayacaq” başlıqlı xəbərində bildirir ki, Azərbaycan Prezidentinin idarəçiliyi dönəmində daha da güclənən Azərbaycan buna paralel olaraq Ermənistanı olduqca zəif bir dövlətə çevirməyi, dünya erməniliyinə isə böyük zərbələr vurmağı bacarıb. Xəbərdə Prezident İlham Əliyevin “Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür” fikirləri daha çox ön plana çıxarılaraq Ermənistanın məkrli siyasətinin növbəti dəfə iflasa uğrayacağı qeyd olunub.

“NTV” kanalı da tamaşaçılara Prezident İlham Əliyevin “Qarabağ Azərbaycandır”, bu, həqiqətdir” başlıqlı xəbər təqdim edib. Qeyd olunur ki, Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir.

Türkiyənin “Haber Global”, “TGRT Haber”, “Ahaber”, “Habertürk” kanalları, “Türkiye” və digər qəzetlər “İlham Əliyev: Şəhitlərimizin qanı yerdə qalmayacaq”, “Qarabağ, Azərbaycandır!”, “İlham Əliyev: Bu gün regionda təhlükə mənbəyi Ermənistandır və onun çirkin siyasətidir” və s. başlıqlı xəbərlərlə Azərbaycan Prezidentinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikir və mülahizələri türkdilli oxuculara çatdırılıb.

Həmçinin KİV Prezident İlham Əliyevin sadaladığı təcavüzkar Ermənistanın işğalçılıq siyasətini ifşa edən digər faktlardan - Azərbaycan ərazisinin iyirmi faizinin işğalda saxlanılması, bir milyondan çox azərbaycanlının öz yurdundan didərgin düşməsi və s. bəhs edib.

***Elçin CƏFƏROV, “Azərbaycan”***

# Beynəlxalq ictimaiyyət Azərbaycanın haqlı mübarizəsini müdafiə edir

*Rəcəb Tayyib Ərdoğan:*

## "Türkiyə azərbaycanlı qardaşları ilə həmrəyliyini gücləndirməyi davam etdirəcək"

Bugünkü telefon danışığı zamanı bacarıq və qətiyyətinə bir daha şahid olduğum Azərbaycan Prezidenti, qardaşım İlham Əliyevə də bildirdiyim kimi, Türkiyə "bir millət, iki dövlət" anlayışı ilə azərbaycanlı qardaşları ilə həmrəyliyini gücləndirməyi davam etdirəcək.

Bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sosial şəbəkələrdəki səhifəsində etdiyi paylaşımda bildirib.

Türkiyə Prezidenti qeyd edir ki, Azərbaycana qarşı yeni hücumlar edən Ermənistan bölgədə sülhün və sabitliyin qarşısında ən böyük təhlükə olduğunu bir daha göstərdi. Türk milləti hər zaman olduğu kimi, bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanındadır. Erməni xalqını onları fəlakətə aparan hakimiyyətinə və onları oyuncaq kimi istifadə edənlərə qarşı gələcəklərinə sahib çıxmağa dəvət edirik. Bütün dünyanı işğala qarşı apardığı mübarizədə Azərbaycanın yanında olmağa çağırırıq.

*Türkiyə parlamentinin sədri:*

## "Ermənistan bölgədə sülhə təhlükə yaradan islaholunmaz terror dövlətidir"

Mülki əhalinin hədəfə alınması göstərir ki, Ermənistan təkcə Azərbaycan üçün təhdid deyil, bölgədə sülhə təhlükə yaradan islaholunmaz bir terror dövlətidir. Bu təxribatlara görə ancaq Ermənistan məsuliyyət daşıyır.

Bunu Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop Ermənistanın cəbhə xəttində törətdiyi genişmiqyaslı təxribatlarla bağlı açıqlamasında deyib.

Mustafa Şentop bildirib ki, Türkiyə bütün gücü ilə Azərbaycanın yanında olmaqda davam edəcək.

*Mövlud Çavuşoğlu:*

## "Meydanda və masa arxasında Can Azərbaycanla birlikdəyik"

"Ermənistan yenə də həddini aşıb. Bu dəfə cavabını meydanda alır. Meydanda və masa arxasında Can Azərbaycanla birlikdəyik".

Bu sözlər Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlunun sosial şəbəkə hesablarında etdiyi paylaşımda yer alıb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Azərbaycan Prezidenti İlham Əliyev arasında telefon danışığı olduğunu xatırladan nazir əlavə edib: "Mən də Azərbaycanın Xarici İşlər naziri, qardaşım Ceyhun Bayramov və Rusiya Xarici İşlər naziri Sergey Lavrov ilə danışdım. ATƏT-in Minsk qrupunun həmsədrləri ilə təmaslarımız davam edir".

*Hulusi Akar:*

## "Ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə sona qədər azərbaycanlı qardaşlarımızın yanındayıq"

"Ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə sona qədər azərbaycanlı qardaşlarımızın yanında olacağıq. Ermənistanın xain hücumlarını qınayırıq".

Bunu Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar Ermənistanın cəbhə xəttində törətdiyi genişmiqyaslı təxribatlarla bağlı açıqlamasında deyib.

Hulusi Akar bildirib ki, Qafqazda sülhə və sabitliyə ən böyük təhdid Ermənistanın təcavüzkar mövqeyidir. Bölgədə ciddi təhlükə yaradan bu təcavüzkarlığın qarşısı dərhal alınmalıdır.

*İbrahim Kalın:*

## "Dünya ictimaiyyəti Ermənistandan bu təxribatları dərhal dayandırmağı tələb etməlidir"

"Ermənistanın Azərbaycana hücumlarını kəskin şəkildə qınayırıq. Ermənistan mülki yaşayış yerlərinə hücumlar edərək atəşkəsi pozmuş, sülh və sabitliyə qarşı olduğunu bir daha göstərmişdir. Beynəlxalq ictimaiyyət bu təhlükəli təxribatın dərhal dayandırılmasını tələb etməlidir".

Bu ifadələr Türkiyə Prezidentinin müşaviri İbrahim Kalın təcavüzkar Ermənistanın hərbi təxribatları əsasında yaranmış gərgin vəziyyətlə bağlı sosial şəbəkədəki paylaşımında əksini tapıb. Dövlət müşaviri yazır: "Türkiyə bu hücumlara qarşı Azərbaycanın yanındadır. Hücum nəticəsində həyatını itirən qardaşlarımıza Allahdan rəhmət diləyirik. Azərbaycan tək deyil. Türkiyənin tam dəstəyinə sahibdir".

*Fahrettin Altun:*

## "Dünya ölkələrini bu işğala və hücumlara qarşı Azərbaycanla həmrəy olmağa çağırırıq"

"Ermənistanın təcavüzkarlığını qətiyyətlə qınayır, dünyanın bütün ölkələrini bu işğala və hücumlara qarşı Azərbaycanla həmrəy olmağa çağırırıq".

Bu fikirləri Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə əlaqələr idarəsinin rəhbəri Fahrettin Altun rəsmi "Twitter" hesabında ifadə edib.

Paylaşımında "Azərbaycandakı qardaşlarımızla hər zaman çiyin-çiyinə olacağıq", -deyən F.Altun Ermənistanın təcavüz etməzdən əvvəl bunu nəzərə almalı olduğunu, müharibə və qeyri-sabitliyin bölgəyə fayda verməyəcəyini vurğulayıb.

F.Altun bildirib: "Beynəlxalq ictimaiyyət erməni təxribatını görməzdən gəlir. On illərdir ki, heç bir şey etmədən, hətta qeyri-qanuni işğala ortaq olmaqla erməni tərəfini cəsarətləndirdilər. İndiki münaqişə vəziyyətin davamlı olmadığının sübutudur. Ermənistan Azərbaycan ərazisində işğalçı mövqeyindədir. On illərdir ki, onlar nəinki Dağlıq Qarabağı işğal etdilər, hətta Azərbaycana qarşı davamlı təxribatlara cəhd göstərdilər. Bu gün etdikləri hücum bir daha təhlükəli vəziyyət yaratdı. Ermənistanın təcavüzkarlığını qətiyyətlə qınayır, dünyanın bütün ağlı kəsən ölkələrini bu işğala və hücumlara qarşı Azərbaycanla həmrəy olmağa çağırırıq.

Türkiyə və Azərbaycan iki dövlət, bir millətdir. Bunun üçün tələb olunan nədirsə onu edirik".

*Şamil Ayrım:*

## "Bu gün biz bir daha qarşımızda güclü Azərbaycan görürük"

"Ermənilər tərəfindən dinc əhaliyə qarşı törədilən hücumlar beynəlxalq hüquqa və insanlığa ziddir. Beynəlxalq ictimaiyyət bir an əvvəl buna qarşı gəlməlidir. Hazırkı vəziyyət Ermənistanın dinc əhaliyə ilk hücumu deyil. Bu vəziyyət bir neçə aydır davam edir. Lakin təxribatçı ermənilər Azərbaycan Ordusunun gücünün və iradəsinin otuz il əvvəlki kimi olmadığını hesablamadılar. Hazırda Azərbaycan çox güclü və qüdrətli bir orduya sahibdir və Azərbaycan xalqı birlik və bərabərliklə güclü liderinin arxasındadır. Bu gün biz bir daha qarşımızda güclü Azərbaycan görürük. Edilən rəsmi açıqlamalarda da bu açıq və aydın şəkildə görünür ki, Türkiyə hər şəraitdə və bütün imkanları ilə hər zaman olduğu kimi, bu gün də qardaş Azərbaycanın yanındadır".

Bu sözləri Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım bildirib.

O deyib: "Nikol Paşinyan hakimiyyətə gəldiyi zaman həm xalqın rifahını düzəldəcəyi, həm də beynəlxalq səviyyədə Qarabağ probleminin sülh yolu ilə həllinə nail olacağına dair söz vermişdi. Təəssüf ki, hazırkı vəziyyətə baxdıqda əvvəlcə martın 31-də pandemiya dövründə dünya ictimaiyyətinin buna qarşı olmasına baxmayaraq, Qarabağda seçkilər, sonra isə seçilmiş "prezident"ə Şuşada andiçmə mərasimi keçirildi. Bununla ermənilər yaratdıqları qondarma dövləti dünyaya göstərmək istədilər. Sonradan Ermənistan Azərbaycanın Tovuz bölgəsinə hücumlar etdi. Bu hücumlar Türkiyə başda olmaqla demək olar ki, bütün dünyanın sərt reaksiyasına səbəb oldu. Ermənistan törətdiyi təxribatlarla yanaşı bölgədəki demoqrafik vəziyyəti də dəyişməyə, Suriyadan, Livandan və başqa bölgələrdən olan erməni əsilli bütün terrorçuları Azərbaycanın işğal edilmiş bölgələrinə yığmağa çalışır. Buna göz yummaq və ya səssiz qalmaq mümkün deyil.

Bir daha beynəlxalq ictimaiyyətə müraciət edərək, Ermənistanın beynəlxalq hüququ və normalarına, işğal olunmuş Azərbaycan torpaqlarını boşaltmasına dair əldə edilmiş qərarlara riayət etməsi üçün birləşmələrini gözləyirik. Dağlıq Qarabağ probleminin sülh yolu ilə çözülməsi eyni zamanda bölgədə sülhün və sabitliyin təminatıdır".

## Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri və üzvləri Ermənistanın hərbi təxribatlarını pisləyən bəyanat yayıblar

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri və üzvləri Ermənistanın törətdiyi son hərbi təxribatları pisləyən bəyanat yayıblar.

Bəyanatda bütün dünyanın diqqətini BMT Baş Assambleyasının 75-ci ildönümünə yönəltdiyi bir vaxtda Azərbaycan və Ermənistan arasında səhər saatlarında baş verən toqquşmalarla bağlı xəbərlə sarsıldığı bildirilir.

Qeyd edilir ki, BMT Baş katibinin bir çox dünya liderlərinin də dəstəklədiyi, beynəlxalq hüququn prinsiplərindən irəli gələn çoxtərəfli dünya nizamına bir daha çağırış etdiyi zamanda biz də Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı artilleriya hücumlarını şiddətli şəkildə qınayırıq. 1994-cü ildə elan olunmuş atəşkəs birinci dəfə deyil ki, pozulur və sıravi vətəndaşlar da xəsarət alır. Dünya ictimaiyyətinə xatırladılmalıdır ki, Ermənistan Respublikası BMT Təhlükəsizlik Şurasının Azərbaycan Respublikasının işğal edilmiş bütün torpaqlarından tamamilə və qeyd-şərtsiz çıxmasını nəzərdə tutan 822, 853, 874 və 884 nömrəli qətnamələrini indiyədək yerinə yetirməkdən qaçır.

Bəyanatda deyilir ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri və üzvləri tolerantlığa, dialoqa və qarşılıqlı anlaşmaya sadiq qalaraq Azərbaycan xalqı ilə tam həmrəylik ifadə edirlər. Azərbaycan xalqı davamlı olaraq beynəlxalq hüququn pozulması faktları ilə üz-üzə qalır. Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü beynəlxalq miqyasda tanınır, dəfələrlə BMT və digər beynəlxalq təşkilatlar tərəfindən dəstəklənib.

Biz Ermənistanın təxribatlarının çoxaldığı bir vaxtda baş verən silahlı münaqişədə həyatını itirənlərin ailələrinə ən dərin hüznlə başsağlığı veririk. Biz Azərbaycan Respublikasının öz ərazi bütövlüyünü bərpa etmək üçün göstərdiyi bütün səyləri tamamilə dəstəkləyirik. Biz beynəlxalq ictimaiyyəti, xüsusən də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatını öz qanuni öhdəliklərinə və mənəvi məsuliyyətlərinə sadiq qalaraq lazımi addımlar atmağa, o cümlədən Dağlıq Qarabağ və Azərbaycanın işğal edilmiş digər əraziləri ilə bağlı uzun zamandır dondurulmuş münaqişə hesab olunan problemi həll etməyə çağırırıq.

Hər yerdə olduğu kimi, Azərbaycandakı bir milyon qaçqın və məcburi köçkün də öz torpaqlarına qayıtmaq hüququnu gözləyir.

*Vayra Vike-Freyberqa,*
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,*
*1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti*

*İsmail Serageldin,*
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,*
*1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti*

*Zlatko Laqumciya,*
*2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş Naziri,*
*2012-2015-ci illərdə Bosniya və Herseqovinanın Baş Nazirinin müavini, Xarici İşlər naziri*

*Filip Vuyanoviç,*
*2003-2018-ci illərdə Monteneqronun Prezidenti*

*Jan Fişer,*
*2009-2010-cu illərdə Çex Respublikasının Baş Naziri*

*Hikmət Çətin,*
*1991-1994-cü illərdə Türkiyənin Xarici İşlər naziri*

*Mladen İvaniç,*
*2014-2018-ci illərdə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü*

*Ekmələddin İhsanoğlu,*
*2004-2014-cü illərdə İslam Əməkdaşlıq Təşkilatının Baş katibi*

*Eka Tkeşelaşvili,*
*2010-2012-ci illərdə Gürcüstanın Baş Nazirinin müavini*

*Katerina Yuşenko,*
*2005-2010-cu illərdə Ukraynanın birinci xanımı, "Ukrayna 3000" Beynəlxalq Xeyriyyə Fondunun Müşahidə Şurasının rəhbəri*

*İvo Yosipoviç,*
*2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti*

*Əmr Musa,*
*2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının Baş katibi,*
*1991-2001-ci illərdə Misirin Xarici İşlər naziri*

*Elza Papademitiou,*
*Yunanıstan Parlamentinin sabiq vitse-prezidenti*

*Petar Stoyanov,*
*1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti.*

*Ali Radanın vitse-spikeri:*

## "Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını dəstəkləyirik"

"Beynəlxalq hüququn bütün tələblərinə görə dövlətin ərazi bütövlüyünün toxunulmazlığı, o cümlədən ərazi bütövlüyünün bərpası üçün hər hansı imkandan istifadə edilməsi nəzərdə tutulur. Biz ilk gündən Azərbaycanın ərazi bütövlüyünü və onun bərpa olunmasını dəstəkləyirik".

Bu sözləri Ukrayna Ali Radası sədrinin birinci müavini Ruslan Stefançuk söyləyib.

O, qeyd edib ki, rəsmi Kiyevin mövqeyi beynəlxalq hüququn tələblərinə, suverenlik və ədalət prinsiplərinə əsaslanır.

R.Stefançuk deyib: "Bizim ərazi bütövlüyümüz də separatizmdən əziyyət çəkir. Bu mənada biz dost Azərbaycanın bu ağrılı problemini yaxşı başa düşürük. Azərbaycan Respublikasının ərazi bütövlüyünü birmənalı olaraq dəstəkləyir, ərazi bütövlüyünün pozulmasını və Azərbaycan torpaqlarının işğalını qətiyyətlə pisləyirik".

*A.Merejko:*

## "Azərbaycan özünün işğal edilmiş ərazilərini tamamilə azad edəcək"

"Azərbaycan Ukraynanın ərazi bütövlüyünü dəstəklədiyi kimi, Ukrayna da Azərbaycanın ərazi bütövlüyünü həmişə ardıcıl olaraq dəstəkləyib, indi də dəstəkləyir və dəstəkləyəcək".

Bu fikri Ukrayna Ali Radasının Xarici siyasət və parlamentlərarası əməkdaşlıq komitəsinin sədri Aleksandr Merejko söyləyib.

A.Merejko vurğulayıb ki, əvvələn, Ukraynanın bu mövqeyi beynəlxalq hüququn əsas prinsiplərinə tam müvafiqdir. İkincisi, Azərbaycan bizim strateji müttəfiqimizdir və bu fakt rəsmən təsbit olunub. Beynəlxalq hüquq baxımından Azərbaycan özünün işğal olunmuş ərazilərini azad etmək hüququna malikdir və bu hüquq BMT Nizamnaməsinin 51-ci - dövlətin ayrılmaz özünümüdafiə hüququndan söhbət gedən maddəsi, habelə BMT Təhlükəsizlik Şurasının bir sıra qətnamələri ilə uzlaşır.

A.Merejko deyib: "Siyasi baxımdan Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi üzrə hərəkətləri bəzən danışıqlar düyünə düşəndə, xüsusən onilliklər boyu davam edən səmərəsiz danışıqlardan söhbət gedəndə özünümüdafiə hüququndan istifadə edilməsi danışıqların düyünə düşməsindən real çıxış yoludur. Bu mənada biz müəyyən siyasi presedentin formalaşmasını müşahidə edirik.

Ümidvar olduğumuzu bildirmək istərdik ki, son nəticədə Azərbaycan özünün qanunsuz işğal edilmiş ərazilərini tamamilə azad edəcək".

## "Ermənilər, Qarabağ sizin torpağınız deyil, öz xalqınıza yalan məlumat verməyi dayandırın"

"Ermənilər, Qarabağ sizin torpağınız deyil. Öz xalqınıza yalan məlumat verməyi, alçaq uydurmanı və Azərbaycan torpaqlarına hücumu dayandırın".

Bu sözləri Ukrayna Ali Radasının deputatı Lyudmila Marçenko deyib.

Deputat qeyd edib ki, Ermənistan silahlı qüvvələri irimiqyaslı təxribat həyata keçirərək, Azərbaycan Ordusunun cəbhə xətti boyunca mövqelərini intensiv atəşə tutublar.

Dağlıq Qarabağ bölgəsində döyüş əməliyyatlarına Ermənistan başlayıb. Ermənistan KİV-i isə bu feyk və təhrikçi məlumatı fəal şəkildə yayır.

"Ukrayna Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir", - deyə L.Marçenko əlavə edib.

*İtaliyalı deputatlar:*

## "Azərbaycanın ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət edilməlidir"

İtaliya Senatının Xarici əlaqələr daimi komissiyasının üzvü, hakim "5 Ulduz Hərəkatı" partiyasından olan senator Canluka Ferrara mətbuata açıqlamasında Ermənistan tərəfindən Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə hücumlar vaxtı Azərbaycan mülki əhalisinin yaşadığı məntəqələrin hədəf alınmasının Cenevrə konvensiyalarını pozduğunu bildirib. O deyib ki, münaqişənin həlli BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini əsas götürərək Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış dövlət sərhədlərinin toxunulmazlığı prinsiplərinə tam hörməti özündə ehtiva etməlidir.

İtalyan senator habelə Ermənistan və Azərbaycan arasındakı münaqişənin kəskinləşməsindən və yeni böhranın Avropanın kandarında beynəlxalq müdaxilə riskini artırmasından narahatlığını ifadə edib. Canluka Ferrara Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində vəziyyətin daha da pisləşməməsi üçün uzun müddətdir ki, durğun vəziyyətdə olan danışıqların bərpa edilməsinə dəstəyini ifadə edib, Avropa İttifaqının diplomatik kanallardan istifadə edərək toqquşmaların dayandırılmasına zəmanət verə biləcəyinə ümid etdiyini deyib.

İtalyan senatorun açıqlaması İtaliyanın "İl Tempo", "Agenzia Nova", "Politicamente Corretto", "Adnkronos", "Fortune İtalia", "Maxim İtalia", "Notize Yahoo", "Libero Quotidiano", "TW News" kimi kütləvi informasiya vasitələri tərəfindən dərc edilib.

İtaliyanın "Agenzia Nova" xəbər agentliyinə açıqlamasında parlamentdə İtaliya-Azərbaycan Dostluq Assosiasiyasının sədri, "Leqa" partiyasından olan deputat Rossana Boldi Azərbaycan və Ermənistan arasında silahlı toqquşmaların artmasından narahatlığını ifadə edib. İtalyan deputat ümidvar olduğunu bildirib ki, İtaliya Minsk qrupunun üzvü kimi dövlətlərin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsiplərinə hörmətə əsaslanaraq, eləcə də BMT Təhlükəsizlik Şurasının 1993-cü il qətnamələrindən irəli gələrək Dağlıq Qarabağ probleminin danışıqlar vasitəsilə həlli üçün öz səylərini gücləndirəcək.

## "Bazar günü səhər tezdən baş verənlər müasir Ermənistanda mövcud olan açıq-aşkar nasist rejimin mahiyyətinin qanunauyğun ifadəsidir"

Bazar günü səhər tezdən Ermənistan ordusunun Azərbaycanın dinc əhalisinə raket-artilleriya zərbələri endirməsi mənə istər-istəməz 1941-ci il 22 iyun gününü xatırladır. O vaxt Hitler Almaniyasının qoşunları eynilə indiki kimi - istirahət günü, xaincəsinə və müharibə elan etmədən Sovet İttifaqına hücum etmişdi. Hərçənd, nasist Qaregin Njdenin ideyasının davamçılarının başqa cür hərəkət edəcəyini gözləməyə dəyməz.

Rusiyalı politoloq Oleq Kuznetsov bu fikirləri müsahibəsində söyləyib.

Rusiyalı ekspert deyib: "Tarix göstərir ki, nasizm və faşizm hansı milli zəmində formalaşmasından və inkişaf etməsindən asılı olmayaraq həmişə və hər yerdə nifrət, təcavüz və müharibə yolu seçir. 2020-ci il sentyabrın 27-də, bazar günü səhər tezdən baş verənlər gec-tez olmalı idi, çünki bu, müasir Ermənistanda illər boyu yaradılan və mövcud olan açıq-aşkar nasist rejimin mahiyyətinin qanunauyğun ifadəsidir.

Azərbaycan öz ərazisində və özünün ərazi bütövlüyü uğrunda müharibə aparmağa məcbur edilib, onun müharibəsi düzgün və ədalətlidir. Ümidvaram ki, bu müharibə ölkənin ən yeni tarixinə "Azadlıq müharibəsi", hətta "Vətən müharibəsi" adı ilə düşəcək və dünya tarixində bu cür müharibələrin hamısı kimi o da zəfərlə başa çatacaq. Mən Azərbaycan xalqına qələbə, Azərbaycan Ordusuna rəşadət arzu edirəm".

## Rusiyanın Azərbaycan Diaspor Təşkilatları Konfederasiyası bəyanatla çıxış edib

Rusiyanın Azərbaycan Diaspor Təşkilatları Konfederasiyası bəyanatla çıxış edib.

Bəyanatı akademik Fazil Qurbanov imzalayıb. Sənəddə qeyd edilir ki, Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun sərhəd xətti boyunca yerləşən mövqelərini yenidən iriçaplı silahlardan, minaatanlardan və müxtəlif çaplı artilleriya qurğularından şiddətli atəşə tutublar. Mülki əhali və hərbi qulluqçular arasında yaralananlar və həlak olanlar var.

Bəyanatda deyilir: "Ermənistan bir daha nümayiş etdirir ki, o, regionda sülhün və sabitliyin əleyhinədir. Rusiya Federasiyasının çoxmilyonlu azərbaycanlı diasporu, Rusiyanın Azərbaycan Diaspor Təşkilatları Konfederasiyası Ermənistan ordusunun Azərbaycanın yaşayış məntəqələrinə və dinc sakinlərinə qərəzli və məqsədyönlü şəkildə hücumlarını qətiyyətlə pisləyir".

Bəyanatda vurğulanır ki, Azərbaycan Silahlı Qüvvələri Ermənistanın növbəti hərbi təcavüzünü dəf etmək, mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün zəruri əks-hücum tədbirləri görür. Qeyd olunur ki, yaranmış vəziyyətə görə bütün məsuliyyət Ermənistanın siyasi rəhbərliyinin, şəxsən N.Paşinyanın və onun həmfikirlərinin üzərinə düşür.

Bəyanatda deyilir: "Biz Azərbaycan Respublikasının Prezidenti və Ali Baş Komandan, bütün fəaliyyətini Azərbaycanın qabaqcıl ölkəyə çevrilməsinə və ərazi bütövlüyünün, suverenliyinin qorunub saxlanmasına həsr etmiş, bütün beynəlxalq səviyyələrdə Ermənistan rəhbərliyinin görünməmiş hərəkətlərinə və sözlərinə layiqli cavab verən İlham Əliyevin xarici siyasət kursunu tamamilə dəstəkləyir və bəyənirik.

Biz Rusiyanın və dünyanın mütərəqqi ictimaiyyətini Ermənistanın ali rəhbərliyi tərəfindən yürüdülən, istər region ölkələri və xalqları, istərsə də bütün dünya üçün fəlakətli nəticələrə gətirib çıxara biləcək təhlükəli siyasəti qətiyyətlə pisləməyə çağırırıq!"

Rusiyanın Azərbaycan Diaspor Təşkilatları Konfederasiyası Azərbaycan xalqının həlak olmuş övladlarının ailələrinə dərin hüznlə başsağlığı verir.

## "Türkiyə haqlı mübarizəsində daim Azərbaycanın yanındadır"

Türkiyədə fəaliyyət göstərən Azərbaycan mədəniyyət və həmrəylik cəmiyyətləri Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatları ilə bağlı bəyanat yayıblar.

Bir çox dərnəklərin və qeyri-hökumət təşkilatlarının sədrlərinin imzası ilə yayımlanan bəyanatda Türkiyənin haqlı mübarizəsində daim Azərbaycanın yanında olduğu ifadə edilib. Bildirilib ki, cəbhə xətti boyunca Ermənistan ordusu tərəfindən genişmiqyaslı təxribatların törədildiyi və Azərbaycan Ordusunun mövqelərinə, mülki yaşayış məntəqələrinə iriçaplı silahlardan, toplardan və minaatanlardan atəş açılması barədə xəbərlər qardaş ölkədə hiddətlə qarşılanıb. Ermənistan ordusu tərəfindən Azərbaycan kəndlərinin iriçaplı silahlardan atəşə tutulması nəticəsində dinc əhali arasında ölən və xəsarət alanların olduğu, yaşayış məntəqələrinə ciddi ziyan dəyməsinə dair rəsmi açıqlamalar Türkiyədə böyük qəzəb doğurub. Azərbaycan dövlətinin özünümüdafiə hüququndan istifadə edərək qətiyyətli cavab verilməsi ilə bağlı qərarı qardaş ölkədə hamını həyəcanlandırdı. Azərbaycanın qətiyyətli cavab zərbələri nəticəsində Ermənistana məxsus 12 zenit-raket kompleksinin və bir çox hərbi texnikanın məhv edildiyini öyrəndik.

"Biz, Türkiyədə fəaliyyət göstərən QHT-lər olaraq bütün türk milləti ilə birlikdə haqlı davasında Azərbaycanın yanındayıq. İyirmi səkkiz ildir Azərbaycan torpaqlarını işğal edərək bölgədə gərginlik yaradan, beynəlxalq hüquq normalarına məhəl qoymayan, dəstəkçiləri ilə birlikdə Cənubi Qafqazı müharibə meydanına çevirməyə çalışan, minlərlə günahsız insanın ölümünə, eləcə də Xocalı soyqırımına səbəb olan Ermənistanı qətiyyətlə qınayırıq. Bu gün Türkiyə dövlətinin rəsmi şəxsləri tərəfindən Türkiyənin haqlı davasında daim Azərbaycanın yanında olduğuna dair bəyanatlar rəğbətlə qarşılandı. Hamımız Can Azərbaycanın yanındayıq və Vətən torpaqlarının işğaldan azad edilməsi üçün Ermənistanın təxribatlarına qarşı özünümüdafiə hüququndan istifadə edən Azərbaycan Ordusunun əsgərləri ilə çiyin-çiyinə döyüşməyə hazırıq", - deyə bəyanat xüsusi vurğulanıb.

**AZƏRTAC**

# Aşıq qardaş, "Cəngi" çal!

**Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Silahlı Qüvvələri torpaqlarını erməni işğalçılarından təmizlənməsinə başlayıb.**

Cana doyub canımız,
Çal, qaynasın qanımız.
Qırılsaq da hamımız,
Aşıq qardaş, "Cəngi" çal!

Hara deyim bu dərdi?
Ölümdən də betərdi.
Bu dərd qəddimi əydi,
Aşıq qardaş, "Cəngi" çal!

Kürəyimdən dəydi ox,
Ömür belə sürməz çox.
Qarabağdan xəbər yox,
Aşıq qardaş, "Cəngi" çal!

Günümüz qara gəlib,
Sevinci də dərd əmib.
Ələyimiz ələnib,
Aşıq qardaş, "Cəngi" çal!

Qaçqınam Vətənimdə,
Yaram var bədənimdə.
Göyə yetmir ünüm də,
Aşıq qardaş, "Cəngi" çal!

Bu günü niyə gördük?
Kədəri dərdlə hördük.
Quzunu qurda verdik,
Aşıq qardaş, "Cəngi" çal!

Əsirlər darda qalıb,
Ar, namus orda qalıb.
Qeyrət bəs harda qalıb?
Aşıq qardaş, "Cəngi" çal!

Ağdam, Laçın, Kəlbəcər
Deyir: - Gəl məni becər!
Yaram hər gün övc edər,
Aşıq qardaş, "Cəngi" çal!

Dözüm bu qədər olmaz,
Qeyrətsizdən ər olmaz.
İl dolanır, gəlir yaz,
Aşıq qardaş, "Cəngi" çal!

Günü günə satırıq,
Başı atıb yatırıq.
Söhbətlə baş qatırıq,
Aşıq qardaş, "Cəngi" çal!

Danışıqla iş aşmaz,
Yağı düşmən barışmaz.
Kişiliyə yaraşmaz,
Aşıq qardaş, "Cəngi" çal!

Ya yaşayaq, ya ölək,
Ya alışaq, ya sönək!
Gəlin yumruğa dönək!
Aşıq qardaş, "Cəngi" çal!

Sıralan, mərd əsgərim!
Qorxmaz igidim, nərim!
Dedim: - Allaha kərim!
Aşıq qardaş, "Cəngi" çal!

Hamı bir dərdə şərik,
Ata, oğul, həm ərik.
Şuşada görüşərik,
Aşıq qardaş, "Cəngi" çal!

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# Qurbanovlar ailəsi erməni təxribatının qurbanı oldu: ailə üzvlərindən ikisi məktəbli idi

Sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi və sosial obyektləri artilleriya qurğuları və digər silahlardan atəşə tutması nəticəsində mülki əhali, o cümlədən qadın və uşaqlar qətlə yetirilib, yaralanıb, həmçinin bir çox evə və mülki obyektə ciddi ziyan dəyib.



Ermənistan silahlı birləşmələrinin ölkəmizin dinc əhalisinə növbəti dəfə toplarla atəş açması nəticəsində Naftalanın Qaşaltı Qaraqoyunlu kəndinin sakini Qurbanov Elbrus İsa oğlu və onun 4 ailə üzvü olmaqla bütövlüklə bir ailə, o cümlədən uşaqlar həlak olub. Eyni zamanda 19 nəfər mülki şəxs müxtəlif növ bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib.

AZƏRTAC-ın bölgə müxbiri Qaşaltı Qaraqoyunlu kəndində olub və erməni təxribatının izlərini lentə alıb.

Kənd icra nümayəndəsi Bəhərçi Bayramov bildirib ki, sentyabrın 27-də və bu gün səhər düşmənin intensiv artilleriya atəşi Qaşaltı Qaraqoyunluda açıq-aydın eşidilirdi: "Qurbanovlar ailəsi də həmin vaxt evdə olublar. Onlar bu atəş səslərini eşidərək həyətə çıxıblar. Elə bu vaxt düşmənin hədəfinə tuş gəliblər. Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları nəticəsində yüksəkliklər azad olunduqdan sonra erməni təxribatının qarşısı alındı. Kənd sakinləri düşmənin dinc sakinləri hədəfə almasını, bu vəhşiliyi qəzəblə qarşılayırlar".

Təcavüz nəticəsində həlak olanlardan ikisi məktəblidir. 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov və onun əmisi qızı, 2006-cı il təvəllüdlü Fidan Qurbanova Z.Rüstəmov adına Qaşaltı Qaraqoyunlu kənd tam orta məktəbinin şagirdləridir.

Qeyd edək ki, Ermənistan tərəfi Azərbaycanın mülki əhalisini və infrastrukturunu məqsədyönlü şəkildə hədəfə almaqla beynəlxalq hüququn norma və prinsiplərini, xüsusilə də 1949-cu il Cenevrə Konvensiyasını kobudcasına pozub.


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

## ZGTTZ-nun 1547 layihəli yeni tikilən gəmiləri üçün elektrik materiallarının satın alınması məqsədilə

## *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 12 oktyabr 2020-ci il saat 18:00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1171**

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən Fizika, kimya və biologiya kabinetləri üçün mobil rəqəmsal laboratoriya avadanlığı dəstlərinin satın alınması məqsədilə 24.08.2020-ci il tarixdə keçirilmiş açıq tender prosedurunun nəticəsinə əsasən, "LABDİSC AZƏRBAYCAN" QSC qalib elan edilmişdir.
Həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi Publik Hüquqi Şəxsi

## *açıq tenderə dəvət edir*

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi Publik Hüquqi Şəxsi "Əlillik" (TSERAS) altsisteminin təkmilləşdirilməsi xidmətinin satın alınması üzrə açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, **https:www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 200 (iki yüz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi Publik Hüquqi Şəxsi**
**VÖEN: 1003853391**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/HESABI: AZ41CTRE00000000000002947601**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri-notarial qaydada təsdiq olunmuş;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) - 28.09.2020-ci il tarixdən sonrakı tarixdə alınmış məlumat qəbul ediləcəkdir;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti - 2019-cu il üzrə maliyyə hesabatının surəti təqdim olunmalı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) - 28.09.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatlar);*
- *digər qurumların və nazirliyin informasiya sistemləri ilə işləməsi üçün "fərdi məlumatlarla işləmə" lisenziyasının (Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən verilmiş lisenziya) olması;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 16.10.2020-ci il saat 15:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 26.10.2020-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 27.10.2020-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

## *açıq tenderə dəvət edir*

Tender 4 LOT üzrə keçirilir:
**LOT 1- 3000 ədəd LTE abunəçi terminallarının quraşdırılması üçün tələb olunan mal-materialların satın alınması.**
**LOT 2 - Sənaye tipli kondisionerlərin satın alınması.**
**LOT 3 - Yük avtomobillərinin satın alınması.**
**LOT 4 - GPON layihəsində və xətt təsərrüfatının təmiri işlərində istifadə etmək üçün tikinti materiallarının (qum, sement, çınqıl və s) satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1 - 500 (beş yüz ) manat (ƏDV daxil)**
**LOT 2 - 400 (dörd yüz ) manat (ƏDV daxil)**
**LOT 3 - 200 (iki yüz ) manat (ƏDV daxil)**
**LOT 4 - 300 (üç yüz ) manat (ƏDV daxil)**

iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına "ASAN Ödəniş" portalı vasitəsilə ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: "Azərpoçt" MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **20 oktyabr 2020-ci il saat 11:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **28 oktyabr 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **29 oktyabr 2020-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada **etender@gov.az** dövlət satınalmalarının vahid internet Portalında aparılır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Bakı Metropoliteninin III yeni ("Bənövşəyi") xəttinə aid "B-3" stansiyasının yerüstü sahəsinin abadlaşdırılması layihəsi çərçivəsində yaşıllaşdırma işlərinin satın alınmasına dair 25.09.2020-ci il tarixdə keçirilən açıq tenderdə iddiaçıların sayı 3 (üç)-dən az olduğuna görə tender baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

*Tender komissiyası*


# "Azərişıq" ASC-də Xüsusi Qərargah yaradılıb

"Azərişıq" ASC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə,təmas xətti boyunca yerləşən yaşayış məntəqələrində "Azərişıq" ASC əməkdaşları növbətçilik əsasında gücləndirilmiş iş rejimində fəaliyyətini davam etdirir. Erməni silahlı qüvvələri tərəfindən atılan mərmilər bəzi yerlərdə elektrik enerjisi xətlərinin zədələnməsinə səbəb olub. Ərazidə olan "Azərişıq" ASC əməkdaşları operativ şəkildə elektrik xətlərini təmir edirlər.

Cəbhə xəttində yerləşən rayonlara ehtiyat transformatorlar, naqillər, dayaqlar, ehtiyat hissələri və böyük həcmdə əlavə mal-material göndərilib. Bütün cəbhəboyu rayonlarda xüsusi əhəmiyyətli binalar əlavə olaraq generatorlarla təmin edilib. Məqsəd ən çətin məqamlarda belə vətəndaşlarımızı fasiləsiz və dayanıqlı şəkildə elektrik enerjisi ilə təmin etməkdir.

Sərhəd rayonlarına ezam olunan "Azərişıq" ASC-nin rəhbər heyəti vəziyyətə yerindəcə nəzarət edir və müntəmadi olaraq əməkdaşlara təlimatlandırır.


## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 07.10.2020-ci il tarixdə keçirilməsi nəzərdə tutulan Bakı Metropoliteninin III yeni ("Bənövşəyi") xəttinə aid "Xocasən" elektrik depounda Blok Post binasında, B-DA-00 yarımstansiyasında, 1 və 2 saylı Nəzarət Buraxılış Məntəqələrində ventilyasiya sisteminin quraşdırılması işlərinin satın alınması üzrə açıq tenderin vaxtı 06 oktyabr 2020-ci il saat 14:30-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 14 oktyabr 2020-ci il saat 14:30-a qədər, tender təklifi və bank təminatını isə 15 oktyabr 2020-ci il saat 14:30-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Pedaqoji Kolleci tərəfindən 23.09.2020-ci il tarixdə elan olunmuş digər maşın və avadanlıqların satın alınması müsabiqəsi "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin 11.1 bəndinə əsasən ləğv edilmişdir.

*Tender komissiyası*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## ALLAH RƏHMƏT ELƏSİN!

Səbail rayonu 219 saylı tam orta məktəbin rəhbərliyi və müəllim kollektivi məktəbin riyaziyyat müəllimi Elmira Xəlilovaya

**ANASININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 7644
Sifariş 2289
Qiyməti 40 qəpik